Xalqın qəzeti!

# Xalq qəzeti

№ 39 (31008) 28 fevral 2026-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Uzaq Efiopiya yaxın ölkəyə çevrilir

## Efiopiyanın Baş naziri Abiy Əhməd Əlinin Azərbaycan Respublikasına rəsmi səfəri

### *Rəsmi qarşılanma mərasimi*



**Fevralın 27-də Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əlinin rəsmi qarşılanma mərasimi olub.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Efiopiyanın Baş nazirinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Efiopiyanın Baş naziri Abiy Əhməd Əlini və birinci xanım Zinaş Tayaçevi qarşıladılar.

*(ardı 2-ci səhifədə)*

## “Xocalı” kimi “Sumqayıt” da ermənilərin vicdanında ləkədir



Səhifə ⇨ 10



## Diplomatik söz oyunu məsuliyyətə kölgə salır

Səhifə ⇨ 8

## “Xocalı həqiqətləri” Amerikanı dolaşır




Səhifə ⇨ 7


## Ermənistan əl çəkdi, İsveçrə əl çəkmir



Səhifə ⇨ 6

## Xaricdəki xainlər haqqında nekroloq əvəzi



Səhifə ⇨ 7

## Ermənistanın seçimi və Qərbin “hibrid” dəstəyi



Səhifə ⇨ 8

## Milli rəqəmsal intibah



Səhifə ⇨ 12

## “I Türkoloji Qurultayın qurucuları və dərsləri: tarix və müasirlik”



Səhifə ⇨ 13

## Sən nə rahatsan, a yol!



Səhifə ⇨ 14

## Ermənistan – İran tərəfdaşlığı gündəmdədir



Səhifə ⇨ 15

## Pakistan–Əfqanıstan sərhədi yenidən od tutub



Səhifə ⇨ 15

# Rəsmi qarşılanma mərasimi





*(əvvəli 1-ci səhifədə)*

Fəxri qarovul dəstəsinin rəisi Efiopiyanın Baş nazirinə raport verdi.

Efiopiya Federativ Demokratik Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Efiopiyanın Baş naziri Abiy Əhməd Əlinin qarşısından keçdi.

Sonda rəsmi foto çəkdirildi.

# Prezident İlham Əliyevin Efiopiyanın Baş naziri ilə təkbətək görüşü



Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əli ilə təkbətək görüşü olub.

# Azərbaycanın və Efiopiyanın birinci xanımlarının görüşü



Fevralın 27-də Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın Efiopiyanın birinci xanımı Zinaş Tayaçev ilə görüşü olub.

# Liderlərin geniş tərkibdə görüşü və sənədlərin imzalanması



**Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əli ilə geniş tərkibdə görüşü oldu.**



**Qonaqları salamlayan Prezident İlham Əliyev dedi:** Hörmətli cənab Baş nazir, hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz. Çox şadam ki, bizi ziyarət edirsiniz. Bizim elə indicə cənab Baş nazirlə çox yaxşı söhbətimiz oldu və biz tərəfdaşlığımızın bir çox vacib sahələrini əhatə etdik. Mən cənab Baş nazirə bu yaxınlarda Efiopiyaya səfər etmiş qızım Leylaya göstərdiyi qonaqpərvərliyə görə minnətdarlığımı ifadə etdim. Bu səfər ona yaxşı, böyük təəssürat bağışladı. Yeri gəlmişkən, o, ilk dəfədir ki, nümayəndə heyətlərinin görüşündə iştirak edir və bu, onun Sizin ölkənizə, Sizin xalqınıza olan çox xüsusi münasibəti ilə bağlıdır. Mən Sizi bütün nailiyyətləriniz münasibətilə təbrik etmək istəyirəm.



Sizin rəhbərliyinizlə Efiopiya uğurla inkişaf edir, beynəlxalq birliyin vacib bir üzvüdür və iqtisadiyyatınız da artır. Əlbəttə ki, biz ikitərəfli münasibətlərimizin siyasi və iqtisadi, energetika, kənd təsərrüfatı, mədəniyyət sahələrində gücləndirilməsində çox maraqlıyıq. Bir sözlə, əminəm ki, bu səfər bizim gələcək uğurlu əməkdaşlığımız üçün vacib amil olacaq və ölkələrimizə, xalqlarımıza çox yaxşı nəticələr verəcək. Bir daha xoş gəlmisiniz.

*

Sonra **Baş nazir Abiy Əhməd Əli** çıxış edərək dedi: Cənab Prezident, əziz Qardaşım. Gözəl ölkənizdə olmaqdan məmnunam və şərəf hissi duyuram. Bakı gözlədiyimdən qat-qat təmiz və gözəl şəhərdir. Bu isə ölkə rəhbərliyinin buna sadiqliyini və yanaşmasını göstərir. Bu, məni çox sevindirir. Həmçinin Sizi təbrik etmək istərdim ki, dostlarınızın hamısı Sizinlə qürur duyur və Sizdən bir çox şeyləri öyrənirlər. Gözəl ölkənizlə münasibətlərimiz, qeyd etdiyiniz kimi, hələ sadəcə başlayır. Bununla belə, biz bu münasibətlərin strukturlaşmış, əməli və aydın nəticələrə yönəlmiş olmasını istəyirik.

İki ölkə arasında çoxlu ortaq maraqlar var. İkimiz arasında, həmçinin çox uzlaşma mövcuddur. İndicə başladığımızla yanaşı, ümid edirəm ki, növbəti bir neçə ildə bizim birlikdə sərmayə yatıracağımız vacib sahələr olacaq və beləliklə, hər iki ölkə üçün fərq yaradacağıq.

Leylaya gəldikdə, mən dostlarla ünsiyyət qura bilən və möhkəm bünövrə əsasında münasibətlər yaratmağı bacaran belə təcrübəli qızınızın olduğu üçün Sizi təbrik etmək istəyirəm. Əminəm ki, növbəti səfərdə o, ölkəmizin bəzi bölgələrini görəcək və mən də komandamı, ailəmi Azərbaycanla tanış olmaq və münasibətlərimizi gücləndirmək üçün göndərəcəyəm.

Müzakirə edəcəyimiz çox sahələr var. Sizinlə çox məhsuldar və səmimi müzakirəmiz oldu. Bu məsələlərin bəzilərinin müzakirəsini burada davam etdirə bilərik. Ümumiyyətlə, mən gözəl ölkənizə səfər etməkdən çox şadam. Artıq çox böyük marağım yaranıb. Mən daha çox bilməyi, öyrənməyi və bir çox sahələrdə Sizinlə işləməyi səmimiyyətlə arzulayıram. Çox sağ olun, cənab Prezident.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm.

*

Söhbət zamanı Azərbaycanla Efiopiya arasında siyasi dialoqun inkişafından məmnunluq ifadə olundu, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu. Həmçinin kənd təsərrüfatı, mədən sənayesi, enerji, energetika, rəqəmsal transformasiya, süni intellekt sahələrində birgə kadr hazırlığı, turizm, mədəniyyət, təhsil, o cümlədən tələbə mübadiləsinin həyata keçirilməsi üzrə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

Görüşdə, eyni zamanda, Efiopiyada "ASAN xidmət" konsepsiyası əsasında mərkəzlərin uğurla fəaliyyət göstərməsi, həmçinin "DOST" təcrübəsinin tətbiqi ilə bağlı müzakirələrin aparıldığı qeyd edildi.

*



Daha sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Efiopiyanın Baş naziri Abiy Əhməd Əlinin iştirakı ilə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Efiopiyanın xarici işlər naziri Qedion Timoteos "Azərbaycan Respublikası ilə Efiopiya Federativ Demokratik Respublikası Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"i və "Birləşmiş Millətlər Təşkilatının İqlim Konfransının (COP32) otuz ikinci sessiyasının təşkilində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzaladılar.

Qeyd edək ki, Efiopiyanın Baş nazirinin ölkəmizə səfəri çərçivəsində "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Efiopiya Federativ Demokratik Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Efiopiyanın Federal Etika və Antikorrupsiya Komissiyası arasında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi ilə Efiopiya İnvestisiya Komissiyası arasında Anlaşma Memorandumu" və "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC ilə Efiopiya Yayım Korporasiyası arasında Anlaşma Memorandumu" imzalanıb.

# Efiopiyanın Baş nazirinin şərəfinə nahar



Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından Efiopiyanın Baş naziri Abiy Əhməd Əlinin və birinci xanım Zinaş Tayaçevin şərəfinə rəsmi nahar verilib.

*AZƏRTAC*

# “Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, ölkə iqtisadiyyatında müasir texnologiyaların tətbiqinin və yerli istehsal potensialının genişləndirilməsi, habelə dövlət idarəetməsinin və infrastrukturun yüksək səviyyədə rəqəmsallaşdırılması əsasında dayanıqlı, rəqabətqabiliyyətli inkişafın təmin edilməsi məqsədilə **qərara alıram:**

**1** “Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı” (bundan sonra – Fəaliyyət Planı) təsdiq edilsin *(əlavə olunur)*.

**2** Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi dövlət büdcəsi və qanunla nəzərdə tutulan digər mənbələr hesabına təmin edilsin.

**3** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurası Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti həyata keçirsin.

**4** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

4.1. Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə rübdə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.2. Fəaliyyət Planında müəyyən edilmiş tədbirlərin maliyyələşdirilməsi məqsədilə hər il dövlət büdcəsinin tərtibi prosesində zəruri maliyyə vəsaitinin nəzərdə tutulması, həmin vəsaitin bölgüsü, büdcə ilinin istənilən vaxtında digər istiqamətlər üzrə xərclənməsi və ilin sonunadək xərclənməməsinin (büdcəyə qaytarılmasının) təsirləri barədə təkliflərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin.

**5** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

5.1. Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi məqsədilə hər il dövlət büdcəsinin tərtibi prosesində, maliyyə ekspertizası aparılmaqla, zəruri maliyyə vəsaitinin ayrıca sətirlə nəzərdə tutulması üçün müvafiq işlər görsün;

5.2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə razılaşdırmaqla, bu Sərəncamın 4.2-ci bəndində nəzərdə tutulan tədbirləri həyata keçirsin.

**6.** Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

**7.** Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə, dövlət adından yaradılan publik hüquqi şəxslərə və digər büdcə təşkilatlarına tapşırılsın, Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Azərbaycan Respublikasının Baş Prokurorluğuna, Azərbaycan Respublikasının Mərkəzi Bankına, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinə (ombudsmana), Azərbaycan Respublikasının Hesablama Palatasına, Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurasına və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına tövsiyə edilsin ki:

7.1. Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və tam icrasını təmin etsinlər;

7.2. Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrası barədə aylıq məlumatları hər növbəti ayın 10-dək Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə təqdim etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 fevral 2026-cı il**

# Uşaqların rəqəmsal mühitdə zərərli məzmun və təsirlərdən qorunması ilə bağlı tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikasında informasiya-kommunikasiya texnologiyalarının inkişafı və rəqəmsal texnologiyaların geniş tətbiqi sosial şəbəkələrin ictimai münasibətlər sistemində əhəmiyyətli yer tutmasına səbəb olmuşdur. Sosial münasibətlərin sürətlə rəqəmsallaşması və sosial şəbəkələrin uşaqların gündəlik həyatına getdikcə daha erkən yaşda daxil olması, həmin şəbəkələr vasitəsilə informasiyanın istehsalı, yayılması və istehlakının miqyasının artması bu sahədə hüquqi tənzimləmənin mövcud vəziyyətinin müasir texnoloji, sosial və təhlükəsizlik çağırışları baxımından təhlilini və təkmilləşdirilməsini zəruri edir.

Beynəlxalq təşkilatların və elmi tədqiqat qurumlarının araşdırmaları, digər ölkələrin təcrübəsi göstərir ki, uşaqların rəqəmsal mühitdə qorunmasına diqqət yetirilməsi, onların psixoloji rifahı və təhlükəsizliyi, sağlam inkişafı üçün xüsusi hüquqi müdafiə və texnoloji mühafizə mexanizmlərinin tətbiqi tələb olunur. Bu yanaşmada rəqəmsal mühitdə uşaqların şəxsi həyatının, ləyaqətinin və təhlükəsizliyinin bilavasitə dövlətlər tərəfindən qorunması tövsiyə edilir. Beynəlxalq təcrübədə, ilk növbədə, sosial şəbəkələrin fəaliyyətinin tənzimlənməsi, onlara uşaqlar üçün risklərin azaldılması, məlumatların daha ciddi mühafizəsi və təhlükəsizliyi ilə bağlı öhdəliklər müəyyən edən tələblərin tətbiqinin geniş vüsət alması müşahidə olunur.

Bu yeni tələblər sosial şəbəkələrin fəaliyyətinin sistemli hüquqi çərçivədə tənzimlənməsi, valideyn nəzarəti, platformadaxili təhlükəsizlik mexanizmləri və yaşa uyğun məzmun filtrləri vasitəsilə uşaqların və yeniyetmələrin rəqəmsal mühitdə təhlükəsizliyini təmin edir, həmçinin onların kritik informasiyanı təhliletmə, davranış və bilgi mədəniyyətinin inkişafına şərait yaradır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, uşaqların rəqəmsal mühitdə müdafiəsi sahəsində balanslaşdırılmış, sübuta əsaslanan və sistemli yanaşmanın, sosial şəbəkələrdən istifadə sahəsində rəqəmsal bacarıqların təşviqi, onlayn davranış mədəniyyətinin formalaşdırılması və yaradıcı rəqəmsal potensialın inkişaf etdirilməsi məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. aidiyyəti dövlət orqanlarını (qurumlarını), elmi müəssisə və təşkilatları, mütəxəssisləri və vətəndaş cəmiyyəti institutlarını cəlb etməklə və beynəlxalq təcrübə nəzərə alınmaqla, ölkə ərazisində uşaqların sosial şəbəkələrdəki zərərli məzmun və təsirlərindən qorunmasını, o cümlədən sosial şəbəkələrdə qeydiyyat zamanı yaş məhdudiyyətinin tətbiqini əhatə edən normativ hüquqi aktların layihələrini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. məktəbəhazırlıq qruplarında və ümumi təhsil müəssisələrində mobil və elektron cihazlardan istifadəyə dair qaydaların müəyyən edilməsi və tətbiqi ilə bağlı tədbirlər görülməsini təmin etsin;

1.3. məktəbəhazırlıq və ümumi təhsil fənləri üzrə təhsil proqramlarına (kurikulumlara), o cümlədən məzmun standartlarına rəqəmsal savadlılıq, kibertəhlükəsizlik və məsuliyyətli onlayn davranış mövzularının daxil edilməsi, eyni zamanda mediada valideynlər, müəllimlər və uşaqlara yönələn maarifləndirmə proqramlarının hazırlanıb həyata keçirilməsi ilə bağlı tədbirlər görsün;

1.4. sosial şəbəkələrdən qanunauyğun istifadənin, belə istifadə zamanı uşaq hüquqlarının müdafiəsinin təmin edilməsi ilə bağlı mütəmadi maarifləndirmə işinin həyata keçirilməsi, o cümlədən uşaqların rəqəmsal rifahına dair elmi tədqiqatlar aparılmasının təşviq edilməsi məqsədilə tədbirlər görsün;

1.5. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 fevral 2026-cı il**

# Azərbaycan Respublikasında rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində (bundan sonra – rəqəmsal inkişaf) prioritet istiqamətlərin müəyyənləşdirilməsi, milli texnoloji potensialın gücləndirilməsi, rəqəmsal suverenliyin möhkəmləndirilməsi, innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsi, həmçinin bu sahədə dövlət siyasətinin vahid və əlaqələndirilmiş şəkildə həyata keçirilməsi məqsədilə **qərara alıram:**

**1** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurası (bundan sonra – Şura) yaradılsın.

**2** Şuranın aşağıdakı tərkibi təsdiq edilsin:

**Şuranın sədri**

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti

**Şuranın üzvləri:**

Azərbaycan Respublikası Prezidentinin köməkçisi – İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri

Azərbaycan Respublikası Prezidentinin köməkçisi – İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri

Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisi

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri

Azərbaycan Respublikasının elm və təhsil naziri

Azərbaycan Respublikasının ədliyyə naziri

Azərbaycan Respublikasının maliyyə naziri

Azərbaycan Respublikasının iqtisadiyyat naziri

Azərbaycan Respublikası Mərkəzi Bankının sədri

Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru.

**3** Şuranın fəaliyyətinin təşkili məqsədilə Şuranın Katibliyi yaradılsın və Katiblik funksiyasının həyata keçirilməsi Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə həvalə edilsin.

**4.** Müəyyən edilsin ki, Şura bu Fərmanın 5-ci hissəsində nəzərdə tutulmuş vəzifələrin icrası məqsədilə yerli və xarici ekspertləri, mütəxəssisləri, beynəlxalq təşkilatları, elmi müəssisə və təşkilatları cəlb edə, habelə aidiyyəti dövlət orqanlarının (qurumlarının) və digər maraqlı tərəflərin nümayəndələrindən ibarət ayrı-ayrı istiqamətlər üzrə işçi qruplar yarada bilər.

**5** Şura rəqəmsal inkişaf sahəsi üzrə:

5.1. dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin icrasına nəzarəti və dövlət orqanları (qurumları) arasında siyasətin əlaqələndirilməsini təmin etsin;

5.2. dövlət orqanları (qurumları) tərəfindən icra olunan layihələrin bu sahədə mövcud strateji məqsədlərə uyğunluğunun təmin edilməsinə nəzarəti həyata keçirsin;

5.3. dövlət orqanlarının (qurumlarının) təklifləri və beynəlxalq təşkilatların tövsiyələri nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı tədbirlər görsün.

**6.** Şura fəaliyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 fevral 2026-cı il**

# C.R.Hüseynovun Azərbaycan Respublikasının Bəhreyn Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Cavidan Rizvan oğlu Hüseynov Azərbaycan Respublikasının Bəhreyn Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 fevral 2026-cı il**

# E.E.Məmmədovun Azərbaycan Respublikasının Bolqarıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elmar Eldar oğlu Məmmədov Azərbaycan Respublikasının Bolqarıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 fevral 2026-cı il**

# K.V.Məmmədzadənin Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Kamran Vahid oğlu Məmmədzadə Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 fevral 2026-cı il**

# C.R.Hüseynovun Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində Azərbaycan Respublikasının baş konsulu vəzifəsindən geri çağırılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Cavidan Rizvan oğlu Hüseynov Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində Azərbaycan Respublikasının baş konsulu vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 fevral 2026-cı il**

# “Minatəmizləmə fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 90-VIIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Minatəmizləmə fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 90-VIIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 aprel tarixli 394 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 326 (Cild I); 2025, № 6, maddələr 541, 559, № 11, maddə 1039) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnamə”nin 8.55-ci bəndi aşağıdakı redaksiyada verilsin:

“8.55. aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə minatəmizləmə fəaliyyətinin həyata keçirilməsində iştirak etmək;”.

2. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 dekabr tarixli 511 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1058 (Cild I); 2024, № 4, maddə 393, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə qoşunları haqqında Əsasnamə”nin 8.20-ci bəndi aşağıdakı redaksiyada verilsin:

“8.20. aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə minatəmizləmə fəaliyyətinin həyata keçirilməsində iştirak etmək;”.

3. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 3 aprel tarixli 73 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 4, maddə 218 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidməti haqqında Əsasnamə”nin 8.4-cü bəndi aşağıdakı redaksiyada verilsin:

“8.4. aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə minatəmizləmə fəaliyyətinin həyata keçirilməsində iştirak etmək;”.

4. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 7 avqust tarixli 1573 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 8, maddə 1520 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 28 yanvar tarixli 593 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Nizamnaməsi”nə aşağıdakı məzmunda 3.1.16-3-cü yarımbənd əlavə edilsin:

“3.1.16-3. “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Qoruqların ərazilərində minatəmizləmə fəaliyyəti həyata keçirilərkən daşınmaz tarix və mədəniyyət abidələri aşkar edildiyi halda, onların yerləşdiyi ərazidə minatəmizləmə fəaliyyətinin həyata keçirilməsinə icazə vermək;”.

5. “Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1209 (Cild I); 2024, № 5 (I kitab), maddə 529; 2025, № 7, maddə 662; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 28 yanvar tarixli 593 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

5.1. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə”nin 3.2.19-cu yarımbəndində “və digər təsərrüfat işləri görülərkən” sözləri “, təsərrüfat və digər işlər görülərkən, o cümlədən minatəmizləmə fəaliyyəti həyata keçirilərkən” sözləri ilə, “və digər təsərrüfat işlərinin” sözləri “, təsərrüfat və digər işlərin, o cümlədən minatəmizləmə fəaliyyətinin” sözləri ilə əvəz edilsin;

5.2. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti haqqında Əsasnamə”nin 3.0.40-cı yarımbəndində “və digər təsərrüfat işləri görülərkən” sözləri “, təsərrüfat və digər işlər görülərkən, o cümlədən minatəmizləmə fəaliyyəti həyata keçirilərkən” sözləri ilə, “və digər təsərrüfat işlərinin” sözləri “, təsərrüfat və digər işlərin, o cümlədən minatəmizləmə fəaliyyətinin” sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 sentyabr tarixli 278 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1841 (Cild I); 2024, № 8, maddə 938, № 12 (II kitab), maddə 1373; 2025, № 7, maddə 659, № 10, maddə 901; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 28 yanvar tarixli 593 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi haqqında Əsasnamə”yə aşağıdakı məzmunda 3.0.33-2-ci yarımbənd əlavə edilsin:

“3.0.33-2. “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Qoruqların ərazilərində minatəmizləmə fəaliyyəti həyata keçirilərkən daşınmaz tarix və mədəniyyət abidələri aşkar edildiyi halda, onların yerləşdiyi ərazidə minatəmizləmə fəaliyyətinin həyata keçirilməsinə icazə vermək;”.

7. “Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli 1170 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1248 (Cild I); 2025, № 6, maddə 541) 7.1-ci bəndində “minalardan təmizləmə və zərərsizləşdirmə işlərinin” sözləri “minatəmizləmə fəaliyyəti üzrə işlərin” sözləri ilə əvəz edilsin.

8. “Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 15 yanvar tarixli 1251 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 21 (Cild I) 3.1-ci bəndindən “habelə” (birinci halda) və “, zərərsizləşdirilməsi” sözləri çıxarılsın və həmin bənddə “digər ərazilərin minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan” sözləri “ərazilərin və digər təhlükəli ərazilərin minalardan və digər partlayıcı sursatlardan”sözləri ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 1276 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 118 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin Nizamnaməsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

9.1. 1.1-ci bənddən “habelə” (birinci halda) və “, zərərsizləşdirilməsi” sözləri çıxarılsın və həmin bənddə “digər ərazilərin, kimyəvi silah istisna olmaqla, minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan (bundan sonra – minalardan və hərbi sursatdan)” sözləri “ərazilərin və digər təhlükəli ərazilərin minalardan və digər partlayıcı sursatlardan” sözləri ilə əvəz edilsin;

9.2. 2.1.5-ci yarımbənddə “ərazilərin” sözündən sonra “və digər təhlükəli ərazilərin” sözləri əlavə olunsun və həmin yarımbənddə “partlamamış hərbi sursatdan (kimyəvi silah istisna olmaqla)” sözləri “digər partlayıcı sursatlardan” sözləri ilə əvəz edilsin;

9.3. 3.1-ci bənd üzrə:

9.3.1. aşağıdakı məzmunda 3.1.1-1-ci yarımbənd əlavə edilsin:

“3.1.1-1. minatəmizləmə fəaliyyətinə dair tələblərə və mina əleyhinə beynəlxalq standartlara uyğun olaraq standart əməliyyat prosedurlarını müəyyən etmək;”;

9.3.2. 3.1.4-cü yarımbənddə “ərazilərin” sözündən sonra “və digər təhlükəli ərazilərin” sözləri əlavə olunsun və həmin yarımbənddə “partlamamış hərbi sursatdan (kimyəvi silah istisna olmaqla)” sözləri “digər partlayıcı sursatlardan” sözləri ilə, “, daşınmasını və zərərsizləşdirilməsini” sözləri “və daşınmasını” sözləri ilə əvəz edilsin;

9.3.3. 3.1.5-ci yarımbənddə “elektron məlumat bazası yaratmaq” sözləri “informasiya sisteminin aparılmasını təmin etmək” sözləri ilə əvəz edilsin;

9.3.4. 3.1.6-cı yarımbənddə “minaların və partlamamış hərbi sursatın təsirinə məruz qalmış” sözləri “təhlükəli” sözü ilə, “hərbi sursatdan” sözləri “digər partlayıcı sursatlardan” sözləri ilə, “elektron məlumat bazasına” sözləri “informasiya sisteminə” sözləri ilə əvəz edilsin;

9.3.5. 3.1.8-ci yarımbənddə “minaların və partlamamış hərbi sursatın təsirinə məruz qalması ehtimal edilən” sözləri “təhlükəli” sözü ilə əvəz edilsin;

9.3.6. 3.1.9-cu yarımbənddə “partlamamış hərbi sursatdan” sözləri “digər partlayıcı sursatlardan” sözləri ilə əvəz edilsin;

9.3.7. 3.1.10-cu yarımbənddə “hərbi sursatın (kimyəvi silah istisna olmaqla)” sözləri “digər partlayıcı sursatların” sözləri ilə əvəz edilsin;

9.3.8. 3.1.11-ci yarımbənddə “hərbi sursatdan (kimyəvi silah istisna olmaqla)” sözləri “digər partlayıcı sursatlardan” sözləri ilə əvəz edilsin;

9.3.9. 3.1.12-ci yarımbənddə “partlamamış hərbi sursatın (kimyəvi silah istisna olmaqla)” sözləri “partlayıcı sursatların” sözləri ilə əvəz edilsin;

9.3.10. aşağıdakı məzmunda 3.1.12-1-ci yarımbənd əlavə edilsin:

“3.1.12-1. minatəmizləmə fəaliyyətinin həyata keçirilməsi üçün qiymətləndirməni aparmaq;”;

9.3.11. 3.1.13-cü yarımbənddə “aparmaq” sözü “və təhlükəli ərazilərin təmizləmə keyfiyyətinin qiymətləndirilməsini həyata keçirmək” sözləri ilə əvəz edilsin;

9.3.12. aşağıdakı məzmunda 3.1.13-1-ci yarımbənd əlavə edilsin:

“3.1.13-1. keyfiyyətə nəzarət zamanı icraçı tərəfindən minatəmizləmə fəaliyyətinə dair tələblərin və standart əməliyyat prosedurlarının pozulması halı aşkar edildikdə icraçıdan pozuntunun aradan qaldırılmasını tələb etmək, buna riayət olunmadıqda icraçının minatəmizləmə fəaliyyətini dayandırmaq;”;

9.3.13. 3.1.14-cü yarımbənddə “partlamamış hərbi sursatdan” sözləri “digər partlayıcı sursatlardan” sözləri ilə əvəz edilsin;

9.3.14. 3.1.15-ci yarımbənddə “akkreditasiyadan keçirmək” sözləri “qiymətləndirmək” sözü ilə əvəz edilsin;

9.3.15. 3.1.16-cı yarımbənddə “partlamamış hərbi sursatdan” sözləri “digər partlayıcı sursatlardan” sözləri ilə əvəz edilsin;

9.3.16. 3.1.18-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“3.1.18. əhali arasında minaların və digər partlayıcı sursatların təhlükəsinə dair maarifləndirici tədbirlər həyata keçirmək, o cümlədən partlayıcı sursatların təhlükəsi, bununla əlaqədar dövlət orqanlarının (qurumlarının), fiziki və hüquqi şəxslərin vəzifələri, təhlükəli ərazilər və həyata keçirilən minatəmizləmə fəaliyyəti ilə bağlı maarifləndirici materialların hazırlanmasını və yayılmasını təmin etmək;”;

9.3.17. 3.1.19-cu yarımbənddə “etmək” sözündən sonra “, minatəmizləyənlərə qanunla müəyyən edilmiş qaydada təlimlər keçirmək və təlimlərin nəticəsində qiymətləndirmə apararaq sertifikat vermək” sözləri əlavə edilsin.

10. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 4 fevral tarixli 1280 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 122 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri haqqında Əsasnamə”nin 3.1.23-cü yarımbəndində “minatəmizləmə və minaların zərərsizləşdirilməsi işlərinin” sözləri “minatəmizləmə fəaliyyəti üzrə işlərin” sözləri ilə əvəz edilsin.

11. “Ağdam Sənaye Parkının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 28 may tarixli 1347 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 5, maddə 454 (Cild I) 6-cı hissəsində “, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı maddə olan qurğulardan və digər partlayıcı qalıqlardan” sözləri “və digər partlayıcı sursatlardan” sözləri ilə əvəz edilsin.

12. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1375 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 590 (Cild I); 2024, № 4, maddə 373; 2025, № 1, maddə 28, № 3, maddə 228, № 8, maddə 777) ilə təsdiq edilmiş “Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsi”nin 3.1.12-ci və 3.1.13-cü yarımbəndlərinə “təmir” sözündən sonra “, minatəmizləmə fəaliyyəti” sözləri əlavə edilsin.

13. “Azərbaycan Respublikasında minatəmizləmə fəaliyyətinin əlaqələndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 sentyabr tarixli 1441 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 9, maddə 981 (Cild I); 2025, № 2, maddə 108) aşağıdakı dəyişikliklər edilsin:

13.1. preambula üzrə:

13.1.1. “habelə” sözü çıxarılsın;

13.1.2. “digər ərazilərin minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlarından” sözləri “ərazilərin və digər təhlükəli ərazilərin minalardan və digər partlayıcı sursatlardan” sözləri ilə əvəz edilsin;

13.2. 1.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

“1.2. Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (bundan sonra – Agentlik) təklifləri əsasında, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin, müharibə və hərbi əməliyyatların təsirinə məruz qalmış ərazilərinin və digər təhlükəli ərazilərinin minalardan və digər partlayıcı sursatlardan təmizlənməsi sahəsində prioritet təşkil edən təhlükəli ərazilər nəzərə alınmaqla, minatəmizləmə ilə əlaqədar fəaliyyət planını hər il dekabrın 25-dək təsdiq etsin;”;

13.3. 1.6-cı bəndə “ərazilərin” sözündən əvvəl “təhlükəli” sözü əlavə olunsun və həmin bənddə “hərbi sursatdan” sözləri “digər partlayıcı sursatlardan” sözləri ilə əvəz edilsin;

13.4. 2.1-ci bəndə “ərazilərdə” sözündən əvvəl “təhlükəli” sözü əlavə edilsin.

14. “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 4 oktyabr tarixli 1453 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1097 (Cild I) 6-cı hissəsində “, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı maddə olan qurğulardan və digər partlayıcı qalıqlardan” sözləri “və digər partlayıcı sursatlardan” sözləri ilə əvəz edilsin.

15. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 11, maddə 1297 (Cild I); 2024, № 4, maddə 400, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddə 654, № 12 (II kitab), maddə 1360; 2025, № 4 (I kitab), maddə 330) aşağıdakı dəyişikliklər edilsin:

15.1. preambulanın üçüncü abzasının ikinci cümləsində “partlamamış hərbi sursatdan” sözləri “digər partlayıcı sursatlardan” sözləri ilə əvəz edilsin;

15.2. həmin Sərəncamla təsdiq edilmiş “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” üzrə:

15.2.1. 3.2-ci bəndin ikinci abzasında “, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan” sözləri “və digər partlayıcı sursatlardan” sözləri ilə əvəz edilsin;

15.2.2. “4. Hədəf göstəricilər” hissəsinin “Şəkil 1. Hədəf göstəriciləri” cədvəlinin “İNFRASTRUKTUR” sütununun birinci abzasında “partlamamış hərbi sursatdan” sözləri “digər partlayıcı sursatlardan” sözləri ilə əvəz edilsin;

15.2.3. 6.2.1-ci yarımbənd üzrə:

15.2.3.1. ikinci abzasda “hərbi sursatdan” sözləri “partlayıcı sursatlardan” sözləri ilə əvəz edilsin;

15.2.3.2. üçüncü abzasda “fəaliyyətinə dair təsdiq edilmiş illik tədbirlər” sözləri “ilə əlaqədar fəaliyyət” sözləri ilə, “partlamamış hərbi sursatdan” sözləri “digər partlayıcı sursatlardan” sözləri ilə, “və zərəsizləşdirilməsi, minaların və partlamamış hərbi sursatın təsirinə məruz qalmış” sözləri “, təhlükəli” sözü ilə əvəz edilsin;

15.2.4. 7.1-ci bəndin ikinci abzası üzrə:

15.2.4.1. birinci cümlədə “partlamamış hərbi sursatdan” sözləri “digər partlayıcı sursatlardan” sözləri ilə əvəz edilsin;

15.2.4.2. ikinci cümlədə “partlamamış hərbi sursatdan və digər partlayıcı qalıqlardan” sözləri “digər partlayıcı sursatlardan” sözləri ilə əvəz edilsin;

15.3. “10. Dövlət Proqramına dair Tədbirlər Planı” hissəsi üzrə:

15.3.1. 1.1-ci bənddə “partlamamış hərbi sursatdan” sözləri “digər partlayıcı sursatlardan” sözləri ilə əvəz edilsin;

15.3.2. 1.1.1-ci yarımbəndin “Tədbirin adı” sütununda “, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan” sözləri “və digər partlayıcı sursatlardan” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 fevral 2026-cı il**

# Soyqırımı Memorialı Xocalı şəhidlərinin intiqamını təcəssüm etdirir

**Xocalı Soyqırımı Memorial Kompleksinin aşılış mərasimində iştirak edən rayon ictimaiyyətinin nümayəndələri çox həyəcanlı idilər. Bu mərasimdə olmaq onları doğma yurdumuza qovuşdurmuş müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevlə növbəti görüş imkanı kimi xüsusilə qürurverici idi.**

2 il əvvəlki ilk görüşü – 2024-cü ilin 26 fevralını xatırlamamaq olmur... Ölkəmizin müxtəlif bölgələrində müvəqqəti məskunlaşmış bir qrup Xocalı sakini bu gün açılışı olacaq memorialın təməlqoyma mərasimində iştirak üçün yola çıxmışdı. İlk dəfə idi ki, yollar onları həsrətin sonuna, acılarımızın başladığı və bitdiyi yerə aparırdı. Bu, səfər iştirakçılarının əksəriyyətinin işğaldan azad olunmuş doğma Vətən torpağına ilk gəlişi idi.

Uzun illərdən sonra faciənin ildönümünü paytaxtda “Ana harayı”nın ətrafında deyil, azad Xocalının özündə anacaqdılar. Bu böyük günün gələcəyinə ümidlərini, inamlarını heç zaman itirməmişdilər, lakin vüsala çatmaq anının sevinci tamam fərqli olur. Odur ki, baxdığı hər yerdən xatirələri boylanan xocalılıların acıları əriyir, dərdləri azalır, bu qayıdış illərdir qaysaq bağlamayan yaralara məlhəm olur.

İlk dəfə idi ki, fevral soyuğu nəinki onları üşütmürdü, əksinə, sevincdən damarlarında qanları coşurdu. Axı düşmənlər layiqli cəzasına çatdırılmış, şəhidlərinin, günahsız qurbanlarının qisası alınmış Xocalıya qayıtmışdılar. Özü də bu gəliş daha sonuncu olmayacaqdı. Həmin gün dövlət başçısı təkcə soyqırımı memoralının deyil, bizim həmişəlik Xocalıya, ata-baba yurdlarımıza qayıdışımızın da təməlini atırdı.

...2026-cı il, 26 fevral. Səhər-səhər soyqırımının 34-cü ildönümünə və memorialın açılış mərasiminə tələsən xocalıların üzlərində faciəmizin kədəri ilə yanaşı, bugünün sevinci, qüruru da var. İki il əvvəlkindən fərqli olaraq yeni çəkilmiş Ağdam-Xocalı yolunun üstündə yerləşən kompleksə üz tutan avtobuslar daha ölkəmizin müxtəlif bölgələrindən deyil, Xocalının özündən, kəndlərindən yola düşür. Sərnişinləri isə artıq xeyli vaxtdır məcburi köçkünlüyün iztirabları ilə vidalaşaraq həmişəlik öz evlərinə dönməyin xoşbəxtliyini yaşayan Xocalının əsl sahibləridir.

Yolumuz çox uzaq olmasa da, söhbətimizin mənası dərin, məramı, məqamı ucadır. Hamının dilindən şükür duaları səslənir. Şükür edirik ki, öz elimizdə-obamızdayıq, müqəddəs şəhidlərimizin ruhları dinclik tapıb, şaddır. Şükür edirik ki, torpaqlarımız azaddır, ilahi ədalət bərqərar olub, mənfur düşmən layiqli cəzasını çəkir. Bir də şükür edirik ki, bizə bütün bunları bəxş edən qətiyyətli, sarsılmaz iradəli, Vətənini, millətini sonsuz məhəbbətlə sevən, Azərbaycanı qalib, güclü və qüdrətli dövlətə çevirən möhtərəm Prezidentimiz var!

Xocalı faciəsinin 34-cü ildönümündə və Soyqırımı Memorial Kompleksinin açılış mərasimində dövlət başçısının ailə üzvləri ilə birlikdə iştirakı, çıxışı zamanı işlətdiyi hər cümlə, hər söz Azərbaycanın şanlı qələbələri sayəsində yaratdığı reallıqların dünyaya çatdırılması baxımından xüsusi əhəmiyyət kəsb etdi. Mərasim iştirakçıları bu görüşdə başqa bir hiss də yaşadılar. Bu, xoş, uğurlu gələcəyimizə daha da artan, insanın qəlbini hüzurla, qətiyyətlə dolduran inam hissi idi.

O inam hissi ki, dövlət başçısı illər öncədən layihəsi hazır olan memorialın Bakıda deyil, Xocalıda tikilməsini gözləyib. Ali Baş Komandanımız bütün torpaqlarımız kimi, Xocalını da düşmən işğalından azad edəcəyinə, kompleksin məhz burada tikiləcəyinə necə inanıbsa, xocalılar da azadlığına qovuşmuş bütün torpaqlarımızın sürətlə dirçələcəyinə, yeni-yeni yurd yerlərimizə həyatın qayıdacağına, ən əsası Azərbaycana pis gözlə baxanın gözünün ovulacağına, xəbis niyyətlə yanaşanın başının əziləcəyinə elə inanırlar.

Möhtərəm Prezidentimizin çıxışı bu dəfə də inamımızı daha da artırdı, gücləndirdi. Sonda dövlət başçısının və ailə üzvlərinin Xocalı sakinləri ilə səmimi görüşləri və söhbətləri zamanı yaşanan təsirli anları isə sözlə ifadə etmək çətindir. Təsadüfi deyil ki, xocalılılar üçün heç zaman unudulmayacaq bu anlar bir Prezidentin öz xalqı ilə necə yaxın ola bildiyinin, xalqı tərəfindən necə sevildiyinin nümunəsi kimi bütün dünyada əks-səda verir.

Xocalılar şəhər azad ediləndən sonra ən qısa müddətdə – 8 ayda doğma yurdlarına qayıtmağa başladılar. 2 il 5 aydan sonra isə Xocalı şəhidlərinin dinclik tapdığı yuva - Soyqırımı Memorialının qapı-pəncərələri Ulu göylərə açıldı.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xocalı**

## Efiopiyanın Baş naziri Fəxri xiyabanda Ulu öndərin məzarını ziyarət edib



**Fevralın 27-də Azərbaycanda rəsmi səfərdə olan Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əli Fəxri xiyabana gələrək xalqımızın Ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.**

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Həmçinin görkəmli dövlət və ictimai xadim Əziz Əliyevin və istedadlı həkim Tamerlan Əliyevin məzarları ziyarət olunub və məzarların önünə gül dəstələri qoyulub.

## Abiy Əhməd Əli Səngəçal terminalında



**Azərbaycanda rəsmi səfərdə olan Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əli Səngəçal neft terminalında olub.**

Terminalla tanışlıq Xəzər regionunda bənzərsizliyi ilə seçilən Xəzər Enerji Mərkəzindən başlanıb.

Məlumat verilib ki, Azərbaycanın neft-qaz sənayesinin tarixini dolğun əks etdirən bu mərkəz ölkəmizin dünya neft və qaz sənayesindəki rolunu geniş təbliğ edir.

Mərkəz 2005-ci ildə yüksəksəviyyəli rəsmi qonaqların iştirakı ilə Prezident İlham Əliyev tərəfindən açılıb. Mərkəzin istifadəyə verilməsi Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin Azərbaycan hissəsinin açılışı ilə eyni vaxta təsadüf edib. Burada qonaqlar rəmzi nişan kimi öz əl izlərini qoyub və bu nişan Xəzər Enerji Mərkəzinin rəmzinə çevrilib. Mərkəzin əsas məqsədlərindən biri Azərbaycanın neft və qaz sənayesinin 150 ildən çox olan tarixini nümayiş etdirməkdir.

Ali qonağa respublikamızın neft tarixinin xronologiyası barədə ətraflı məlumat verilib. Bildirilib ki, neft və qaz sənayesi Azərbaycan üçün yalnız iqtisadi dəyər daşımır, o, eyni zamanda, milli qürur mənbəyidir. Dünyada ilk dəfə mexaniki üsulla neft quyusu 1847-ci ildə Bibiheybət ərazisində qazılıb. XIX əsrə qədər dünyada hasil edilən neftin yarısı ölkəmizin payına düşüb. XIX əsrin ikinci yarısında xarici ölkələrin iş adamları Azərbaycanda biznes fəaliyyətinə başlayıblar. Bunlara bütün dünyada tanınan Rotşildlər və Nobel qardaşlarını misal göstərmək olar. Dünyada məşhur olan Nobel mükafatı həm də Alfred Nobelin Bakıdakı neft yataqları üzrə səhmlərinin satışından əldə olunmuş vəsaitlərin toplanması hesabına yaradılıb.

İkinci Dünya müharibəsi illərində Sovet İttifaqında neftin 75 faizini hasil edən Azərbaycan ordunu yanacaqla təchiz edərək Qələbənin əldə olunmasında əhəmiyyətli rol oynayıb. Ötən əsrin 70-80-ci illəri isə Xəzər dənizinin dərinsulu sektorlarındakı yataqların işlənməsi və neft-kimya sənayesinin inkişafı ilə səciyyəvidir.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə nəhəng “Azəri-Çıraq-Günəşli” yatağının işlənilməsi məqsədilə “Əsrin müqaviləsi” kimi tanınan hasilatın pay bölgüsü haqqında müqavilə imzalanıb. Bu müqavilə ölkənin sürətli inkişafına təkan verərək, onu regional enerji mərkəzinə çevirib.

Efiopiyanın Baş naziri və onu müşayiət edən şəxslər müxtəlif yataqlardan hasil edilən neft nümunələrinə də baxıblar. Sonra Azərbaycanın neft tarixi və “Cənub Qaz Dəhlizi” layihəsindən bəhs edən videoçarx nümayiş etdirilib.

Bildirilib ki, Ümummilli lider Heydər Əliyevin neft strategiyası çərçivəsində ölkəmizdə irimiqyaslı enerji layihələri həyata keçirilib. Bu layihələrin təməlini qoyan Ulu öndər Azərbaycana milyard dollarla xarici sərmayələrin cəlb edilməsi üçün mühüm addımlar atıb. İlkin olaraq Xəzərin neft və qaz yataqlarının işlənilməsi və neft kəmərlərinin tikintisinə yönəldilmiş vəsaitlər sonradan digər sahələrin, xüsusilə qeyri-neft sektorunun inkişafına, iri infrastruktur layihələrinin həyata keçirilməsinə, yeni iş yerlərinin açılmasına şərait yaradan gəlir gətirib.

Bu gün Azərbaycanın dünyanın sürətlə inkişaf edən ölkələrindən birinə çevrilməsində və artıq özünün xarici sərmayələr yatırmaq iqtidarında olmasında bunun böyük rolu vardır. Vurğulanıb ki, tikintisinə 2001-ci ildə başlanmış terminalda xam neft üçün ümumi həcmi 880 min barel olan üç çən, baş nasos stansiyası, separatorlar, emal qurğuları və idarəetmə məntəqəsi var. Buraya fiber-optik rabitə kabelləri, sahildən 187 kilometr məsafədə yerləşən dəniz yataqlarından neft və qaz kəmərləri çəkilib.

Ali qonağa xatirə hədiyyələri təqdim olunub. Sonra Abiy Əhməd Əli avtobusla Səngəçal terminalının ərazisini gəzib. Ona terminaldakı texnoloji proseslər barədə ətraflı məlumat verilib. Bildirilib ki, Səngəçal terminalı Azərbaycanın neft və qaz sənayesinin döyünən ürəyi hesab edilir. Terminal Azərbaycanın Xəzər dənizindəki yataqlarından hasil edilən xam neftin və qazın qəbul edildiyi, emal olunduğu, saxlandığı və ixrac edildiyi məkandır.

“Azəri-Çıraq-Günəşli” yatağından ötürülən neft və “Şahdəniz”dən nəql edilən qaz terminala daxil olur, əsasən Bakı-Tbilisi-Ceyhan və Cənubi Qafqaz Boru Kəməri ilə ixrac edilir. Dünyanın ən böyük və səmərəli neft və qaz terminallarından sayılan Səngəçal terminalının sahəsi 550 hektardan çoxdur. Terminalda gündə 1,2 milyon bareldən çox xam neft və 40 milyon kubmetrdən artıq qaz emal edilir. Onun xam neft saxlama həcmi 3,2 milyon barel təşkil edir. Terminalın sahəsi mürəkkəb boru kəmərləri və avadanlıq şəbəkəsi ilə əhatə olunub. Dənizdəki qurğulardan terminala daxil olan boru kəmərləri müxtəlif marşrutlara istiqamətlənməklə, Azərbaycanın yüksəkkeyfiyyətli xam neftini və qazını dünya bazarlarına nəql edir. Bundan əlavə, terminal Qazaxıstan və Türkmənistan neftini də qəbul edir. “İlkin Neft Layihəsi” və “Səngəçal Terminalının Genişləndirilməsi Proqramı” çərçivəsində terminalın ötürmə və emal imkanları daha da artırılıb.



*XQ*

## İqtisadi Şuranın növbəti iclası

**Fevralın 27-də Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində Azərbaycan Respublikası Prezidentinin 30 may 2025-ci il tarixli Sərəncamındakı tapşırıqlardan irəli gələrək “Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın layihəsi və əsas hədəflərin müzakirəsi, “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı”nın layihəsi, eləcə də 2025-ci ildə iqtisadi artım, onun əsas amilləri və fəaliyyət sahələrində mövcud vəziyyət, 2025-ci ilin yekunları üzrə makroiqtisadi və maliyyə sabitliyi sahəsində vəziyyət və siyasət istiqamətləri, habelə digər cari məsələlər ətraflı müzakirə olunub.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, gündəlikdə olan məsələlər üzrə Baş nazirin müavinləri Samir Şərifov və Şahin Mustafayev, iqtisadiyyat naziri Mikayıl Cabbarov və Mərkəzi Bankın sədri Taleh Kazımov çıxış ediblər. İclasda təqdim olunan məsələlərə dair İqtisadi Şuranın üzvləri tərəfindən rəy və təkliflər bildirilib.

İclasın yekununda “Azərbaycan Respublikasının 2027–2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın layihəsi və digər məsələlər barədə müvafiq tapşırıqlar verilib.

*XQ*

## Zəfər parkını ziyarət

**Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əlinin başçılıq etdiyi nümayəndə heyəti fevralın 27-də Bakıda Zəfər parkını ziyarət edib.**

Burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Efiopiyanın Baş naziri Zəfər abidəsinin önünə əklil qoyub.

Sonra qonağa Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verilib.

*XQ*




## Ələt Azad İqtisadi Zonası ilə tanışlıq



**Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əlinin başçılıq etdiyi rəsmi nümayəndə heyəti Ələt Azad İqtisadi Zonasında (ƏAİZ) olub.**

Səfər çərçivəsində keçirilən görüşdə Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov nümayəndə heyətinə ƏAİZ-in strateji coğrafi mövqeyi, Şərq–Qərb və Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməsi, eləcə də Xəzər hövzəsində formalaşan sənaye mərkəzi kimi artan rolu barədə ətraflı məlumat verib.

Bildirilib ki, azad zona unikal qanunvericilik bazasına malikdir və burada investorlar üçün xüsusi hüquqi rejim tətbiq olunur. Qeyd edilib ki, ƏAİZ-də rezidentlərə istifadəyə hazır ərazi-daxili və ərazi-xarici infrastruktur, müasir mühəndis-kommunikasiya sistemləri ilə təchiz olunmuş sənaye torpaq sahələri, həmçinin geniş maliyyə və qeyri-maliyyə imtiyazlar paketi təqdim edilir.

Daha sonra ali qonaq azad zona ərazisindəki sənaye mərkəzinin fəaliyyəti ilə tanış oldu.

*XQ*



## Efiopiya lideri “ASAN xidmət”də






**Fevralın 27-də Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əli Azərbaycana rəsmi səfəri çərçivəsində “ASAN xidmət” mərkəzini ziyarət edib.**

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev qonağa Prezident İlham Əliyevin təşəbbüsü əsasında yaradılmış “ASAN xidmət” mərkəzləri və innovasiyalar sahəsində həyata keçirilən layihələr barədə ətraflı məlumat verib.

Qonağa “ASAN xidmət” mərkəzlərinin fəaliyyətində tətbiq olunan müxtəlif texnoloji həllər ilə bağlı təqdimat edilib. Azərbaycanın milli brendi olan ASAN-ın intellektual məhsul kimi ixracı istiqamətində 30-dan çox ölkə və beynəlxalq təşkilatla müqavilə imzalandığı diqqətə çatdırılıb. Həmçinin vurğulanıb ki, Birləşmiş Millətlər Təşkilatı Azərbaycanın beynəlxalq müstəvidə brendinə çevrilmiş “ASAN xidmət” konsepsiyasını ən yaxşı model kimi dəyərləndirir və dörd qitədə təşviq edir.

Baş nazir Səyyar ASAN xidmətin fəaliyyəti ilə də tanış olub. Vətəndaşların dövlət xidmətlərinə əlçatanlığının təmin edilməsində mühüm rol oynayan Səyyar ASAN xidmət layihəsini qiymətləndirərək həmin təcrübənin də yaxın zamanda Efiopiyada tətbiq olunacağını qeyd edib.

Qonağa “INNOLAND” İnkubasiya və Akselerasiya Mərkəzi, “Bilim Bakı” mərkəzi və “ABAD” publik hüquqi şəxsin fəaliyyəti ilə əlaqədar da ətraflı məlumat verilib.

Qeyd edək ki, Dövlət Agentliyi ilə həyata keçirilmiş əməkdaşlığın nəticəsi olaraq 2025-ci ilin iyun ayında Efiopiyanın Əddis-Əbəbə şəhərində Azərbaycanın “ASAN xidmət” konsepsiyası əsasında ilk “MESOB” dövlət xidmətləri mərkəzi fəaliyyətə başlayıb.

Xatırladaq ki, 2024-cü ilin may ayında Dövlət Agentliyi ilə Efiopiyanın müvafiq qurumu arasında “ASAN xidmət” təcrübəsinin Efiopiyada tətbiqi ilə bağlı Anlaşma Memorandumu imzalanıb.

Anlaşma Memorandumunun icrası çərçivəsində Dövlət Agentliyi tərəfindən Efiopiyadan olan dövlət qulluqçuları üçün təlimlər keçirilib, xidmətlərin vahid standartı müəyyən edilib, habelə “ASAN xidmət” mərkəzlərində istifadə olunan texnoloji həllər əsasında tövsiyə sənədləri formalaşdırılıb.

*XQ*

# Prezident Administrasiyasının rəhbəri COP32-nin Prezidenti ilə görüşüb



**Fevralın 27-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyev Efiopiya Federativ Demokratik Respublikasının xarici işlər naziri, COP32-nin müəyyən olunmuş Prezidenti Gedion Timotevos Hessebon ilə görüşüb.**

Samir Nuriyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Efiopiyanın Baş naziri Abiy Əhməd Əli ilə görüşü zamanı iki ölkə arasında BMT-nin iqlim konfransları (COP) sahəsində təcrübə mübadiləsinin müzakirə edilməsinə toxunaraq, dövlətimizin başçısının tapşırığı ilə Azərbaycanın Efiopiya ilə tam əməkdaşlığa hazır olduğunu vurğulayıb.

Samir Nuriyev Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın COP29 çərçivəsində təşkilati-logistika, substantiv və kommunikasiya sahəsində həyata keçirilmiş işlərə toxunub, həmçinin COP29-da bir sıra tarixi qərarların qəbul edildiyini bildirib.

Gedion Timotevos Hessebon Azərbaycanın COP29-u yüksək səviyyədə təşkil etdiyini, zəngin irs yaratdığını qeyd edib. Nazir Efiopiyanın Azərbaycanla COP32 çərçivəsində əməkdaşlıqda maraqlı olduğunu bildirib və ölkəmizin bu istiqamətdə Efiopiyaya təşkilati-logistika və substantiv dəstəyini yüksək qiymətləndirib.

Görüşdə Efiopiyanın Baş naziri Abiy Əhməd Əlinin Azərbaycana səfəri çərçivəsində iki ölkənin xarici işlər nazirləri arasında imzalanmış "BMT-nin İqlim Konfransının 32-ci sessiyasının (COP32) təşkili ilə bağlı əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun əhəmiyyəti vurğulanıb.

Həmçinin 2026-cı ildə ölkəmizdə keçiriləcək BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) ilə əlaqədar fikir mübadiləsi aparılıb.

*XQ*

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2026-cı ilin mart ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu

## C Ə D V Ə L İ

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1 | **Daxili işlər naziri** Vilayət Eyvazov | **Yevlax** | Yevlax, Mingəçevir, Ağdaş, Ucar, Kürdəmir | **02** |
| 2 | **Baş prokuror** Kamran Əliyev | **Kürdəmir** | Kürdəmir, Ucar, Ağdaş, Göyçay, Zərdab, Ağcabədi | **04** |
| 3 | **Gənclər və idman naziri** Fərid Qayıbov | **Şirvan** | Şirvan, Hacıqabul | **04** |
| 4 | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **Şuşa** | Şuşa, Xankəndi, Xocalı | **04** |
| 5 | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **Neftçala** | Neftçala, Salyan | **05** |
| 6 | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Saatlı** | Saatlı, İmişli, Sabirabad, Şirvan | **05** |
| 7 | **Ədliyyə naziri** Fərid Əhmədov | **Qobustan** | Qobustan, Sumqayıt, Abşeron, Xızı, Qubadlı, Zəngilan | **06** |
| 8 | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **Xankəndi** | Xankəndi, Ağdərə, Xocalı | **06** |
| 9 | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | **Lənkəran** | Lənkəran, Astara, Lerik | **06** |
| 10 | **Elm və təhsil naziri** Emin Əmrullayev | **Şuşa** | Şuşa | **11** |
| 11 | **Ekologiya və təbii sərvətlər naziri** Rəşad İsmayılov | **Şabran** | Şabran, Xaçmaz, Siyəzən, Xızı | **12** |
| 12 | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **Şirvan** | Şirvan, Hacıqabul, Salyan, Neftçala, Biləsuvar | **12** |
| 13 | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Anar Əliyev | **Laçın** | Laçın | **13** |
| 14 | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | **Qəbələ** | Qəbələ, Oğuz, İsmayıllı, Ağdaş | **13** |
| 15 | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | **Ağdam** | Ağdam, Füzuli, Xocavənd | **13** |
| 16 | **Mədəniyyət naziri** Adil Kərimli | **Hacıqabul** | Hacıqabul, Şirvan, Salyan, Neftçala, Biləsuvar | **13** |
| 17 | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Qobustan** | Qobustan, Şamaxı | **13** |
| 18 | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | **Bərdə** | Bərdə, Tərtər, Ağcabədi, Ağdam, Füzuli, Laçın, Xocalı | **13** |
| 19 | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | **Abşeron** | Abşeron, Zəngilan | **13** |
| 20 | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | **Kəlbəcər** | Kəlbəcər | **13** |
| 21 | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | **Salyan** | Salyan, Şirvan, Hacıqabul, Neftçala, Biləsuvar | **16** |
| 22 | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **Cəbrayıl** | Cəbrayıl, Qubadlı, Zəngilan | **16** |
| 23 | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | **Göygöl** | Göygöl, Daşkəsən | **17** |
| 24 | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Vüsal Nəsirli | **Naftalan** | Naftalan, Goranboy | **18** |
| 25 | **Energetika naziri** Pərviz Şahbazov | **Ağsu** | Ağsu, Şamaxı, Göyçay, İsmayıllı, Kürdəmir | **19** |
| 26 | **"Azəristiliktəchizat" ASC-nin sədri** İlham Mirzəliyev | **İmişli** | İmişli, Saatlı, Sabirabad | **19** |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.**

# Ermənistan əl çəkdi, İsveçrə əl çəkmir

## *Haylar İsveçrə parlamentini də satın alıblar?*

**Artıq neçə aydır ki, Ermənistanın baş naziri, prezidenti, parlament sədri, baş diplomatı – son 5 ilin faktlarının ağıllandırdığı istənilən hay siyasətçisi Azərbaycana qarşı ərazi iddialarından əl çəkmək barədə bəyanatları az qala həftədə 5 dəfə təkrar edirlər. Etiraf edirlər ki, biz "Böyük Ermənistan" xülyasından əl çəkərək real Ermənistan həqiqətinə qayıtmalıyıq. Bunu təkcə İrəvan etiraf etmir, Vaşinqton da müharibənin və münaqişənin bitdiyini bəyan edir. Yəni ABŞ rəhbərliyi bu məsələdə birmənalı olaraq Azərbaycanın mövqelərini dəstəkləyir.**

Bundan başqa, bu il fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində Azərbaycan və Ermənistanın liderlərinə verilən "Zayed İnsan Qardaşlığı Mükafatı"nın münsiflər heyətinin üzvü, uzun illər boyu Ermənistana himayədarlıq etmiş Avropa İttifaqı Şurasının sabiq Prezidenti Şarl Mişel Azərbaycan Prezidentinə xitabən demişdi ki, Sizin Ermənistanla birgə




icra etdiyiniz sülh razılaşması dünya ölkələri üçün çox güclü bir siqnaldır: "Yəni çətinliklərə, keçmiş və indiki iztirablara baxmayaraq, gələcəyə kiçik də olsa, nikbinliklə və ümidlə baxmaq üçün ortaq iradə var". Üstəlik, rəsmi Paris də, Brüssel də cənab Trampın təşəbbüsü ilə əldə olunmuş razılaşmaları birmənalı şəkildə dəstəkləyirlər.

Belə olan halda, İsveçrə parlamentinin və bu ölkədəki bəzi qeyri-hökumət təşkilatlarının növbəti anti-Azərbaycan sərsəmləmələrinə nə ad vermək olar? Göz qabağındadır ki, Ermənistan rəhbərliyi Azərbaycanın 2020-ci ilin payızından sonra yaratdığı yeni regional reallıqları bəyənir və həmin reallıqlardan bəhrələnməyə səy göstərir. İsveçrədəki "papadan çox katolik olmağa" çalışan bəzi parlamentarilər isə Ermənistanın yeni reallıqlardan bəhrələnmək arzusunu gözündə qoyurlar.

Bu Avropa ölkəsinin parlamentindəki bədnam ünsürlər utanmadan bəyan edirlər ki, münaqişə hələ bitməyib. Hətta onların təşəbbüsü ilə vahid və koordinasiya olunmuş anti-Azərbaycan narrativi formalaşdırmışdır. Bu narrativlər erməni revanşizminin dəstəklənməsinə xidmət edir. Özü də həmin tendensiya təkcə indi deyil, 3-4 ildir ki, davam edir.

Məsələn, kütləvi informasiya vasitələri yazırlar ki hələ 2024-cü ilin dekabrında İsveçrə parlamenti tarixin zibilliyinə atılmış Qarabağ məsələsi üzrə qətnamə qəbul etmişdir. Onlar nə istəyirlər? Bu sualı ona görə veririk ki, qəbul etdikləri qətnamə birmənalı şəkildə absurddur. Yazırlar: "Azərbaycan və Qarabağ erməniləri "Beynəlxalq Sülh forumuna" dəvət edilməlidir". Bu isə erməni separatizmini xortlatmaqdan başqa heç nə deyil. Çünki qətnamə müəllifləri həmin arqumentlə Qarabağdan könüllü olaraq köçüb getmiş erməniləri münaqişə tərəfi kimi təqdim etməyə çalışıb. Hansı münaqişənin tərəfi? Axı Ermənistan tərəfi münaqişənin cəhənnəmə vasil olduğunu beş ildir ki, etiraf edir.

Bu siyasətçilərin "Beynəlxalq Sülh forumu" ifadəsindən istifadə etməsi də absurddur. Çünki Ermənistanın rəhbərliyi fəxrlə bəyan edir ki, biz artıq yarım ilə yaxındır ki, Azərbaycanla sülh şəraitində yaşayırıq. Yəni İsveçrə parlamentinin qondardığı "Beynəlxalq Sülh Forumu" adlı kağız artıq Gümrüdə və ya Qəbələdə kiminsə ayaqqabısını silmək üçün istifadə oluna bilər.

Bundan başqa, rəsmi Bakı hələ müharibənin davam etdiyi günlərdə dəfələrlə bəyan etmişdi ki, Azərbaycan vətəndaşlığını qəbul edən, bizim pasportumuzu alan və separatçılıqdan əl çəkən istənilən erməni Qarabağda qalıb yaşaya bilər. Necə ki, respublikamızın müxtəlif şəhərlərində on minlərlə erməni bizim pasportumuzla yaşayır. Oradakı ermənilər isə köçüb getməyi üstün tutdular. Diqqət yetirin, qovulmadılar. Köçüb getdilər. Belə bir vaxtda isveçrəli parlamentarilər Qarabağ ermənilərinin "təhlükəsiz qayıdışı"nı tələb etməyə çalışırlar. Amma əsrlərdən bəri indiki Ermənistan deyilən qədim Azərbaycan torpaqlarından deportasiya edilmiş və bütün əmlakı əlindən alınaraq qovulmuş Azərbaycan məcburi köçkünlərinin hüquqlarını "unudurlar".

Mətbuat yazır ki, İsveçrə parlamentində erməni əliylə "əkilib-becərilmiş" "İsveçrə Sülh Təşəbbüsü"nün aparıcı simalarından olan Erix Fontobel açıq şəkildə bəyan etmişdir ki, İsveçrə Qarabağ məsələsini "bağlanmış" hesab etmir. Belə məqamda Qulamhüseyn dayı qədim yunan ordusunun zabitlərinin əsəbiləşmiş əsgərlərə dediyi "get tullan!" ifadəsini yada salır. Rəvayətə görə, o vaxtlar komandir əsəbiləşmiş əsgəri sıradan çıxardır və deyirmiş ki, "get aralıda üç dəfə tullan düş". Əsgər tullanıb düşəndə sıra yoldaşları da gülürmüş, özü də. İndi İsveçrə parlamentində cənab Erix Fontobelə də get tullan deyən lazımdır.

Sonda onu da qeyd edək ki, Beynəlxalq Qırmız Xaç Komitəsi adlı humanitar təşkilat da İsveçrə ərazisindədir. Həmin komitənin nizamnaməsində deyilir ki, biz ancaq müharibə gedən ölkələrdə (yəni zəlzələ, sunami, yanğın olan ölkələrdə yox – İ.M.) fəaliyyət göstəririk. Xub. Bəs Azərbaycan ərazisində müharibə gedərkən bu komitənin ofisi nə üçün Bakıda yox, İrəvanda fəaliyyət göstərirdi? Bu sualın bir cavabı var: Onlar haqq, ədalət, humanizm və mərhəmət prinsiplərinə deyil, beynəlxalq aləmdəki erməni diasporunun vəsaitinə, maliyyəsinə xidmət edirdilər. İndi yenə də həmin komitə İsveçrə parlamentindəki Erix Fontobelin çaldığı ilə oynayır. Gah da ona züy tuturlar.

Bu gün artıq dünyanın hər yerində, hamı etiraf edir ki, Azərbaycan və Ermənistan haqlı olaraq sülh yolu ilə gedir. Vaşinqtonda paraflanmış sülh sazişindən sonra faktiki iki ölkə arasında iqtisadi əməkdaşlıq da başlayıb. Azərbaycan sülh gündəliyinə uyğun olaraq öz üzərindən Ermənistana Gürcüstan vasitəsilə malların daşınmasına şərait yaradıb, Ermənistana öz benzinini ixrac edir. Bu müsbət iqtisadi gündəliyin genişlənməsi gözlənilir.

Bütün bunlar reallıqdır. Odur ki, sülh karvanı hansısa səsə, küyə baxmadan öz yoluna davam edir və edəcək.

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

# Xaricdəki xainlər haqqında nekroloq əvəzi

## *“Təmas” taktikası və “Şimal küləyi”nin satqınlıq cərəyanı*

**Beynəlxalq miqyasdakı uğurlarımız fonunda xaricdəki antimilli və onları hərəkətə gətirən anti-Azərbaycançı qüvvələrin əndazədən çıxma halları əvvəllər də yaşanıb və həmişə fiasko aqibəti ilə üzləşib. Yəni sözügedən kəsimin apardığı təbliğat Azərbaycan cəmiyyətinin ahəngini poza bilməyib. Nalayiq hərəkət, yarıtmaz siyasi mübarizə tərəfdarları ölkəmizdəki xalq-iqtidar birliyi və vəhdəti qarşısında duruş gətirməyi bacarmayıblar.**



Necə deyərlər, milçək bir şey deyil, könül bulandırır. Xaricdəki “milçəklər” də böyük ölçüdə könül bulandırırlar. Onların “məşğuliyyətləri” Azərbaycan cəmiyyətində ikrah hissi doğurub. İnsanlarımız sapı özümüzdən olan baltaların xaricdəki anti-Azərbaycançı qüvvələrin oyunlarında iştiraklarını görüb, həmin oyunların eybəcərliyinə şahidlik ediblər. Mahiyyət yenə dəyişməyib. Dəyişən üsul və vasitələrdir. Dəyişən, obrazlı desək, musiqini sifariş verənlərdir. Yazımızda bu məqama diqqət yetirəcəyik.

*

Əvvəlcə onu bildirək ki, dünya miqyasında ölkəmizə qarşı aparılan təbliğatın, adətən, media seqmenti aktiv olub. Media təkcə Azərbaycanla, onun qanuni hakimiyyəti ilə bağlı mənfiyönümlü təqdimatlarla – şər və böhtanlarla kifayətlənməyib, eyni zamanda, bu kimi nalayiq davranışları, belə demək mümkünsə, sistemli şəklə salan ayrı-ayrı şəxslərin fikir tribunası rolunu oynayıb. İkincilər isə ağızlarını açıb, gözlərini yumublar... İndi də eyni neqativ təmayüllər qalmaqda və Azərbaycana qarşı ideoloji təbliğatın həm özünü, həm də onun informasiya cəbhəsini təşkil etməkdədir. Fəqət bəzi fərqləri görürük. O fərqlər ki, onlara nəzərən anti-Azərbaycançı qüvvələrin daha da azğınlaşdıqlarını söyləmək olar. Bunu isə müəyyən mənada təbii saymaq mümkündür. Axı ölkəmizin beynəlxalq miqyasdakı nailiyyətləri çoxalır. Deməli, kimlərinsə həyasızlaşmaq cəsarətlərini gücləndirmələri şəksizdir.

*

Əlbəttə ki, “cəsarətin” erməni amili də var. O amil ki, 44 günlük müharibəyədək onun təsiri ilə belə bir rəyin formalaşdırılmasına cəhd göstərilirdi: Azərbaycan Ordusu döyüş aparmaq qabiliyyətində deyil, müharibə başlayacağı təqdirdə, ölkəmiz acınacaqlı məğlubiyyətə uğrayacaq və sair. Üstəlik, bu sayaq təqdimatların Ermənistan silahlı qüvvələrinin “məğlubedilməzlik” mifini yaymaq seqmenti də var idi. Deməli, 6 il əvvəl savaş başlayanda həmin həyasızlar pusquda durub ovunu gözləyən çaqqallar kimi sakitliyə qərq oldular. Hərbi əməliyyatların bitəcəyini gözlədilər ki, üfunət qoxuyan ağızlarını açsınlar. Təxminən bu cür: gördünüz, demişdik ki, Azərbaycan öz torpaqlarını azad etmək iqtidarında deyil, bunun üçün ölkədə hakimiyyət dəyişikliyi olmalıdır və sair. Axı belələrinin “arqumenləri” də var idi: demokratik rejim qurulmalıdır ki, xalqla iqtidar arasında vəhdət yaransın və bu vəhdət torpaqları işğaldan qurtarmaq əzmi formalaşdırsın. Lakin sapı özümüzdən olan baltaların və onları öyrədib ortaya salanların bütün hesablamaları boşa çıxdı. 44 günlük müharibə Azərbaycanın şanlı Zəfəri ilə başa çatdı. Zəfər isə məhz xalq-iqtidar vəhdətinin nəticəsində əldə olundu.

*

44 günlük müharibədən sonra Qarabağda Rusiya sülhməramlı kontingentinin yerləşməsi Azərbaycanda rus təsiri təbliğatını gücləndirdi. Bu təbliğat Ermənistanın müharibədə itirdiklərini geri qaytaracağına dair baxışlarla çulğalaşdı ki, məqsəd qələbəmizin əhəmiyyətini kiçiltmək, 3 mindən çox şəhidin əbəs yerə verildiyi təəssüratını yaratmaq idi. Beləliklə, şəhid ailələrinin kütləvi etirazını doğurmaq, ümumən, cəmiyyətdə geniş narazılıq bumu yaratmaq hədəfi müəyyənləşdi.

Azərbaycan Prezident İlham Əliyevin liderliyi və bu liderliyə xas böyük siyasi məharətlə diplomatik mübarizədən də üzüağ, alnıaçıq çıxdı. Bu mübarizə yekunda hərbi güc tətbiqini leqallaşdırdı. Bu zərurət isə məntiqi yekunu gətirdi. 2023-cü ilin sentyabrında Silahlı Qüvvələrimiz lokal xarakterli antiterror tədbirləri həyata keçirib ölkəmizin bütün ərazilərində konstitusion quruluşu, ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etdi.

Bu nəticə sapı özümüzdən olan baltaları və onların havadarlarını dərin səssizliyə saldı. Üstəlik, Rusiya hərbçiləri də Azərbaycan torpaqlarını tərk etmək məcburiyyətində qaldılar. “Böyük ümidlərlə” gələnlər boyunlarını büküb getdilər. Beləliklə, “44 günlük müharibə Rusiyanı hərbi güc şəklində Azərbaycana yerləşdirdi” kimi aparılan və ölkəmizdə hakimiyyətə qarşı etiraz dalğası yaratmaq niyyətli sərsəm ritorika iflasa uğradı.

Amma xaricdəki anti-Azərbaycançı kəsim tamamilə kökdən düşmədi, “ampluasında” qaldı, özünün ənənəvi demokratiya və plüralizm kimi klişələrini tirajladı, ölkəmizdə ali dəyərlərə sayğısızlıq göstərildiyinə dair saxta tezislərini gündəmdə saxladı. Doğrudur, bu sayaq tezislərin ölkəmizin ictimai rəyinə heç bir təsiri, əvvəllərdəki kimi, yenə də olmadı və olmayacaq.

*

Bəli, Azərbaycan cəmiyyəti sapı özümüzdən olanların həyasızlıqlarına heyrətlənib. Bu kəsim indi də pis mənada heyrətləndirir. O anlamda ki, əgər əvvəllər onun təmsilçiləri sırf informasiya müstəvisində ölkəmizə qarşı diversiyalar həyata keçirirdilərsə, indi azğınlar sürüsü, belə demək mümkünsə, təmas taktikasına keçiblər. Bu taktikanın nədən ibarət olduğuna, haqqında bəhs etdiyimiz musiqi sifarişçilərinin dəyişilməsi fonunda aydınlıq gətirək. Axı xaricdəki satqınlar və xainlər sürüsü Azərbaycanın postmünaqişə dövrü siyasəti ilə beynəlxalq aləmdəki nüfuzunu artırdığı bir məqamda ABŞ kimi supergücün rəhbərliyinin ölkəmizə, şəxsən Prezident İlham Əliyevə yüksək münasibətindən xeyli pəjmürdə duruma düşüblər.

Məlum olduğu kimi, Birləşmiş Ştatların əvvəlki administrasiyası qatı ermənipərəst mövqeyi ilə seçilir, Azərbaycana qarşı qərəz yolu tuturdu. Tramplı Amerika isə rasional və praqmatik kursun tərəfdarıdır. Pəjmürdəlik də məhz bundan qaynaqlanır. Amma satqınlar və xainlər sürüsü üçün özünütəsdiqin ən müxtəlif yollarına düşmək heç bir mənəvi sıxıntı törətmir. Ona görə də onlar Şimal küləyinin əsintisi ilə hərəkətə keçməkdə problem görmürlər. Təsəvvür edin, bir vaxtlar Rusiyanı pisləyərək, Azərbaycanın bu ölkə ilə yaxınlığı təbliğatını aparıb ölkəmizə qarşı antipatiya formalaşdıranlar hazırda Kremlin direktivləri ilə “silahlanırlar”. Üzsüzlük olar, ta bu qədəri yox. Üzsüzlər üçün anonsunu etdiyimiz təmas taksikasını işə salmaq da problem deyil.

Diqqət yetirək, Azərbaycanın Prezidenti və Birinci xanımı ABŞ-dadır və bu üzsüzlərdən biri küçədə pusqu qurur. Guya jurnalistdir. Amma ilk cümləsindən, müraciət tonundan hiss olunur ki, onun peşə ilə heç bir əlaqəsi yoxdur. Sən demə, müstəqil medianın təmsilçisi imiş! Adamın nə müstəqillikdən, nə də mediadan anlayışı var. Anlayışı yalnız şəxsi mənfəətdir. Bu mənfəəti isə anti-Azərbaycan təmayüllü qüvvələrin ruporuna çevrilməklə, onların buyruqlarını yerinə yetirməklə əldə edib. İndi belə bir üzsüz Rusiyadan gələn direktivləri yerinə yetirir. Bu fəsilədən olan başqaları da var ki, onların Sülh Şurasının iclasında iştirak üçün ABŞ-a səfər etmiş Prezident İlham Əliyevin Vaşinqtonda yerləşdiyi hotelə daxil olmaq cəhdlərini də gördük. Təmas taktikası da elə budur.

*

Heç şübhəsiz, bu taktika Rusiyanın Azərbaycana qıcığından qaynaqlanır. Deməli, xaricdəki sapı özümüzdən olan baltaların ermənilərin Qarabağa qayıdış hüququ kimi cəfəngiyyatı qaldıranların, yaxud “Azərbaycanda saxlanılan erməni məhbuslar” şousunu quranların cəbhəsində görsək, təəccüblənməməliyik. Axı hər iki təbliğatın məramı eynidir – Bakı-İrəvan sülhünə yol verməmək, Ermənistanda siyasi hakimiyyəti ələ keçirərək ölkənin barışa gəlməsini əngəlləmək, bununla da Azərbaycana təzyiq alətini diri saxlamaqla, onun müstəqil xarici siyasət kursuna maneçilik törətmək.

Xaricdəki xain ünsürlər məhz sadaladıqlarımızı reallaşdırmaq istəyənlərlə əlbirdirlər. Onların özlərinin mənfur xislətlərini “Şimal küləyi”nin əsintisinə kökləmələri də bundan irəli gəlir. Onların ənənəvi “KQB” üsullarına xas şantaj və böhtan üsullarına əl atmaları da Şimalın sifarişidir. O Şimaldır ki, əsrlərdir Cənubi Qafqazı təsir dairəsi altında saxlamaq yolu tutur, normal, bərabərtərəfli münasibətlərin qurulmasına maneçilik törədir, imperiya ambisiyaları ilə nəfəs alır. Əlbəttə, xaricdəkilərimizin bu oyunlara alət olduqlarını görmək son dərəcə üzücüdür. Ancaq təskinliyimiz var və onu əvvəldə də vurğulamışdıq. Bir daha tam qətiyyətlə deyək ki, nə xaricdəki antimilli ünsürlərin, nə onların havadarlarının, nə də ayrı-ayrı ermənipərəst dairələrin Azərbaycana qarşı qurduqları mənfur ssenarilər məqsədinə çatacaq. Xalqımızın müdrikliyi nəticəsində belə sərsəm və cılız siyasi oyunlar, həmişəki kimi, puça çıxacaq.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# “Xocalı həqiqətləri” Amerikanı dolaşır

## *Hayların məkrli lobbi mexanizmləri çöküşə məhkumdur*

**Şimali Amerika dövlətinin mərkəzi şəhərlərində Xocalı soyqırımının 34-cü ildönümü mühüm miqyasda anılıb. Nyu-York metropolisində, Vaşinqtonun mərkəzində baş tutan mərasimlər rəqəmsal avto-təşviqat kampaniyası formatında icra edilib. Aksiyalar Amerika–Azərbaycan Gənclər və İdman Assosiasiyasının təşkilatçılığı, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə reallaşıb. Rəqəmsal diplomatiyanın ən müasir vasitələrindən istifadə olunaraq Nyu-Yorkun mərkəzi küçələri boyunca xüsusi marşrutlar müəyyənləşdirilib. Hərəkət edən nəqliyyat vasitələrində müasir texnoloji LED ekranlar quraşdırılıb. Ekranlarda Xocalı faciəsinin dəhşətli nəticələrini əks etdirən arxiv fotoları dayanmadan nümayiş etdirilib. Soyqırımı qurbanları haqqında statistik məlumatlar kütləvi yaddaşa məcburi şəkildə ötürülüb. İnsanların sıx toplaşdığı mərkəzi məkanlar isə xüsusi hesablama əsasında seçilib.**




Hədəf seçilmiş coğrafi məkanların adları yüksək geosiyasi və psixoloji əhəmiyyət daşıyır. Maşınlar qlobal turistlərin əsas mərkəzi sayılan “Times Square” meydanından, insanların sıx hərəkət etdiyi “Brooklyn Bridge” körpüsündən keçiblər. Həmçinin “Central Park” ərazisi, BMT-nin Baş Qərargahının qarşısı, maliyyə mərkəzi “Wall Street”, habelə “Statue of Liberty”nin ətrafı və “The New York Times” qəzetinin binası önü əsas hədəflər sırasında olub. Məkanların növü cəmiyyətin bütün demoqrafik qruplarına tam çıxış imkanı yaradıb. Bu məkanların hər biri fərqli ictimai-siyasi sinfi təmsil edir.

Təbliğat maşınlarında istifadə olunan ingilisdilli şüarlar analitik və emosiyadan uzaq üslubda qurulub. LED tablolarda “Xatırla, ehtiram göstər, düşün – Xocalı 1992”, “34 il sonra bütün qurbanları xatırlayırıq”, “Dünya unutmamalıdır” kimi çağırışlar nümayiş olunur. “Xocalıya ədalət”, “Maariflən, ədalət tələb et və həmrəylik göstər” mesajları isə fəal vətəndaş mövqeyinə səsləyir. Qısa, aydın və sadə şüarlar beynəlxalq yaddaşı oyatmağa və həmrəylik hissini gücləndirməyə xidmət edir.

Şəhər sakinlərinə məlumatın ötürülməsi yalnız vizual mətnlərlə məhdudlaşmır. Yüksək texnoloji innovasiyalar aksiyanın ayrılmaz detalını təşkil edib. İzləyicilərə tarixi faktları, təfərrüatlı beynəlxalq sənədləri çatdıran xüsusi QR-kodlar nümayiş olunub. Texnoloji alətin tətbiqi amerikalıların nəzərində yüksək peşəkarlıq nümunəsidir. Adi ABŞ vətəndaşları telefon vasitəsilə QR-kodları skan edirlər və məlumatın anında oxunması izləyicini geniş rəqəmsal arxiv bazalarına yönləndirir. Arxivlərdə 1992-ci ilin qanlı hadisələri barədə müstəqil Qərb xəbər agentliklərinin reportajları saxlanılır. İnteraktiv texnologiya saxta xəbərlərin sürətli təkzibinə imkan yaradır və internet vasitəsilə mənimsənilən dəqiq rəqəmlər hər kəsin məlumatlılıq səviyyəsini artırır. ABŞ cəmiyyəti illərlə rəqib qüvvələrin formalaşdırdığı inhisarçı qondarma təbliğatdan qurtulur.

Tarixi ədalətin amerikalı auditoriyanın baxış bucağından təqdim olunması mühüm təsir yaradır. İnsan hüquqları və yaşamaq haqqını əsas dəyər sayan Qərb cəmiyyəti bəşəri faciə faktları ilə üzləşdikdə, hüquqi maraq və daxili etiraz formalaşır. Cəzasızlığın uzun illər davam etməsi absurd kimi qəbul olunur, mövcud ədalətsizlik mənəvi məsuliyyət müstəvisinə daşınır. Sosial platformalardakı paylaşımlar isə mövzunu lokal çərçivədən çıxararaq qlobal informasiya axınına çevirir və susqunluq səddini aradan qaldırır.

BMT Baş Qərargahı qarşısında planlaşdırılmış nümayiş beynəlxalq hüququn iflic vəziyyətini açıq qabardır. Beynəlxalq təşkilat illərdir qəbul etdiyi dörd qətnamənin tam icrasını təmin etməyib. Diplomatlar pəncərələrindən küçəyə baxarkən tarixi ədalətsizliyin sübutlarını seyr edirlər. Cəzasız qalmış cinayətlər qlobal hüquq sisteminin etibarlılığını şübhə altına alır. Eyni zamanda “Wall Street” maliyyəçiləri baş vermiş terror faktları ilə tanış olurlar. İqtisadi asılılıqlar heç vaxt mənəvi prinsipləri, insan haqlarını üstələyə bilməz. Transmilli korporasiyaların rəhbərləri fəaliyyət qurduqları ölkələrin təhlükəsizlik göstəricilərini daim yoxlayırlar və tarixi qırğınların ifşası biznes elitasında qatil cəmiyyətlərə qarşı ikrah hissi yaradır. Bənzər qaydada “Statue of Liberty” ətrafında baş tutan yürüş fəlsəfi müqayisədir. Azadlıq heykəlinin mənası ilə Xocalıda törədilmiş vəhşilik tərs-mütənasibdir. Bu təzad abidəni ziyarət edən qonaqlarda intellektual sarsıntı yaşadır. “The New York Times” binası qarşısındakı fəaliyyət isə böyük redaksiyaların yaddaşına birbaşa müraciətdir.

Kampaniyanın uğuru ənənəvi erməni diaspor maşınının təbliğat modelini tamamən alt-üst edir. Onilliklər ərzində rəqib tərəf rəsmi sənədləri saxtalaşdırmaqla məşğul olub. Lakin rəqəmsal, dinamik və sübutlara əsaslanan indikatorlar yalanları darmadağın edir. Mobil LED ekranların qarşısını almaq asan məsələ sayılmır. Küçədə azad söz hüququ konstitusiya ilə tənzimlənir. Seçilən texnika tam hüquqi çərçivələrdə rəqib qruplara asimmetrik zərbə endirir. İctimai rəy dəyişir, həqiqətin tərəzi gözü ağır gəlir. Xalq kütlələri arasında yayılmış aydın məlumat sürətlə qanunverici binalara sirayət edir.

Mövcud proseslərin rəsmi dairələrə təsiri olduqca böyükdür. Media rəsmiləri, yerli şəhər şuralarının üzvləri artan vətəndaş sorğularına cavab verməyə məcburdurlar. Demokratlar, Respublikaçılar, fərqli siyasi komitələr küçədən gələn səsi eşidirlər. Səsvermə ərəfələrində namizədlər insan hüquqları ilə bağlı suallarla daha sıx qarşılaşacaqlar. Tədricən ştat qanunlarında kütləvi qırğınları tanıyan qətnamələrin sayı çoxalır. Vətəndaş cəmiyyəti qanunvericilərdən real, hüquqi əsası olan qərarlar umur. Yalançı lobbi qruplarının korrupsiyaya əsaslanan əlaqələri ictimai təzyiq nəticəsində iflasa uğrayır. Nyu-Yorkdan qalxan təzyiq dalğası birbaşa mərkəzi hakimiyyətə, Vaşinqtona yönəlir.

Bu proses ölkəmizin xarici müstəvidəki ən böyük zəfərlərindəndir. Ədalət axtarışı vizual, texnoloji və intellektual müstəvidə vahid, yenilməz konsepsiyaya qovuşub. Amerikalıların daxili inam sisteminə sızmaq, onları həqiqətin tərəfinə çəkmək müasir siyasətin şah əsəridir. İşıqlı LED ekranlar, aydın qrafiklər, təsirli şüarlar yaddaşlarda dərin ideoloji qığılcım yaratdı. Xocalının harayı artıq sükut qapılarını darmadağın edib. Haqlı mübarizəmiz diplomatik protokolların buzlu qatlarını əridərək qlobal miqyasda insanlıq vicdanını oyadır. Ziyalılar, siyasətçilər və vətəndaşlar yaxın gələcəkdə atılacaq böyük hüquqi addımların mütləq şahidi olacaqlar. Ümumbəşəri qanunlar qalib gələcək, günahkarların daxili qorxuları artaraq sonsuz izolyasiya gətirəcək. Tarixin səhifələri yenidən obyektiv qələmlə yazılmağa davam edir. Həqiqətin səsi ucaldıldıqca qlobal müstəvidə ədalətin bərpası qaçılmaz reallığa çevrilir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

### *Ekspert rəyi*



**Faruk BORİS,**
**bosniya və herseqovinalı jurnalist, “Voice of China” jurnalının redaktoru**

Nyu-York və Vaşinqtonda Xocalı soyqırımının 34-cü ildönümünün anılması yaddaş mədəniyyətinin müasir və qlobal ifadə formasını tapmasının nümunəsidir. Bu təşəbbüs həqiqətin arqumentlərlə müdafiə oluna biləcəyini göstərir. Tayms meydanı, Bruklin körpüsü, Mərkəzi Park, BMT-nin Baş Qərargahı, Uoll Strit, Azadlıq heykəli və “The New York Times” qəzetinin binasının qarşısı kimi məkanlarda keçirilən rəqəmsal kampaniya Azərbaycanın müasir tarixinin ən ağır səhifələrindən birini simvolik şəkildə dünya ictimaiyyətinin diqqətinə çatdırdı.

Biz münaqişə, müharibə cinayətləri və çətin barışıq prosesi ilə zəngin tarixə malik Bosniya və Herseqovinada müharibə cinayətlərinin, o cümlədən ən ağır cinayət sayılan soyqırımının xatirəsini qorumağın nə qədər ağrılı, eyni zamanda, zəruri olduğunu dərindən anlayırıq. Təcrübəmiz bizə öyrədir ki, yaddaş mədəniyyəti olmadan nə davamlı sülh, nə də həqiqi barışıq mümkündür. Məhz buna görə Azərbaycan xalqının hisslərini və qurbanların harayının beynəlxalq səviyyədə eşidilməsi ehtiyacını xüsusi empatiya ilə anlayırıq.

ABŞ-dan səslənən “Xocalını xatırla” və “Xocalıya ədalət!” kimi mesajlar heç kimə qarşı yönəlməyib. Onlar həqiqət və qurbanların ləyaqəti naminə səsləndirilib. Səmimi olaraq inanıram ki, bu kimi aksiyalar və kampaniyalar bölünmələri dərinləşdirmir, əksinə, xatırladır ki, ədalət və həqiqət ümumbəşəri dəyərlərdir. Yaddaş məsuliyyətli və ləyaqətli şəkildə ifadə edildikdə, oxşar sınaqlardan keçmiş xalqlar arasında anlaşma körpüsünə çevrilir.

# Diplomatik söz oyunu məsuliyyətə kölgə salır

## Azərbaycan Moskvadan konkret addım gözləyir, XİN isə ümumi ifadələrlə kifayətlənir

**Rusiya "Azərbaycan Hava Yolları"na (AZAL) məxsus təyyarənin qəzaya uğraması ilə bağlı liderlər arasında əldə olunmuş bütün razılaşmaların icrası istiqamətində ardıcıl fəaliyyət göstərir. Bunu Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova keçirdiyi brifinq zamanı TASS-ın sualını cavablandırarkən bildirib.**



Onun sözlərinə görə, Rusiya və Azərbaycan liderləri ötən il oktyabrın 9-da Düşənbədə keçirilmiş görüş zamanı aviaqəza mövzusunu ətraflı müzakirə ediblər: "Rusiya tərəfindən ətraflı izahatlar verilib, əldə olunmuş bütün razılaşmaların icrası istiqamətində ardıcıl iş aparılır. Bu barədə azərbaycanlı tərəfdaşlarımız həm diplomatik kanallar, həm də hökumətlər xətti ilə mütəmadi şəkildə məlumatlandırılır".

M.Zaxarova bildirib ki, Azərbaycan tərəfi ilə bu mövzuda yüksək səviyyəli ikitərəfli təmasların yaxın vaxtlarda davam etdirilməsi barədə qarşılıqlı anlaşma mövcuddur. O iddia edib ki, Moskva sözügedən məsələ ilə bağlı məlumatları müntəzəm olaraq Bakıya ötürür: "Xüsusilə, 2025-ci il dekabrın 9-da Bakıda xarici işlər nazirlərinin müavinləri səviyyəsində keçirilən məsləhətləşmələr zamanı ətraflı məlumat təqdim olunub. Həmçinin 2025-ci il dekabrın 29-da və cari il fevralın 12-də Moskvada Azərbaycan səfiri ilə görüşlər zamanı bu məsələ müzakirə edilib. Biz qalan bütün məsələlərin tam şəkildə tənzimlənməsinə yönəlmişik".

Rusiya XİN-in rəsmi nümayəndəsinin sözlərinə görə, "ölkələrimiz arasında münasibətlərdə bu faciəvi səhifəni çevirmək" kimi bir məfhum mövcuddur və o, bu ifadəni işlətməkdən məmnun olardı: "Lakin bir məqam var: bu, faciənin unudulacağı və ya kitabı bağlayıb bir kənara qoyacağımız anlamına gəlmir. Xeyr! Məqsədimiz münasibətlərdə bu faciəvi səhifəni həqiqətən çevirməkdir, lakin baş vermiş hadisələr və həyatını itirən insanların xatirəsi, şübhəsiz ki, yaddaşımızda qalacaq. Mənə elə gəlir ki, burada heç bir tərəddüd olmamalıdır. Bunu xüsusilə vurğulayıram, çünki Rusiya–Azərbaycan münasibətlərinin normallaşmasından narahat olan bəzi qüvvələrin sözlərlə oynamağı sevdiyini bilirəm. Qoy, sözlərlə manipulyasiya etməsinlər. Biz bu faciəni hər zaman xatırlayacaq, həlak olanların xatirəsini daim əziz tutacağıq".

M.Zaxarova Bakıda saxlanılan Rusiya vətəndaşlarının azad olunmasının zəruriliyini xatırladıb: "Biz Azərbaycanın diqqətini ötən ilin 30 iyun–1 iyul tarixlərində Bakıda həbs edilmiş Rusiya vətəndaşlarının mümkün qədər tez azad olunaraq vətənlərinə qaytarılmasının zəruriliyinə yönəldirik". O, Rusiya–Azərbaycan münasibətləri ətrafında informasiya mühitinin sağlamlaşdırılmasını da "şərtsiz aktual məsələ" hesab etdiklərini vurğulayıb. "Şübhəsiz ki, bu, gələcək məhsuldar dialoqa da töhfə verərdi", – deyə diplomat fikirlərini yekunlaşdırıb.

Qeyd edək ki, xarici işlər naziri Ceyhun Bayramov fevralın 26-da jurnalistlərə açıqlamasında bu barədə danışıb. Nazir deyib: "AZAL təyyarəsinin qəzası ilə bağlı ən ali səviyyədə bildirmişdik ki, Azərbaycanın mövqeyi bu mövzuda qətiyyətlidir, birmənalıdır. Rəsmi Bakının gözləntisi ötən ilin oktyabr ayında Azərbaycan Prezidenti ilə görüşdə Rusiya Prezidenti tərəfindən səsləndirilmiş yanaşmanın təsdiqini tapmasıdır. Bu yanaşma ondan ibarətdir ki, təyyarənin vurulması Rusiya Müdafiə Nazirliyinin səhvi ucbatından baş verib, buna qarşı tədbir görülməsi, hüquqi qiymətin verilməsi, kompensasiyaların ödənilməsini özündə ehtiva etmədir. Bizim gözləntimiz bundan ibarətdir".

*

Bu baxımdan M.Zaxarovanın brifinqdə səsləndirdiyi fikirlər ilk baxışdan konstruktiv ton təsiri bağışlasa da, mahiyyət etibarilə əsas məsələdən yayınma cəhdi kimi görünür. Moskva "razılaşmaların icrası", "mütəmadi məlumatlandırma", "faciəli səhifəni çevirmək" kimi diplomatik ifadələrlə prosesi yumşaq çərçivəyə salmağa çalışır. Lakin burada əsas sual açıq qalır: qəzanın səbəbi və məsuliyyəti ilə bağlı konkret hüquqi və siyasi addımlar niyə hələ də atılmır? Azərbaycan tərəfi mövqeyini ən yüksək səviyyədə və birmənalı şəkildə ortaya qoyub. Xarici işlər naziri Ceyhun Bayramovun açıqlaması bir daha təsdiqlədi ki, rəsmi Bakı üçün məsələ emosional ritorika deyil, hüquqi və siyasi məsuliyyət məsələsidir.

Əslində, bu, maksimalist tələb deyil. Bu, beynəlxalq hüququn və dövlətlərarası məsuliyyət prinsipinin adi tələbləridir. Əgər hadisə Rusiya MN-in səhvi ucbatından baş veribsə, o zaman məsul tərəf həm siyasi, həm də hüquqi müstəvidə cavab verməlidir. Əks halda, "faciəli səhifəni çevirmək" çağırışı formal və əsassız bəyanatdan başqa bir şey deyil. Səhifə yalnız həqiqət etiraf ediləndə və ədalət təmin olunanda çevrilə bilər.

Zaxarovanın çıxışında diqqətçəkən məqamlardan biri də informativ fonun "sağlamlaşdırılması" barədə çağırışdır. Lakin informasiya mühitini sağlamlaşdırmağın yolu faktları kölgədə saxlamaqdan keçmir. Əksinə, şəffaflıq, açıq istintaq, məsul şəxslərin müəyyənləşdirilməsi və cəmiyyətə aydın izahın verilməsi etimad mühitini bərpa edə bilər. Əgər Moskva həqiqətən münasibətlərin normallaşmasında maraqlıdırsa, o zaman prioritet informasiya axınının idarə olunması deyil, konkret nəticələrin ortaya qoyulması olmalıdır.

Rusiya tərəfi müxtəlif səviyyələrdə məsləhətləşmələrin keçirildiyini, Bakıya məlumatların təqdim olunduğunu bildirir. Ancaq təqdim olunan məlumatların mahiyyəti və hüquqi nəticəsi barədə ictimaiyyətə heç bir aydınlıq verilməyib. Halbuki söhbət onlarla insanın həyatına son qoymuş faciədən gedir. Bu məsələ diplomatik prosedur çərçivəsində uzadıla bilməz. Digər tərəfdən, Moskvanın Bakıda saxlanılmış Rusiya vətəndaşlarının azad olunması məsələsini gündəmə gətirməsi diqqətdən yayınmır. Bu iki mövzunun paralel səsləndirilməsi müəyyən balans görüntüsü yaratmaq cəhdi təsiri bağışlayır. Halbuki hüquqi mahiyyət etibarilə bunlar fərqli məsələlərdir. AZAL təyyarəsinin vurulması dövlət məsuliyyəti doğuran beynəlxalq hadisədir və burada prioritet məsələ səbəbin etirafı, hüquqi qiymət və kompensasiyadır.

Azərbaycanın gözləntisi aydındır və beynəlxalq hüquqa əsaslanır: Rusiya Prezidenti tərəfindən səsləndirilmiş yanaşma rəsmən təsdiqlənməli, Rusiya MN-in məsuliyyəti hüquqi müstəvidə tanınmalı, günahkarlar barədə tədbir görülməli və zərərçəkmişlərə kompensasiya ödənilməlidir. Bu addımlar atılmadan xanım Zaxarovanın bəhs etdiyi "faciəli səhifəni çevirmək" mümkün deyil. Nəticə etibarilə, top Moskvanın meydanındadır. Münasibətlərin həqiqi normallaşması emosional ifadələrdən deyil, konkret hüquqi qərarlardan keçir. Əgər Rusiya tərəfi doğrudan da bu məsələyə nöqtə qoymaq istəyirsə, o zaman diplomatik ritorikanı real məsuliyyət mexanizmləri ilə əvəz etməlidir. Yalnız bu halda həm ədalət bərpa olunar, həm də iki ölkə arasında etimadın yenidən qurulması üçün zəmin yaranar.

*Səxavət HƏMİD*
*XQ*

# Ermənistanın seçimi və Qərbin "hibrid" dəstəyi

**Ermənistan ətrafında baş verən son proseslər, Avropa İttifaqının (Aİ) İrəvana siyasi və institusional dəstəyi, habelə qarşıdan gələn parlament seçkiləri fonunda "hibrid təhdidlər" mövzusunun aktuallaşması bütövlükdə Cənubi Qafqazın gələcək geosiyasi trayektoriyasına təsir göstərə biləcək amillər kimi çıxış edir.**



Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas tərəfindən səsləndirilən fikirlər rəsmi Brüsselin Ermənistanla əməkdaşlığı yeni mərhələyə daşımaq niyyətindən xəbər verir. Aİ-nin parlament seçkiləri ərəfəsində Ermənistanda "hibrid sürətli reaksiya qrupu" yerləşdirmək planı və ölkənin dayanıqlılığının artırılması üçün 15 milyon avro ayırmaq qərarı, faktiki olaraq, ölkənin daxili siyasi sabitliyinin artıq təkcə milli məsələ deyil, Avropa təhlükəsizlik gündəliyinin tərkib hissəsi kimi qiymətləndirildiyini göstərir. Söhbət təkcə texniki dəstəkdən getmir; burada informasiya təhlükəsizliyi, seçki prosesinin bütövlüyü və dövlət institutlarının xarici təsirlərə qarşı davamlılığı kimi strateji məsələlər ön plana çıxır.

Rəsmi İrəvanın mövqeyi də diqqətəlayiqdir. Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan tərəfindən Brüsselə ünvanlanan müraciət, eləcə də iqtisadiyyat naziri Gevork Papoyanın hibrid hücumlar və kibertəhdidlər barədə açıqlamaları göstərir ki, Ermənistan hakimiyyəti qarşıdan gələn seçkiləri yalnız daxili siyasi rəqabət kontekstində deyil, həm də geosiyasi təzyiqlər müstəvisində qiymətləndirir. "Demokratiyanın özünümüdafiə hüququ var" tezisi əslində kiçik və orta dövlətlərin yeni beynəlxalq reallıqda üzləşdiyi çağırışların ümumiləşdirilmiş ifadəsidir. Müasir dövrdə seçkilərə müdaxilə artıq klassik hərbi müdaxilə formasında deyil, informasiya manipulyasiyası, sosial şəbəkələrdə dezinformasiya kampaniyaları, iqtisadi təsir rıçaqları və siyasi təsir şəbəkələri vasitəsilə həyata keçirilir.

Erməni politoloq Areq Koçinyanın Rusiya amilini əsas təhlükə kimi qiymətləndirməsi İrəvanda formalaşmaqda olan yeni strateji düşüncənin göstəricisidir. Onun fikrincə, Rusiyanın Ermənistanda təsir gücü bu yaxınlarda seçkilərin keçirildiyi Moldovadan daha çoxdur: "Buraya həm şübhəsiz ki, "satın alınmış" siyasi fiqurlar və qüvvələr, həm də müxtəlif media qurumları, xeyriyyə fondları və QHT-lər şəklində birbaşa imkanlar daxildir. Bütün bunlar onların uğur şanslarını artıra bilər. Ermənistan öz dayanıqlığını gücləndirmək üçün dövlət səviyyəsində tədbirlər görməlidir".

Bu yanaşma təsadüfi deyil. 2020-ci ildən sonra regionda yaranmış yeni reallıqlar, Qarabağ münaqişəsinin hərbi fazasının başa çatması və Rusiya sülhməramlı kontingentinin bölgədən çıxarılması fonunda Ermənistanın təhlükəsizlik arxitekturası ciddi transformasiya mərhələsinə daxil olub. Əvvəllər əsas dayağı Rusiya olan Ermənistan indi alternativ ünvanlar axtarmağa çalışır. Bu isə istər-istəməz, Moskva ilə münasibətlərdə gərginlik yaradır.

Burada Moldovanın təcrübəsinə istinad edilməsi də rəmzi xarakter daşıyır. Aİ ötən il seçkilər ərəfəsində Kişinyova oxşar dəstək göstərmiş və bunu uğurlu model kimi təqdim etmişdi. Lakin Ermənistanla Moldova arasında ciddi fərqlər mövcuddur. Moldova artıq Aİ-yə namizəd ölkə statusu alıb və onun Avroatlantik inteqrasiyası daha aydın institusional çərçivəyə malikdir. Ermənistan isə, eyni zamanda, Avrasiya İqtisadi İttifaqının üzvüdür və bu fakt geosiyasi balansı mürəkkəbləşdirir. Rusiyanın xarici işlər nazirinin müavini Mixail Qaluzinin Qərbin Ermənistanı geosiyasi mübarizə aləti kimi istifadə etdiyi barədə bəyanatı Moskvanın proseslərə hansı prizmadan baxdığını göstərir. Kreml üçün Ermənistanın Aİ ilə təhlükəsizlik və siyasi sahədə dərinləşən əməkdaşlığı postsovet məkanında təsir dairəsinin daralması deməkdir.

*

Cənubi Qafqazın digər mühüm aktoru Azərbaycan üçün isə əsas prioritet regionda davamlı sülhün təmin olunması və kommunikasiyaların açılmasıdır. Brüsseldə aparılan müzakirələrdə Aİ-nin Ermənistana dəstəyinin Azərbaycanla sülh prosesinə mənfi təsir göstərməməsinin xüsusi vurğulanması da bunu təsdiqləyir. Rəsmi Bakı son illər Ermənistan ərazisində yerləşdirilmiş Aİ müşahidə missiyası ilə bağlı müəyyən narahatlıqlarını ifadə edib. Lakin yeni missiyanın daha çox hibrid təhdidlərə və seçki prosesinin qorunmasına yönələcəyi bildirilir. Əgər bu mexanizm doğrudan da regionda sabitliyi gücləndirən və sülh gündəliyini dəstəkləyən amilə çevrilərsə, bu, Cənubi Qafqaz üçün müsbət presedent olacaq.

Eyni zamanda, ABŞ-ın vasitəçiliyi ilə aparılan sülh təşəbbüsləri və Ermənistan–Azərbaycan münasibətlərinin normallaşması istiqamətində atılan addımlar yeni regional konfiqurasiyanın formalaşmasına xidmət edir. Ermənistan daxilində bəzi ekspertlərin təhlükəsizlik asılılığını azaltmaq üçün Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşdırılmasını vacib sayması göstərir ki, regionun gələcəyi qarşılıqlı düşmənçilik modelindən əməkdaşlıq modelinə keçiddən asılıdır. Bu isə yalnız birtərəfli geosiyasi seçimlərlə deyil, balanslaşdırılmış və praqmatik siyasətlə mümkündür.

Hazırkı mərhələdə əsas sual ondan ibarətdir ki, Ermənistan qarşıdan gələn seçkiləri daxili sabitlik və xarici balansı qoruyaraq keçirə biləcəkmi? Əgər seçki prosesi legitim və şəffaf şəkildə baş tutarsa, bu, ölkənin beynəlxalq mövqelərini gücləndirə bilər. Əks halda, daxili siyasi parçalanma və xarici təsir iddiaları Ermənistanı daha dərin geosiyasi qarşıdurma meydanına çevirəcək. Bu isə bütövlükdə Cənubi Qafqazda sabitliyə mənfi təsir göstərər.

Beləliklə, Ermənistan ətrafında cərəyan edən proseslər təkcə bir ölkənin seçki təhlükəsizliyi məsələsi deyil, bütövlükdə regionun gələcək geosiyasi arxitekturasının formalaşması baxımından əhəmiyyətlidir. Aİ-nin fəallaşması, Rusiyanın narahatlığı, ABŞ-ın vasitəçilik təşəbbüsləri və Azərbaycan–Ermənistan sülh gündəliyi paralel şəkildə inkişaf edir. Cənubi Qafqaz üçün optimal yol qarşıdurma platformasına çevrilmək deyil, əməkdaşlıq məkanına transformasiya olunmaqdır. Bunun üçün isə region dövlətləri xarici təsir balansını qorumaqla yanaşı, milli maraqları əsas götürən, praqmatik və uzaqgörən siyasət yürütməlidirlər. Yeni reallıq məhz bunu tələb edir.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

*Köşə*

# Azərbaycanın dünya nizamında rolu artır



*Nurlan QƏLƏNDƏRLİ,*
*YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri*

**Avrasiyanın önəmli bölgələrindən biri kimi geosiyasi dinamikası artan Cənubi Qafqazda yeni strateji era başlanıb. Ərazi bütövlüyünə və mütləq suverenliyinə nail olan Azərbaycanın sülh diplomatiyası regional sabitlik, təhlükəsizlik və işbirliyinə istiqamətlənməklə yanaşı, aktual çağırışlar, xüsusilə də beynəlxalq təhlükəsizlik məsələləri fonunda olduqca mühüm əhəmiyyət kəsb edir.**




Bu gün geosiyasətdə coğrafi cəhətlər şərti xarakter daşıyır - dünyanın Şərqi ilə Qərbi yox, mərkəzi və kənarı mövcuddur. Mürəkkəb, qlobal kataklizmlərin mövcud olduğu dönəmdə və şəraitdə fərqli maraqlara sahib, hətta bir-biri ilə geosiyasi qarşıdurma vəziyyətindəki müxtəlif güc mərkəzlərinin maraqlarını vahid coğrafi məkanda uzlaşdırmaq siyasi iradə tələb edir. Azərbaycan milli mənafelərə və beynəlxalq hüquq normalarına əsaslanan praqmatik, çoxşaxəli xarici siyasət kursu həyata keçirməklə buna nail olur. Sülh naminə müharibənin çağdaş geosiyasətin zəruri şərti - strateji oyun qaydalarından biri olduğunu təsdiqləyən ölkəmiz bölgədəki geosiyasi mənzərəni ədavətdən ədalətə, yəni hərbi-strateji qarşıdurmadan sülhə doğru dəyişməklə regionda bütün tərəflərin maraqlarının təmin oluna biləcəyi beynəlxalq dialoq və əməkdaşlıq mühiti yaratmış oldu.

Bu günlərdə istər Münxen Təhlükəsizlik Konfransı, istərsə də Vaşinqtonda Sülh Şurasının ilk iclasında uzun müddət müharibə və münaqişə zonası kimi qeyri-müəyyənlik vəziyyətində olan Cənubi Qafqazın parlaq perspektivlərə malik regiona – geosiyasi cazibə mərkəzinə çevrilməsi və qarşıdurmadan inteqrasiyaya keçidinin xüsusi vurğulanması bu reallığın təsdiqidir.

Ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistan Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Tramp tərəfindən imzalanan Birgə Bəyannamə ölkəmizin növbəti diplomatik nailiyyətini əks etdirməklə bərabər, sülh prosesinin irəliyə aparılması baxımından böyük dəyərə malik olmaqla, postmüharibə dövründə regionda yeni tarixi dönəmin başlanmasını şərtləndirib.

Ölkəmizin regional miqyaslı, qlobal xarakterli təşəbbüsləri beynəlxalq səviyyədə yüksək qiymətləndirilir. İkiqütblü dünya nizamının sıradan çıxmasından sonra, yəni ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəlindən bugünədək Cənubi Qafqazda de-fakto müharibə vəziyyəti hökm sürüb ki, Azərbaycanın ilk dəfə olaraq regionda sülh şəraitini təmin etməsi tarixi önəmə malikdir. Digər tərəfdən, ölkəmiz hazırda müxtəlif münaqişəli tərəflər arasında etibarlı diplomatik körpü rolunda barışdırıcı missiya həyata keçirir.

Bunlar Azərbaycanın yeni dünya düzəninə keçid prosesinin institusional əsaslarından olan mühüm bir platformada - Sülh Şurasında təsisçi dövlət kimi iştirak etməsini şərtləndirən çox mühüm amillər olmaqla bərabər, sülh quruculuğunun beynəlxalq səviyyədə nadir təcrübə və konstruktiv model kimi təqdir edildiyini göstərir.

# Böyük zəfərin Qayıdış addımları

## 31 min 560 məcburi köçkün doğma yurduna qovuşub



**Ötən gün Milli Məclisin növbəti plenar iclası keçirildi. İclasın gündəliyinə 9 məsələ daxil edilmişdi. Əvvəlcə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Fariz İsmayılzadə Böyük Britaniya parlamentinin üzvlərinə ünvanladığı rəsmi məktubda Azərbaycanın keçmiş işğal olunmuş ərazilərindəki separatçı rejimlə bağlı aparılan araşdırma təşəbbüsünə görə ciddi narahatlığını bildirdi. Məktubda vurğulandı ki, radikal diaspor qruplarının qərəzli məlumatlarına əsaslanan bu addım Azərbaycan və Ermənistan arasında irəliləyən sülh prosesinə ciddi zərbə vura bilər. Cənubi Qafqazda revanşizmə yer olmadığını qeyd edən deputat Britaniya tərəfini sözügedən təxribat xarakterli araşdırma təşəbbüsünü ləğv etməyə və iki ölkə arasındakı strateji tərəfdaşlıq ruhuna uyğun olaraq regional sülhü dəstəkləməyə çağırdı.**

Sonra çıxış edən deputat Vüqar Bayramov işğaldan azad edilmiş ərazilərdəki sürətli bərpa-quruculuq işlərinə toxundu. Onun sözlərinə görə, Azərbaycanın güclənməsi işğaldan azad olunan torpaqların intensiv bərpa və yenidən qurmasına imkan yaratmaqdadır. Deputatın təqdim etdiyi statistikaya əsasən, Böyük Zəfərdən sonra Qarabağ və Şərqi Zəngəzurda artıq 28 min 697 nəfər (7154 ailə) məskunlaşıb. Yalnız 2026-cı ilin ilk iki ayı ərzində 2 min 863 keçmiş məcburi köçkün doğma yurduna qayıdıb və dövlət tərəfindən 646 yeni evlə təmin edilib.

Daha sonra gündəliyə keçid edildi. "Kinematoqrafiya haqqında" qanuna edilən dəyişikliklər üçüncü oxunuşda qəbul edildi. Bununla da xarici prodüserləri Azərbaycan ərazisində film istehsalına cəlb etmək məqsədilə çəkiləcək xərclərin qismən geri ödənilməsi qaydası təsdiqləndi. Qanun layihəsi ətrafında çıxış edən deputat Aqil Abbas Azərbaycanda film istehsalının maliyyələşməsinin tamamilə Mədəniyyət Nazirliyindən asılı qalmasından təəssüfləndiyini bildirdi. O, həmçinin Azərbaycanın tarixi şəxsiyyətləri haqqında daha çox filmlərin və serialların çəkilməli olduğunu vurğuladı.

Daha sonra iclasda Cəzaların İcrası Məcəlləsinə təklif edilən dəyişikliklər müzakirə olundu. Yeni layihəyə əsasən, məhkum tərəfindən cərimə müəyyən edilmiş müddətdə ödənilmədikdə həmin məbləğin ilk növbədə şəxsin əməkhaqqından tutulması barədə qayda təsdiqləndi. Qanun layihəsi səsverməyə çıxarılaraq üçüncü oxunuşda qəbul edildi. Bununla yanaşı, Mülki Məcəlləyə, "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" qanuna, habelə Əmək Məcəlləsinə, "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" və "Əmək pensiyaları haqqında" qanunlara təklif edilən dəyişikliklər də parlament tərəfindən üçüncü oxunuşda təsdiqləndi.

Əmək Məcəlləsinə və "Təhsil haqqında" qanuna təklif edilən dəyişikliklərə əsasən, Mədəniyyət Nazirliyinin tabeliyindəki uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin müəllimləri üçün attestasiya əvəzinə, sertifikasiya prosesi tətbiq olunması təklif edildi. Bildirildi ki, yeni qaydalar həmçinin dövlət vəsaitlərinin daha səmərəli istifadəsinə, müəllimlərin davamlı peşəkar inkişafına və bütövlükdə incəsənət təhsilinin keyfiyyətinin artırılmasına xidmət edəcək. Qanun layihəsi müzakirələrdən sonra birinci oxunuşda qəbul edildi.

"Mədəniyyət haqqında" qanun layihəsi ətrafında geniş müzakirələr aparıldı. Milli Məslis sədrinin müavini Rafael Hüseynov maraqlı təklif irəli sürdü. O, Milli Məclisin adının Azərbaycan dilinin qrammatik normalarına uyğun olmamasını bildirərək, dəyişdirilməsini təklif etdi: "Azərbaycan dilinin qrammatik normalarına görə, əslində, mədəni sənaye yox, mədəniyyət sənayesi, mədəni yaradıcılıq deyil, mədəniyyət yaradıcılığı olmalıdır. Çünki mədəni yaradıcılıq deyəndə onun məna çalarları ortaya çıxmalıdır. Bundan başqa, əslində Milli Məclis yox, Millət Məclisi olmalıdır. Türkiyədə də belədir. Biz millət vəkili deyirik, milli vəkil yox".

Aparılan müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edildi. Bununla yanaşı, İnzibati Xətalar Məcəlləsində, "Yerin təki haqqında" və "Avtomobil nəqliyyatı haqqında" qanunlarda nəzərdə tutulan dəyişikliklər də Milli Məclis tərəfindən ikinci oxunuş üçün təsdiqləndilər.

Gündəlikdəki məsələlərin müzakirəsindən sonra parlamentin plenar iclası başa çatdı.

### İnsan hüquqları komitəsinin iclasında

Fevralın 27-də parlamentin İnsan hüquqları komitəsinin iclasının gündəliyinə 1 məsələ – Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2025-ci il üzrə illik məruzəsi daxil edilmişdi. Məruzəni komitə sədri Zahid Oruc təqdim etdi. İclasda, həmçinin Ombudsman Aparatının rəhbəri Aydın Səfixanlı iştirak edirdi.

Bildirildi ki, "Konstitusiya və Suverenlik İli" elan edilən 2025-ci ildə 20 mindən çox insanı əhatə edən amnistiya aktı, eləcə də Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanması fundamental sülh hüququnun təmini istiqamətində tarixi nailiyyətlər kimi qiymətləndirilib. Ötən illə müqayisədə müraciətlərin sayı kəskin artaraq 42 min 685-ə çatıb, hesabatda yer alan təklif və tövsiyələrin sayı isə 94-ə yüksəlib. Bu artım həm əhali sayının çoxalması, həm də vətəndaşların Ombudsman təsisatına olan yüksək etimadının göstəricisi kimi səciyyələndirildi.

Sənəddə məhkəmə proseslərindəki süründürməçilik, qərarların icrasındakı gecikmələr və səhiyyə sahəsindəki kadr çatışmazlığı əsas narahatlıq doğuran məqamlar kimi göstərildi. Statistikaya əsasən, Daşkəsən, Gədəbəy və Lerik kimi rayonlarda həkim sayının əhali nisbətinə görə azlığı bərabər tibbi yardım hüququnu məhdudlaşdırır. Eyni zamanda, narkomaniya ilə mübarizənin gücləndirilməsi və söküntü işləri zamanı verilən kompensasiyaların bazar qiymətlərinə uyğunlaşdırılması zərurəti vurğulandı. Beynəlxalq müstəvidə isə qurum "Human Rights Watch" kimi təşkilatların qərəzli hesabatlarına qarşı aktiv diplomatik fəaliyyət göstərərək Ermənistandan qovulmuş soydaşlarımızın hüquqlarını müdafiə edib.

Məruzədə Birinci Qarabağ müharibəsindən Vətən müharibəsinədək olan dövrdə (o cümlədən Aprel döyüşləri və Tovuz hadisələri) və 2023-cü il antiterror əməliyyatlarında iştirak etmiş şəxslərin hüquqi statusuna aydınlıq gətirilməsi tövsiyə olundu. Bundan başqa, hərbi xidmət zamanı xəsarət alaraq əlilliyi müəyyən edilmiş şəxslərin təhsil haqlarının dövlət büdcəsi hesabına ödənilməsi təklif edildi. Təhsil hüququnda bərabərliyi təmin etmək üçün qiyabi təhsil alan tələbələrə də hərbi çağırışdan möhlət hüququnun verilməsi məqsədilə qanunvericiliyə dəyişiklik edilməsi təşəbbüsü irəli sürüldü.

Sənəddə ictimai nəqliyyatda təqaüdçülər, əlilliyi olan şəxslər, şagird və tələbələr üçün xüsusi güzəştlərin tətbiqi, habelə avtobus parkının genişləndirilməsi (o cümlədən ikimərtəbəli avtobusların alınması) təklif olundu. Sərnişin məmnunluğunu artırmaq üçün hərəkət intervallarının azaldılması, sürücülərin etik davranışlarına nəzarət və havalandırma sistemlərinin fasiləsiz işləməsi tələb edildi. Ombudsmanın qənaətinə görə, minib-enmə qaydalarının və xidmət standartlarının müasirləşdirilməsi ictimai nəqliyyatı daha cəlbedici edərək şəxsi avtomobillərdən asılılığı azalda bilər.

Məsələ ətrafında aparılan müzakirələrdə deputatlar, Ombudsman aparatının, həmçinin vətəndaş cəmiyyəti institutlarının nümayəndələri iştirak edirdilər. Çıxışlarda ombudsman institutunun əmək və məşğulluq, sosial təminat, təhsil, sağlamlığın qorunması ilə bağlı hüquqların təmin edilməsi, beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsi, dezinformasiyaların qarşısının alınması üçün yeni mexanizmlərin tədbiq edilməsi, ictimai iştirakçılıq, hüquqi maarifləndirmə və digər sahələrdə gördüyü işlər təqdirəlayiq hesab edildi. Sonda Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2025-ci il üzrə məruzəsi qənaətbəxş hesab olundu və Milli Məclisin plenar iclasına tövsiyə edildi.

***Tacir SADIQOV***
***XQ***

# Britaniya deputatlarına həqiqət və ədalət çağırışı

**Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Fariz İsmayılzadə fevralın 25-də başçılıq etdiyi qrupun adından Birləşmiş Krallıq parlamentinin üzvləri Baronessa Helena Kennediyə, Brendan O'Hara və Cessika Mordenə məktub ünvanlayıb.**

Məktubda Böyük Britaniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvlərinin Birləşmiş Krallıq parlamentində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərində mövcud olmuş keçmiş cinayətkar və separatçı rejimlə bağlı davam edən araşdırma təşəbbüsündən ciddi narahatlıq və məyusluq hissi keçirdikləri qeyd olunub. Bildirilib ki, belə bir təşəbbüs hazırda Azərbaycan ilə Ermənistan arasında irəliləyən və Böyük Britaniya hökumətinin də yüksək səviyyədə dəstəklədiyi sülh prosesinə ciddi zərbə vura bilər.

Vurğulanıb ki, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən otuz ildən artıq davam edən qanunsuz işğalı və bir milyona yaxın azərbaycanlının doğma yurd-yuvasından didərgin düşməsi ilə nəticələnən ağır mərhələdən sonra Ermənistan ilə Azərbaycan hazırda ABŞ-dan və Avropadan olan tərəfdaşlarının dəstəyi ilə sülh prosesində real irəliləyiş əldə etməkdədir. Odur ki, mövcud olmayan separatçı rejimlə bağlı keçirilməsi nəzərdə tutulan təxribat xarakterli dinləmələrin radikal, sülhə qarşı çıxan diaspor qruplarının və lobbi dairələrinin yanlış və qərəzli məlumatlarına əsaslanacağı bildirilir. Sonda Böyük Britaniya parlamentinə sözügedən araşdırma təşəbbüsünün ləğvi ilə bağlı çağırış edilib.

***XQ***

# Efiopiyanın Baş naziri "AI Academy" ilə tanış olub

**Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əli Azərbaycana rəsmi səfəri çərçivəsində "AI Academy"də olub.**

Görüşdə rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev süni intellektin ölkənin rəqəmsal inkişaf gündəliyində strateji prioritet kimi müəyyən olunduğunu vurğulayıb. O, həmçinin insan kapitalının hazırlanması və texnoloji imkanların genişləndirilməsinin milli inkişaf modelinin əsas komponentlərindən biri olduğunu qeyd edib.





Milli Süni İntellekt Mərkəzinin baş direktoru Tuncay Bağırov qonaqlara akademiyanın yaradılma məqsədi, fəaliyyət istiqamətləri və inkişaf planları barədə məlumat verib. Bildirilib ki, "AI Academy" Azərbaycanın 2025–2028-ci illər üçün Süni İntellekt Strategiyasına uyğun olaraq ölkədə yüksəkixtisaslı mütəxəssis hazırlığının sistemli şəkildə təşkili, dövlət və özəl sektor üçün tətbiqyönümlü bacarıqların inkişaf etdirilməsi və innovasiya mühitinin gücləndirilməsi məqsədilə fəaliyyət göstərir.

Qonaqlara akademiyanın tədris proqramları, ixtisaslaşmış kursları və praktiki təlim modulları təqdim olunub, tədris prosesinin real layihələrə əsaslanan model üzrə qurulduğu diqqətə çatdırılıb. Bu yanaşmanın süni intellekt texnologiyalarının yalnız nəzəri bilik səviyyəsində deyil, konkret iqtisadi və institusional tətbiqlər vasitəsilə dəyər yaratmasına xidmət etdiyi bildirilib.

Görüş zamanı süni intellekt sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi, bilik və təcrübə mübadiləsinin təşviqi, eləcə də bu istiqamətdə birgə təşəbbüslərin inkişaf etdirilməsi məsələləri müzakirə olunub.

***XQ***

# Azərbaycan–Türkmənistan əməkdaşlıq müzakirəsi



**Fevralın 27-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Türkmənistanın xarici işlər nazirinin müavini Ahmet Qurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüş zamanı iki ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi istiqamətində siyasi dialoqun dinamik inkişafı məmnunluqla qeyd olunub, ali və yüksəksəviyyəli səfərlərin və təmasların əhəmiyyəti vurğulanıb. Bu çərçivədə ötən il Prezident İlham Əliyevin Türkmənistana, Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun Azərbaycana səfərləri və əldə olunmuş nəticələr məmnunluqla xatırlanıb.

Görüş zamanı Azərbaycan və Türkmənistan arasında mövcud olan strateji tərəfdaşlıq münasibətlərinin xarakterinə uyğun olaraq, ticarət-iqtisadiyyat, enerji, nəqliyyat və logistika, o cümlədən Xəzər dənizində əməkdaşlıq, humanitar və mədəniyyət sahələrində əməkdaşlığın genişləndirilməsi imkanları nəzərdən keçirilib və perspektivləri müzakirə edilib.

Bu çərçivədə Azərbaycan və Türkmənistan arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın əlaqələrin inkişafında mühüm rol oynadığı vurğulanıb. Ötən il Türkmənistanın Azərbaycanda, bu il isə Azərbaycanın Türkmənistanda mədəniyyət günlərinin təşkilinin əhəmiyyəti qeyd olunub, bununla yanaşı, xalçaçılıq və atçılıq kimi ortaq dəyərlərimizin təbliğatının vacibliyi diqqətə çatdırılıb.

*

**Həmin gün Azərbaycan və Türkmənistan Xarici işlər nazirlikləri arasında növbəti siyasi məsləhətləşmələr keçirilib.**

Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Samir Şərifov, Türkmənistan tərəfindən isə xarici işlər nazirinin müavini Ahmet Qurbanov başçılıq edib.

***XQ***

# Horadiz–Ağbənd dəmir yolu 70 faiz hazırdır

**"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti işğaldan azad olunmuş ərazilərdə dəmir yollarının tikintisini davam etdirir. Qurumdan verilən məlumata görə, Horadiz-Ağbənd dəmiryol xəttinin layihələndirilməsi 85 faiz tamamlanıb.**

Layihə üzrə torpaq işləri, süni qurğuların tikintisi, yolun üst quruluş elementlərinin quraşdırılması işləri 70 faiz yekunlaşıb. Ötən müddətdə dəmir yolu xəttinin ox üzrə 75,6 kilometr hissəsi (yan yollarla birlikdə 87 kilometr) tamamlanıb, uzun ölçülü relslərin 65,6 kilometri quraşdırılıb. Dəmir yolu xəttinin 60 metr enində minatəmizləmə işləri aparılıb. Hazırda genişlənmələr tələb olunan yerlərdə minatəmizləmə işləri davam edir.



Xatırladaq ki, Horadiz-Ağbənd dəmir yolu xəttinin layihələndirmə və tikinti işlərinə Prezident İlham Əliyevin 2021-ci il 13 mart tarixli sərəncamına əsasən başlanılıb. Ox üzrə uzunluğu 110,4 kilometr, yan yollarla birlikdə 140,6 kilometr olan dəmir yolu tək xətlidir. Layihə çərçivəsində, ümumilikdə, 594 ədəd mühəndis qurğusunun, 8 stansiyanın (Yuxarı Mərcanlı, Şükürbəyli, Soltanlı, Qumlaq, Həkəri, Mincivan, Bartaz, Ağbənd) tikintisi və 70 yoldəyişən qurğunun quraşdırılması planlaşdırılır.

Ümumilikdə, Horadiz-Ağbənd dəmir yolunun tikinti-quraşdırma işləri 3 mərhələdə həyata keçirilir. Yolun istifadəyə verilməsi işğaldan azad edilmiş ərazilərin iqtisadi dirçəlişinə təkan verməklə yanaşı, Azərbaycanın əsas hissəsinim Naxçıvanla birləşdirilməsinə imkan yardacaq. Horadiz-Ağbənd dəmir yolu, həm də Türkiyəyə qədər uzanacaq Zəngəzur dəhlizinin tərkib hissəsi olacaq.

***XQ***

*Tarix unudulmur*

# “Xocalı” kimi “Sumqayıt” da ermənilərin vicdanında ləkədir

## *Yaxud balans yaratmaq istəyənlərə həqiqət xatırlatması*

**ABŞ-ın Azərbaycandakı Səfirliyinin Xocalı soyqırımı ilə ifadə etdiyi üzüntünün ardınca bu ölkənin Ermənistandakı ali diplomatik missiyası sosial şəbəkə paylaşımında bildirdi ki, bu gün biz ermənilərlə bərabər, 1988-ci ildə Sumqayıtda həlak olmuşların xatirəsini anırıq. Görünür, Birləşmiş Ştatlar Bakı ilə İrəvan arasındakı balansı belə saxlayır. Birbaşa deyək ki, bu cür balans, yaxud onun yaradılmasına söykənmiş görüntü qətiyyən yolverilməzdir. Yazımızda bəzi məqamları açıqlayaraq, mövqeyimizə aydınlıq gətirəcəyik.**



Əvvəla, onu bildirək ki, Sumqayıt hadisələri Xocalının dinc sakinlərini də qurbana çevirmiş Qarabağ münaqişəsi ilə birbaşa əlaqəlidir. Bu yerdə Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın vaxtilə səsləndirdiyi bir fikri diqqətə çatdıraq: “Sumqayıt hadisələrindən sonra Azərbaycan xalqı şok vəziyyətinə düşmüşdü. Əgər ölkə rəhbərliyi (yəni keçmiş SSRİ – red.) bu məqamdan istifadə edib Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi haqqında qərar çıxarsaydı, Azərbaycan xalqı buna etiraz edə bilməyəcəkdi”.

Əslində, L.Ter-Petrosyan, müəyyən mənada, haqlı sayıla bilər. O anlamda ki, Sumqayıt qətliamı erməni millətçilərinin Qarabağ avantürasını körükləmək məqsədi daşısa da, törədilmiş vəhşiliklər həmin avantüranın davamı üçün yalnız bəhanə qismində götürülmüşdü. Yəni, Sumqayıt olaylarına nəzərən Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi məsələsini qaldırmaq yox, SSRİ rəhbərliyini, bir növ, fakt qarşısında qoymaq nəzərdə tutulmuşdu. Düşünülmüşdü ki, Azərbaycan və Ermənistan xalqlarının bir yerdə yaşaya bilməyəcəkləri görüntüsü yaransın və bu görüntü Qarabağ naminə fəaliyyət rıçağına çevrilsin. L.Ter-Petrosyanın bildirdiyi isə məkrin tez-bazar reallaşdırılma illüziyasıdır.

Ermənistanın birinci prezidenti Sumqayıt olaylarına görə Azərbaycan xalqının şoka düşdüyünü də düzgün vurğulayır. Çünki sovet “KQB”sinin daşnaklarla birgə hazırladığı plan pis mənada heyrət doğurur. Təsəvvür edin, erməni millətçilərinin tərkibindən Azərbaycan dilini yaxşı bilənlər seçilir, onlar dinc erməniləri Sumqayıt küçələrində qanlarına qəltan edir, yaxud hündürmərtəbəli binalardan atırdılar. Ozamankı durumu xatırlayan şəhər sakinləri erməni qonşularını ölümdən xilas etmək üçün ən müxtəlif yolları sınaqdan çıxardıqlarını bildirir, xüsusi amansızlıqlar törədənlərin haradan çıxdıqlarını anlamadıqlarını vurğulayırlar. Əlbəttə, indi hər şey məlumdur.

Bəli, 38 il əvvəlin bu günlərindəki Sumqayıt qırğınlarının Qarabağ münaqişəsi ilə birbaşa əlaqəli olduğunu təsadüfən bildirmədik. Nəzərə alaq ki, Moskvada erməni lobbisinin ən güclü təmsilçilərindən, Qarabağı Azərbaycandan qoparmaq üçün başladılmış “Miatsum” hərəkatının ideoloqlarından olan, SSRİ rəhbəri Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri Abel Aqanbekyan bundan əvvəl, yəni 1987-ci ilin noyabrında Parisdə Fransa Erməni İnstitutunun və Erməni Veteranlar Assosiasiyasının birgə toplantısında belə bir fikir səsləndirmişdi: “Mən bir iqtisadçı kimi hesab edirəm ki, Qarabağ iqtisadi cəhətdən daha çox Ermənistana bağlıdır, nəinki Azərbaycana”.

Qeyd edək ki, A.Aqanbekyan Qarabağın Ermənistana verilməli olduğuna dair mövqeyini Fransanın “Humanite” (“L'Humanité”) qəzetinə müsahibəsində, özü də dəfələrlə bəyan etmişdi. Sözümüz ondadır ki, Sumqayıtadək erməni millətçiləri artıq mənfur fəaliyyətlərinə start vermişdilər. SSRİ rəhbərliyi isə onların özbaşınalıqlarına göz yumurdu. Dövlətdəki hansısa gizli əllər quldurları müdafiə edirdi. Həm müdafiə edir, həm də avantüra üçün müxtəlif motivlər hazırlayırdılar.

Motivlərə gəlincə, məsələn, 1988-ci il fevralın 19-dan etibarən İrəvanda kütləvi mitinqlər başlanmışdı. Aksiya iştirakçıları “Ermənistanı türklərdən təmizləməli!”, “Ermənistan yalnız ermənilər üçündür!” kimi şüarlar səsləndirmişdilər. Yeri gəlmişkən, həmin etiraz dalğasının üçüncü günü İrəvanda salamat qalmış yeganə məscid, azərbaycanlıların təhsil aldıqları orta məktəb, həmçinin C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının ləvazimatları yandırılmış, yaşananlara etirazını bildirən azərbaycanlıların evlərinə od vurulmuşdu.

Şübhəsiz, bütün bunlar Azərbaycanda ermənilərə qarşı aqressiv mühitin formalaşması üçün idi. Hər şey əvvəlcədən hazırlanmış “ssenariyə” uyğun gedirdi və Sumqayıtı ermənilərə qarşı gilyotin qismində nəzərdə tutanlar hadisədən 10 gün əvvəl şəhərin bütün əmanət kassalarından ermənilərin öz əmanətlərini kütləvi şəkildə götürmələrini, həmçinin qırğınların videolentə alınması üçün operatorların hadisələrin planlı şəkildə törədiləcəyi yerlərdə özlərinə xəlvəti çəkiliş mövqeləri seçmələrini təmin etmişdilər. O videolentlər ki, heç iki gün keçməmiş dünyanı dolaşdı.

Üstəlik, tez bir zamanda Xankəndidə “Sumqayıt qurbanları”nın xatirəsini “əbədiləşdirmək” üçün hazırlanmış abidə qoyuldu. Bütün bunlar erməniləri, eləcə də dünya ictimaiyyətini Azərbaycan xalqına qarşı ayağa qaldırmaq, onun “vəhşi” obrazını yaratmaq məqsədini güdmüşdü. Əlbəttə, bu kimi sərsəm təqdimatlara Qarabağ ermənilərinin “vəhşilərin” tabeliyində yaşaya bilmələrinin mümkünsüzlüyü ideyası da hakim kəsilmişdi.

Qeyd edək ki, 1988-ci il fevralın 27-dən 28-nə keçən gecə Sumqayıt şəhərində baş vermiş iğtişaşlar nəticəsində və ondan sonra ümumilikdə 32 nəfər ölmüşdü. Onlardan 26-sı erməni, 6-sı azərbaycanlıdır. Sumqayıt qırğınını təşkil etmək üçün seçilmiş şəxs isə iki dəfə məhkumluq həyatı yaşamış Eduard Qriqoryan olmuşdu. Baxmayaraq ki, təşkilatçı kimi azərbaycanlı Əhməd Əhmədov güllələndi, şahid ifadələri əsl günahkarın məhz həmin Qriqoryan olduğunu sübuta yetirmişdi. Amma...

Bir məqamı da vurğulayaq ki, qırğın məkanı olaraq Sumqayıt təsadüfən seçilməmişdi. Həmin vaxt Ermənistandan zorla çıxarılmış 41 mindən artıq Azərbaycan türkünün əksəriyyəti məhz bu şəhərdə məskunlaşmışdı. Şübhəsiz, onlar ermənilərə qəzəb duyurdular. Bu qəzəb heç kəsi cinayətə sövq etməsə də, hay millətçiləri onu motiv kimi nəzərə almışdılar. Digər tərəfdən, Sovet dövründə Sumqayıt “ölü zona” adlandırılırdı. Şəhərin yerli əhalisi içərisində yoxsulluq hökm sürürdü ki, bu, müəyyən kriminal elementlərə meydan verirdi. Yəni iğtişaş törədənlər mövcud amili də nəzərə almışdılar.

Onu da bildirək ki, Sumqayıt hadisələri nəticəsində həyatını itirmiş 26 erməni SSRİ “KQB”nin (o zamankı Dövlət Təhlükəsizliyi Komitəsinin – red.) himayə etdiyi qrupların qurbanına çevrilmişdilər. Diqqətçəkən fakt budur ki, öldürülən ermənilərin əksəriyyəti erməni terror fondlarına pul köçürməyənlər idilər. Yəni hər şey bu qədər planlı idi. Sumqayıta general Krayevin rəhbərliyi ilə yeridilən ordu hissələri isə qətliamı kənardan izləmişdilər. Həmin hissələr şəhərə yalnız fevralın 29-da girdilər və 6 azərbaycanlı məhz bu zaman tankların tırtılları altında qalaraq həyatını itirdi.

Ümumən, Sumqayıt hadisələri zamanı öldürülənlərlə yanaşı, 400 nəfər xəsarət aldı, 200 mənzil talandı, 50 mədəni-məişət obyekti dağıdıldı, 40-dan çox avtomobil yararsız hala salındı, həmçinin 3 minə yaxın günahsız Sumqayıt sakini zindanlara dolduruldu ki, onlardan 400-ü inzibati məsuliyyətə cəlb edildi, böyük bir qismi müxtəlif üsullarla canını qurtardı. 94 nəfərə isə bilavasitə cinayət işi açıldı.

Əlbəttə, Sumqayıt hadisələrinin erməni millətçilərinin törətdiklərinə dair bir çox başqa məqamları da vurğualamaq, əlavə sübutlar gətirmək mümkündür. Amma ehtiyac duymur, hesab edirik ki, dünya ictimaiyyəti bu barədə yaxşı məlumatlıdır. ABŞ-da da əsl həqiqətlərdən xalidirlər. Amma niyəsə təkcə Birləşmiş Ştatlarda deyil, bütövlükdə beynəlxalq aləmdə Sumqayıt olaylarına həqiqət pəncərəsindən yanaşmalar azdır.

Habelə, Sumqayıtda yaşanan dəhşətlər azərbaycanlılar və ermənilər arasında, bir növ, paralellik aparmaq naminə istifadə edilir. Yəni ermənilər qırıb, azərbaycanlılar da eyni şeyi edib və ya əksinə. Paralellikdən söz düşmüşkən, Rusiya Prezidenti Vladimir Putinin illər əvvəl dilə gətirdiyi bir fikir var. Onun sözlərindən gəlinmiş qənaət bu idi ki, sanki, Qarabağ məsələsi Sumqayıt qırğınına cavab olaraq meydana çıxıb. Halbuki, qətiyyən belə deyil. Putin mahiyyəti dilə gətirmir və onun bildirdikləri, əslində, sovet “KQB”sinin ssenarisinin yaratmalı olduğu mənzərənin təsvirindən başqa bir şey deyil.

Sonda onu da onu deyək ki, hazırda Azərbaycan və Ermənistan sülhə doğru gedir. O sülhə ki, onda Prezident Donald Trampın şəxsində ABŞ-ın vasitəçilik missiyası var və Birləşmiş Ştatların ali diplomatik təmsilçilikləri bu missiyanın ruhuna uyğun davranmalıdırlar. Yəni ABŞ-ın Ermənistandakı Səfirliyi ölkənin Azərbaycandakı ali diplomatik missiyasının Xocalı soyqırımı ilə bağlı üzüntü paylaşımına, qarşılıq kimi Sumqayıt hadisələrindən kədərlənməməlidir. Bir daha bildirək ki, belə balans olmur. Çünki “Xocalı” ilə “Sumqayıt” eyni deyil və ola bilməz.

Əlbəttə, bu iki hadisənin oxşarlıq payı var. Yəni onların hər ikisi erməni varlığı üçün böyük utancdır. Elə bir utanc ki, kökündə həmin varlığın onilliklərlə türklərə və müsəlmanlara qarşı apardığı məkrli və qorxunc siyasət dayanır. Hazırda sülh yolunda olduğunu bildirən Ermənistan dövləti və cəmiyyəti bütün bunlardan nəticə çıxarmalıdır. Həmçinin Cənubi Qafqazda barış mühitini istəyən qüvvələr də...

ABŞ başda olmaqla həmin qüvvələr nəticə çıxarmalı, həqiqətlərin üzünə düz baxmalıdırlar ki, sülh səmimi ovqata köklənsin, dayanıqlı və möhkəm olsun. Sülhün səmimiyyət axarında erməni avantürizmi ilə bağlı olan heç bir elementə yer verilməməlidir. Hətta ən kiçik elementə belə. Güman edirik, əlavə şərhə ehtiyac yoxdur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# “Miatsum”çuların ilk qanlı təxribatının gizlinləri



**Sovet dövründə 83 millətin nümayəndələrinin yaşayıb-yaratdığı Sumqayıt şəhərində 1988-ci il fevralın 28 və 29-da törədilmiş qanlı hadisələr, ilk növbədə, SSRİ-nin süqutunun daha da yaxınlaşmasına səbəb olub. İstintaq tərəfindən etiraf edilməsə də, çoxsaylı şahid ifadələri, necə deyərlər, daşdan keçən sənədli dəlillər, üzləşmə ifadələri ilə təsdiqlənib ki, milli zəmində bu olaylar SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin erməni millətçiləri ilə birgə Azərbaycana qarşı təşkil etdiyi və həyata keçirdiyi təxribatların növbəti tərkib hissəsi idi. Məqsəd isə hər zaman olduğu kimi, dünya ictimaiyyətində yanlış rəy formalaşdırmaq, anti-Azərbaycan əhvali-ruhiyyəsi yaratmaq idi.**

O zaman Sumqayıt kütləvi iğtişaşlar üçün bir növ münbit məkan idi. Üstəlik, Ermənistandan 40 minədək soydaşımız qovulmuşdu və onların əksəriyyəti bu “beynəlmiləl” şəhərə üz tutmuşdu. Yataqxanalarda, texniki peşə məktəblərində, gecəqondularda çoxlu nəzarətsiz gənclər vardı və onlarla aparılan ideoloji işin səviyyəsi də aşağı idi, yəni səbatsız kütləni yoldan sapdırmaq asan olacaqdı. Təşkilatçılar bütün bu amilləri lazımınca dəyərləndirərək, şərti adı “Nalyotçik” (“Basqınçı”) olan təxribat planını reallaşdırdılar.

…Sanki Sumqayıtda hüquq-mühafizə orqanlarının fəaliyyəti dondurulmuşdu. Şəhərin “Lenin” meydanındakı mitinqdə ekstremist əhvali-ruhiyyəli iş aparanlara, erməniləri öldürməyə açıq çağırışlar edənlərə güldən ağır söz deyilmirdi. Şəhərə vaxtında ordu göndərilməsi tələblərini artıq fevralın 27-də Sumqayıtda olan SSRİ DTK-nın müavini Bobkov qulaqardına vururdu. General Krayevin rəhbərliyi ilə fevralın 28-dən 29-na keçən gecə şəhərə daxil olmuş ordu hissələri və daxili qoşunlar şəhər partiya komitəsinin binasını mühasirəyə alaraq gözləmə mövqeyində dayandılar. Halbuki, həmin anlarda şəhərdə məlum qüvvələr tərəfindən erməni millətindən olanlar döyülür, öldürülürdülər.

Sumqayıtdakı iğtişaşların əsas baiskarları Azərbaycana qarşı Ermənistan xüsusi xidmət orqanları və SSRİ Dövlət Təhlükəsizlik Komitəsi idi. Onların hədəfi o vaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycandan ayrılıb Ermənistana birləşdirilməsi idi. SSRİ Konstitusiyasına görə, bunun qeyri-qanuni olduğunu dərk edən hay ideoloqları və SSRİ rəhbərliyində onları açıq dəstəkləyən şəxslər dünya ictimaiyyətinin gözündə ermənilərin və azərbaycanlıların birgə yaşamasının qeyri-mümkünlüyünü əsaslandırmaq, azərbaycanlıların artıq tam şəkildə Ermənistan ərazisindən qovulmasını təmin etmək və Azərbaycanı nüfuzdan salmaq üçün bu təxribata əl atıblar.

Bütün şahid ifadələri Sumqayıt hadisələrinin təşkilatçı və əsas icraçısının milliyyətcə məhz erməni, 2 dəfə məhkum edilən Eduard Qriqoryan olduğunu sübut edir. Azərbaycan dilində təmiz danışan, “Paşa” ləqəbli bu cinayətkar Sumqayıt hadisələri zamanı neçə-neçə ermənini şəxsən özü öldürüb, talanlara başçılıq edib. İstintaq materiallarında qeyd olunduğu kimi, iğtişaşlar nəticəsində müxtəlif millətlərdən olan 32 adam həyatını itirib, onların 26-sı ermənidir. 400 nəfərdən çox adam müxtəlif dərəcəli xəsarətlər alıb, 200-dən artıq mənzil talan edilib. Dövlətə o zamankı qiymətlərlə 7 milyon rubl məbləğində maddi ziyan dəyib.

Həmin dövrdə Sumqayıtda yaşayan ermənilərin böyük bir hissəsinin Dağlıq Qarabağda, o vaxtkı Stepanakert şəhərində fəaliyyət göstərən “Krunk” cəmiyyətinə pul vəsaiti köçürdüyü müəyyən edilib. Burada hədəfə alınan ermənilərin əksəriyyəti isə məhz separatçı cəmiyyətinə könüllü maddi vəsait köçürməkdən imtina edənlər olub. Belə ki, cinayətkar dəstə bir binaya, bloka daxil olaraq, tutaq ki, 1-ci mərtəbələrdə yerləşən erməni sakinlərin evlərindən yan keçərək, yuxarı mərtəbələrdə yaşayan ermənilərin mənzillərinə hücum ediblər. Deməli, hücumçular kor-koranə deyil, siyahı əsasında hərəkət ediblər. “Krunk”a pul köçürən ermənilərə toxunulmayıb.

Bu da var ki, videoçəkilişə xüsusi nəzarət və senzura tətbiq olunmasına baxmayaraq, hadisələrin əvvəlcədən quraşdırılmış vasitələrlə lentə alınıb və dərhal SSRİ ərazisindən çıxarılaraq erməni lobbi təşkilatları vasitəsilə anti-Azərbaycan kampaniyasının tərkib hissəsi kimi Avropaya yayılıb.

Təxribatçıları ruhlandıran bir vacib amil də o idi ki, ulu öndər Heydər Əliyev Moskvada tutduğu vəzifədən getmişdi və Dağlıq Qarabağda separatçı meyillərə yaşıl işıq yandırmaq fürsəti yaranmışdı. Ümummilli liderin istefasından cəmi bir neçə ay sonra məkrli Sumqayıt hadisələri baş verdi.

Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu il noyabrın 21-də Sumqayıt şəhərinin 70 illik yubiley gecəsindəki nitqində qeyd edib ki, Sumqayıt hadisələrini törədən erməni millətçiləridir və erməni dəstələridir: “Biz hamımız yaxşı bilirik ki, on nəfərə yaxın ermənini öldürən milliyyətcə erməni Qriqoryan və onun quldur dəstəsi idi. Sonra nə baş verdi? İstintaqı Moskvadan gəlmiş qrup aparırdı, yəni tam ədalətli aparırdı. Verilmiş bütün ifadələr, şahidlərin ifadələri, üzləşmələr sübut etmişdi ki, həmin o, Qriqoryan erməni xalqının nümayəndələrini qətlə yetirmişdir. O, həbs edilir, bütün sübutlar təsdiq olunur. Ondan sonra o, cəza çəkmək üçün Ermənistana göndərilir və ancaq orada sərbəst buraxılır. Bax, sual yaranır. On nəfərə yaxın ermənini öldürən bir qatili Ermənistan niyə sərbəst buraxır? Ona



görə buraxır ki, o, onların tapşırıqlarını icra edirdi. Sumqayıt hadisələrindən istifadə edib Azərbaycana qarşı qarayaxma kampaniyası daha geniş vüsət almışdır və nəticə etibarilə Dağlıq Qarabağda münaqişə baş vermişdir”.

Təəssüf ki, əsas cinayətkar Qriqoryan ağalarının sayəsində azadlığa qovuşa bilsə də (o, indi də sağdır və Moskva ətrafında dəbdəbəli həyat sürür), SSRİ Ali Məhkəməsi tərəfindən hadisələrdə sıravi iştirakçı olmuş Əhməd Əhmədova güllələnmə cəzası verilib və hökm icra olunub. Halbuki, onun ailəsi qonşuluqda yaşayan erməni qadınını 3 gün evlərində gizlədib ki, təxribata düşməsin.

Hadisələrin digər qurbanı – Taleh İsmayılov isə Sumqayıt mitinqlərində fəallığına və təxribata uyduğuna görə həbs edilərək, 15 il müddətinə azadlıqdan məhrum edilib və 1 il sonra cəzaçəkmə müəssisəsində dünyasını dəyişib (!?). Ümumiyyətlə, 3 minə yaxın şəhər sakini günahlı-günahsız həbs olunaraq zindanlara doldurulub və olmazın əziyyətlər çəkib. Bundan başqa, istintaq dövrü heç bir günahının olmaması sonradan məhkəmə tərəfindən sübuta yetirilmiş, insulinlə yaşayan II qrup əlil Elçin Gəncəliyev Bayıl türməsində müəmmalı şəkildə öldürülüb. Məhkəmənin qərarı ilə daha 92 nəfər sumqayıtlı uzunmüddətli həbs cəzasına məhkum edilib.

Üstündən illər ötsə də, Azərbaycan dövləti Sumqayıt hadisələrinin obyektiv araşdırılması və bu təxribatın əsl mahiyyətinin ortaya çıxarılması üçün ciddi addımlar atır. Prezident İlham Əliyevin göstərişi ilə Azərbaycan Respublikası Baş Prokurorluğunda Sumqayıt təxribatı ilə bağlı başlanmış cinayət işinin istintaqı yenidən aparılır və hazırda istintaq davam edir.

***Ə.DOSTƏLİ***
***XQ***

*Xocalı soyqırımı – 34*

# Xocalı soyqırımı – sovet rejiminin xalqımıza qanlı mirası

## *Əsrin faciəsinə gələn xəyanət və fəlakətlər marafonu*

**Ötən əsrin sonlarında SSRİ-nin dağılması ərəfəsində mövcud hüquqi və siyasi mexanizmlər faktiki olaraq fəaliyyətini itirmiş, mərkəzi hakimiyyətin zəifləməsi fonunda xaos və anarxiya hökm sürmüşdür. 1991-ci il dekabrın 8-də Rusiya, Ukrayna və Belarus rəhbərlərinin Belovejskaya Puşada imzaladıqları sazişlə 1922-ci il İttifaq müqaviləsinin qüvvədən düşdüyü elan edilmiş və SSRİ-nin mövcudluğuna faktiki olaraq xitam verilmişdir.**



Bununla da təkcə bir dövlət deyil, həm də qlobal hegemonluq iddiasında olan sovet-kommunist ideologiyası tarix səhnəsindən silinmişdir. Yeni yaranan siyasi reallıqlar beynəlxalq hüquqda “uti possidetis juris” (bir ərazi əvvəlki dövlətin tərkibində necə olmuşdusa, yeni müstəqil dövlət formalaşanda həmin sərhədlər saxlanılır, dəyişdirilmir) prinsipinin tətbiqini aktuallaşdırmış və Azərbaycan Respublikası keçmiş Azərbaycan SSR-in inzibati sərhədləri daxilində, o cümlədən Qarabağ bölgəsi ilə birlikdə beynəlxalq səviyyədə tanınmışdır.

Lakin bu keçid dövrü Ermənistan tərəfindən Azərbaycan Respublikasının ərazi bütövlüyünə qarşı yönəlmiş açıq hərbi təcavüzlə müşayiət olunmuşdur. 1991-ci ilin dekabrında Qarabağda keçirilmiş qanunsuz “referendum” heç bir hüquqi əsas daşımamış, mülki azərbaycanlı əhali prosesdən kənarda saxlanılmışdır. Eyni zamanda, keçmiş sovet ordusunun silah və sursatlarının erməni silahlı birləşmələrinə ötürülməsi regionda silahlı münaqişənin daha da kəskinləşməsinə səbəb olmuşdur. Nəticə etibarilə, SSRİ-nin süqutundan sonra yaranmış siyasi boşluq Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü genişləndirməsi üçün əlverişli şərait yaratmışdır.

1992-ci ilin əvvəllərindən etibarən Ermənistan silahlı qüvvələri Qarabağ regionunda genişmiqyaslı hərbi əməliyyatlara



başladı, azərbaycanlıların yaşadıqları kənd və şəhərləri işğal etdi, yaşayış məntəqələrini yandırdı və mülki əhaliyə qarşı qəddarlıqla hərəkət etdi. Azərbaycan dövləti beynəlxalq təşkilatlara, o cümlədən BMT və ATƏM-ə müraciət edərək təcavüzün dayandırılmasını tələb etdi və münaqişənin sülh yolu ilə həlli üçün danışıqlara başladı.

Buna baxmayaraq, Ermənistan razılaşmaları pozaraq hücumlarını davam etdirdi və Qarabağda azərbaycanlı əhalinin yaşadığı bölgələr işğal edildi, əhali öldürüldü, didərgin salındı və girov götürüldü. Xarici vasitəçilik səylərinə baxmayaraq, xüsusilə Xocalı şəhərində törədilən qanlı hadisələr regionda vəziyyətin kritik olduğunu göstərdi və Azərbaycan üçün hərbi və diplomatik səylərin vacibliyini önə çıxardı.

### Xocalı odlu həlqədə

İşğalçı dövlət Xocalı faciəsinədək Azərbaycan ərazilərində bir sıra yaşayış məntəqələrində dinc əhaliyə qarşı zorakılıq və kütləvi qırğınlar törətmişdi. Bununla belə, Xocalıda baş verən hadisələr miqyası, məqsədi və nəticələri baxımından əvvəlki cinayətlərdən ciddi şəkildə fərqlənirdi.

Əvvəla, Xocalı yalnız adi bir yaşayış məntəqəsi deyildi. Bu ərazi dünya arxeologiya elmində Azərbaycan xalqının ən qədim yaşayış ocaqlarından biri kimi tanınır və Xocalı–Gədəbəy mədəniyyətinin əsas mərkəzlərindən hesab olunur. Beləliklə, Xocalının məhv edilməsi təkcə insanlara deyil, eyni zamanda, xalqın tarixi-mədəni irsinə qarşı yönəlmiş məqsədli hücum idi.

İkincisi, şəhərin coğrafi mövqeyi ona xüsusi hərbi-strateji əhəmiyyət qazandırırdı. Ağdam–Şuşa və Əsgəran–Xankəndi yollarının üzərində yerləşən Xocalı əsas nəqliyyat xətlərinə nəzarət etmək baxımından mühüm mövqedə idi. Bu şəhərin ələ keçirilməsi işğalçı tərəfə regiondakı hərəkət azadlığını artırmaq, ətraf ərazilərə hücumları asanlaşdırmaq və cinayət əhatəsini genişləndirmək imkanı verirdi.

Bundan əlavə, Xocalıda Qarabağ bölgəsində Azərbaycana məxsus yeganə hava limanının yerləşməsi şəhərin əhəmiyyətini daha da artırırdı. Hava limanının işğalı Ermənistanın bölgəyə silah, canlı qüvvə və hərbi texnika daşınmasını sürətləndirməsinə şərait yaradırdı.

Bütün bu amillər göstərir ki, Xocalının işğalı təsadüfi deyil, əvvəlcədən planlaşdırılmış strateji məqsədlərə xidmət edən addım idi. Şəhərin ələ keçirilməsi Ermənistanın hərbi üstünlüyünü gücləndirməklə yanaşı, azərbaycanlı əhaliyə qarşı qorxu yaratmaq və bölgədə etnik təmizləmə siyasətini həyata keçirmək üçün mühüm vasitə rolunu oynadı.

1991-ci ilin payızından etibarən Xocalı şəhəri Ermənistan silahlı birləşmələri tərəfindən tam mühasirəyə alındı. Şəhəri ətraf ərazilərlə birləşdirən bütün avtomobil yolları nəzarətə götürüldü və faktiki olaraq bağlandı. Belə şəraitdə əhali ilə əlaqə yalnız hava nəqliyyatı vasitəsilə mümkün idi. Lakin 1992-ci ilin yanvar ayından etibarən helikopter uçuşlarının da dayandırılması nəticəsində Xocalı tam informasiya və təminat blokadasına düşdü. Bu, şəhərdə ciddi humanitar böhranın yaranmasına səbəb oldu.

Həmin dövrdə Azərbaycan dövləti ağır sınaqlarla üz-üzə idi. Dövlət institutlarının zəifliyi, mərkəzi hakimiyyətin təsir imkanlarının məhdudluğu ölkənin hərbi-siyasi idarəetməsində ciddi boşluqlar yaratmışdı. Bununla yanaşı, davam edən müharibə, iqtisadi tənəzzül, sosial çətinliklər və cəmiyyətdə hökm sürən mənəvi-psixoloji gərginlik vəziyyəti daha da ağırlaşdırırdı. Məhz bu mürəkkəb şərait Xocalının müdafiəsiz qalmasına və mülki əhalinin təhlükə qarşısında tək buraxılmasına zəmin yaratdı.

### Qana susamış erməni toplumu

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində mühasirədə qalan mülki azərbaycanlı əhaliyə qarşı genişmiqyaslı hücum həyata keçirildi. Hücum Ermənistanın silahlı birləşmələri və Xankəndidə yerləşən keçmiş sovet ordusuna məxsus 366-cı hərbi alayın iştirakı ilə baş verdi. Təxminən 7 min nəfər əhalisi olan şəhər gecə saatlarında, sakinlər dinc halda olarkən üç istiqamətdən atəşə tutuldu.

Hücum zamanı şəhərin bir istiqamətinin qəsdən açıq saxlanılması təsadüfi deyildi. Bu, hücum edən tərəfin əvvəlcədən seçilmiş taktiki planının tərkib hissəsi idi. Məqsəd şəhərdən çıxmağa çalışan dinc sakinləri müəyyən istiqamətə yönəltmək və onları nəzarət altında daha asan hədəfə almaq idi. Əgər şəhər tam mühasirəyə alınsaydı, əhalinin müqavimət göstərmək ehtimalı və hücum edən tərəfin itkilər verməsi riski arta bilərdi. Bu səbəbdən mühasirə məqsədli şəkildə natamam saxlanılmışdı.

Faciənin nəticələri son dərəcə ağır olmuşdur: 613 nəfər qətlə yetirilmiş, 1275 nəfər əsir götürülmüş, 487 nəfər isə ağır xəsarətlər almışdır. Həlak olanlar arasında 63 nəfər azyaşlı uşağın olması bu cinayətin birbaşa mülki əhaliyə qarşı yönəldiyini açıq şəkildə sübut edir. 8 ailənin tamamilə məhv edilməsi, onlarla ailənin isə valideynsiz və ya övladsız qalması Xocalı faciəsinin uzunmüddətli sosial və demoqrafik fəsadlarını göstərir.

Baş verənlər təsadüfi hərbi əməliyyat deyil, azərbaycanlı əhaliyə qarşı planlı və məqsədli şəkildə həyata keçirilmiş soyqırımı aktı idi. Xocalıda insanlar yalnız milli və dini mənsubiyyətinə görə, yəni azərbaycanlı olduqları üçün hədəfə alınmışdılar. Hadisə zamanı dinc sakinlərə qarşı tətbiq edilən zorakılıq üsulları beynəlxalq humanitar hüququn norma və prinsiplərinin kobud şəkildə pozulduğunu ortaya qoyur.

Xocalı soyqırımı təkcə insan itkisi ilə deyil, eyni zamanda, bir xalqın təhlükəsizliyinə, kollektiv yaddaşına və mənəvi dəyərlərinə vurulan ağır zərbə ilə xarakterizə olunur. Bu faciə Azərbaycan cəmiyyətində dərin psixoloji izlər buraxmış, münaqişənin mahiyyətini və işğalçılıq siyasətinin əsl simasını bütün dünyaya nümayiş etdirmişdir.

Xocalı soyqırımı ilə Ermənistan rəhbərliyi öz işğalçılıq siyasətini həyata keçirmək üçün ən sərt və qeyri-insani vasitələrdən istifadə etməyə hazır olduğunu açıq şəkildə nümayiş etdirdi. Bu yanaşma sonradan Ermənistanın müdafiə naziri, daha sonra isə prezidenti olmuş Serj Sarkisyanın Böyük britaniyalı jurnalist Tomas de Vaala verdiyi müsahibədə dolayısı ilə etiraf edilirdi!

“Xocalıya qədər azərbaycanlılar belə düşünürdülər ki, ermənilər mülki əhaliyə əl qaldırmağa qadir deyillər. Biz bunu (stereotipi) qırdıq”. Lakin bu açıqlama reallığı tam əks etdirmirdi. Çünki Xocalı hadisəsindən əvvəl də Ermənistanın silahlı birləşmələri Malıbəyli, Quşçular və digər yaşayış məntəqələrində mülki azərbaycanlı əhaliyə qarşı zorakılıq və qırğınlar törətmişdilər. Bu faktlar göstərir ki, dinc əhaliyə qarşı qəddarlıq Xocalı ilə başlayan deyil, ardıcıl şəkildə həyata keçirilən siyasətin tərkib hissəsi idi.

Hadisələrdə iştirak etmiş şəxslərin sonradan yazdıqları xatirələrdə də Xocalı sakinlərinin təhlükəsizliyə çatmağa çalışarkən təqib olunduqları və onlara qarşı son dərəcə amansız davranıldığı qeyd olunur. Bu cür etiraflar Xocalıda baş verənlərin təsadüfi toqquşma deyil, məqsədli və planlı zorakılıq aktı olduğunu bir daha təsdiqləyir.

Xocalının işğalı nəticəsində şəhərdə yerləşən hava limanı Azərbaycanın nəzarətindən çıxmış, bununla da Ermənistan tərəfindən bölgəyə silah və silahlı qüvvələrin daşınması daha da intensivləşmişdir. Ermənistanın bu cür genişmiqyaslı hərbi əməliyyatlara cəsarət etməsində Rusiya rəhbərliyində və hərbi dairələrində olan müəyyən qrupların siyasi, hərbi və mənəvi dəstəyinin mühüm rol oynadığı qeyd olunur.

Şəhərdə törədilənlər Ermənistanın azərbaycanlılara qarşı həyata keçirdiyi etnik təmizləmə siyasətinin açıq təzahürü olmaqla yanaşı, beynəlxalq hüquq normalarına zidd, bəşəriyyətə və müasir sivilizasiyanın əsas dəyərlərinə qarşı yönəlmiş ağır cinayət kimi qiymətləndirilir. Bu faciə ilə bağlı ABŞ, Türkiyə və digər ölkələrin nüfuzlu mətbuat orqanlarında dərc olunan materiallarda azərbaycanlı mülki əhalinin kütləvi şəkildə məhv edilməsi faktları işıqlandırılmış, hadisələrin miqyasını əks etdirən foto və sənədli sübutlar təqdim olunmuşdur.

Xocalı qətliamının sarsıdıcı mənzərəsinin Azərbaycan ictimaiyyətindən gizlədilməsinə yönələn cəhdlər ölkədə onsuz da gərgin olan ictimai-siyasi vəziyyəti daha da kəskinləşdirdi. Cəmiyyətdə dərin narazılıq və etiraz dalğası yarandı, insanlar hakimiyyətdən Ermənistanın hərbi təcavüzünün qarşısını almaq üçün qətiyyətli və təsirli addımlar atmağı tələb edirdilər.

Lakin mövcud hakimiyyət cəmiyyətlə əlaqəsini xeyli dərəcədə itirmiş, siyasi irada və idarəetmə baxımından zəif durumda idi. Paytaxt Bakıda keçirilən mitinqlər getdikcə kütləviləşir, etiraz aksiyalarında hakimiyyətin istefası tələbi açıq şəkildə səsləndirilirdi. Artan ictimai təzyiqlər fonunda Azərbaycan Respublikası Ali Sovetinin sədri Elmira Qafarova vəzifəsindən istefa verdi və bu posta Yaqub Məmmədov seçildi.

Siyasi böhran bununla bitmədi. Qısa müddət sonra prezident Ayaz Mütəllibov da vəzifəsindən istefa vermək məcburiyyətində qaldı. 1992-ci ilin may ayında Şuşanın işğal olunması ölkədəki xaotik vəziyyəti daha da dərinləşdirdi. Bu hadisədən sonra Ayaz Mütəllibovun hakimiyyətə qayıtmaq cəhdinin qarşısı alındı.

Azərbaycan Xalq Cəbhəsinin hakimiyyətə gəlməsi ölkədə siyasi sabitliyi təmin etmək əvəzinə, idarəetmə böhranını daha da gücləndirdi. Dövlət strukturlarının fəaliyyəti iflic vəziyyətinə düşdü, ölkə dərin



siyasi qarşıdurma, xaos və anarxiya mərhələsinə qədəm qoydu. Bu dövr Azərbaycanın dövlətçilik tarixində ən mürəkkəb və ziddiyyətli mərhələlərdən biri kimi xarakterizə olunur.

### Xocalının ədalət harayı

Xocalı soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan dövlətinin məqsədyönlü və ardıcıl siyasəti həlledici rol oynamışdır. Xüsusilə Prezident İlham Əliyev tərəfindən həyata keçirilən və “hücum diplomatiyası” kimi xarakterizə olunan xarici siyasət kursu Xocalı həqiqətlərinin beynəlxalq platformalarda gündəmə gətirilməsini təmin etmişdir. Bu yanaşma informasiya mübarizəsində Azərbaycanın haqlı mövqeyinin fəal şəkildə müdafiə olunmasına imkan yaratmışdır.

Xocalı soyqırımının beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində Azərbaycanın dövlət qurumları, xaricdə yaşayan azərbaycanlılar, ictimai təşkilatlar və xüsusilə Heydər Əliyev Fondu böyük səylər göstərmişdir. 2008-ci ildən etibarən Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış “Xocalıya ədalət!” kampaniyası Xocalı soyqırımının beynəlxalq tanıdılması prosesində yeni mərhələnin əsasını qoymuşdur. Fondun təşəbbüsü ilə geniş vüsət almış “Xocalıya ədalət!” kampaniyası dünyanın müxtəlif ölkələrində təqdimatlar, sərgilər, kitab və məqalələrin nəşri, elmi və sənədli tədbirlər vasitəsilə faciənin miqyasını açıqlamışdır.

Bu fəaliyyətlərin nəticəsi olaraq 18 ölkə Xocalı hadisəsini soyqırımı aktı kimi tanımışdır. Lakin hələ də böyük dövlətlər və bir sıra beynəlxalq təşkilatlar hadisəyə biganə qalır, faciəni inkar edən qüvvələr isə ədalətin bərpasına mane olmağa çalışır. Azərbaycan dövləti və xalqı isə onilliklər ərzində haqlı olaraq bu qanlı cinayətin günahkarlarının cavab verməsini təmin etmək üçün davamlı səylər göstərmişdir. Xocalı şəhərində mülki azərbaycanlı əhaliyə qarşı törədilmiş kütləvi qırğından artıq 34 il ötür.

Bu gün Xocalı soyqırımı qurbanlarının xatirəsi tamamilə yeni siyasi və tarixi reallıq şəraitində yad edilir. 2023-cü il sentyabrın 19–20-də həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçı silahlı dəstələrin tərk-silah olunması ilə Azərbaycan Respublikası öz ərazi bütövlüyünü və dövlət suverenliyini tam bərpa etmişdir.

### Soyqırımının ibrət dərsləri

Xocalı soyqırımı qurbanlarının xatirəsi təkcə onların xatirəsini yad etmək üçün deyil, həm də bəşəri cinayətlərin bir daha təkrarlanmaması və gələcək nəsillər üçün ibrət dərslərinin öyrənilməsi məqsədilə anılır. Bu faciə göstərdi ki, soyqırımının qarşısının alınması üçün yalnız hüquqi və diplomatik tədbirlər kifayət deyil; ölkədə sabit idarəetmə, güclü dövlət institutları və milli birliyin möhkəmliyi əsas şərtdir.

O dövrdə Azərbaycanda sabit siyasi vəziyyət, güclü ordu, xalq və hakimiyyət arasında sıx əməkdaşlıq, dövlət rəhbərliyində qüdrətli və qərarlı liderin olmaması Xocalı faciəsinin baş verməsinə şərait yaratmışdır. Bu səbəbdən ölkəmizdə təbii sabitlik, güclü ordunun varlığı, hakimiyyət ilə xalq arasında möhkəm həmrəylik və dövlət rəhbərinin qətiyyətli siyasəti milli məqsədlərin əldə olunmasının və ölkənin təhlükəsizliyinin əsas sütunlarıdır.

44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycanın tarixi torpaqları işğaldan azad edilmiş, lokal xarakterli antiterror əməliyyatları isə ölkə ərazisində separatizmin və qanunsuz silahlı qruplaşmaların fəaliyyətinə son qoymuşdur. Hadisədə iştirak etmiş və cinayət törətmiş şəxslər müəyyən edilərək istintaq altına alınmış, layiqli cəzalarını almışlar.

Bu gün Xocalı şəhəri yenidən qurulur, genişmiqyaslı bərpa və quruculuq işləri aparılır. Azad edilmiş bütün ərazilərdə olduğu kimi, Xocalıda da həyatın dirçəldilməsi, infrastrukturun bərpası istiqamətində mühüm addımlar atılır. Məhz bu çərçivədə 2024-cü ildə təməli qoyulan Xocalı Soyqırımı Memorialının bu il fevralın 26-da açılışı xüsusi mənəvi və tarixi əhəmiyyət daşıyır. Memorial, günahsız qurbanların əziz xatirəsinin əbədiləşdirilməsi ilə yanaşı, törədilmiş cinayətin gələcək nəsillərin yaddaşında daim yaşadılmasına xidmət edir.

*Günel MUSAYEVA,*
*AMEA Tarix və Etnologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru*

# Milli rəqəmsal intibah

## Fəaliyyət planının ümummilli gözləntiləri

**Rəqəmsal inkişafı sürətləndirmək məqsədilə hazırlanan "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün FƏALİYYƏT PLANI" ölkədə müasir texnologiyaların tətbiqini genişləndirməyi hədəfləyir. Fəaliyyət Planı rəqəmsal transformasiyanın strateji əhəmiyyətini nəzərə alaraq dövlət idarəetməsi, infrastruktur, innovasiya ekosistemi və kibertəhlükəsizlik sahələrində prioritet tədbirlər müəyyən edir.**

Təsadüfi deyil ki, hələ 2024-cü ildə "Hökumət buludu" platformasının istifadəsi və "SİMA" biometrik imzanın tətbiqi nəticəsində Azərbaycanın Elektron Hökumət İnkişafı İndeksində uğurlu sıçrayış baş vermişdir. Bununla yanaşı, ölkəmiz Qlobal İnnovasiya İndeksində 94-cü yerdə qərarlaşıb. Bu həm də o deməkdir ki, innovasiya fəaliyyətini genişləndirmək və rəqəmsal sahədəki çatışmazlıqları aradan qaldırmaq vacibdir. Bu çərçivədə Fəaliyyət Planı vahid məlumat bazasının yaradılması, dövlət xidmətlərinin tam rəqəmsallaşdırılması, süni intellekt və kibertəhlükəsizlik sahəsində tədbirlərin görülməsini təmin etməyi nəzərdə tutur.



Xüsusi vurğulanmalıdır ki, Prezident İlham Əliyevin fərmanına uyğun olaraq Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurası yaradılıb və Birinci vitse-prezident Mehriban Əliyeva Şuranın sədri təyin edilib. Fərman Azərbaycan Respublikasında rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində prioritet istiqamətlərin müəyyənləşdirilməsi, milli texnoloji potensialın gücləndirilməsi, rəqəmsal suverenliyin möhkəmləndirilməsini şərtləndirir.

### Rəqəmsallaşma sahəsinin inkişafı və təkmilləşdirilməsi

Bu sahədə əsas məqsəd dövlət idarəetməsində kağızsız hökumətə keçid, məlumat axınının optimallaşdırılması və sistemlərin inteqrasiyasını təmin etməkdir. Plan dövlət resurslarının vahid platformada toplanması və "yalnız bir dəfə" prinsipi ilə idarə edilməsi üzərində qurulub. Əhalinin reyestri, daşınmaz əmlak, səhiyyə, təhsil və digər vahid reyestrlərin keyfiyyətinin artırılması, məlumatların vahid məlumat hövzəsinə inteqrasiyası. Bu, nazirliklərarası informasiya mübadiləsini sürətləndirəcək və resurslardan səmərəli istifadəyə imkan verəcək.

Dövlət orqanlarının daxili idarəetmə proseslərinin tam rəqəmsallaşdırılması və sənəd dövriyyəsinin elektron formada təşkili ("Kağızsız hökumət"), o cümlədən müvafiq portallar və mobil tətbiqlərdən istifadənin genişləndirilməsi. Beləliklə, vətəndaş və biznes subyektləri sənədləri bir dəfə təqdim edəcək, təkrar sənəd tələbləri aradan qaldırılacaq. Bununla yanaşı, müxtəlif dövlət xidmətlərinin iş axınlarının elektron formada yenidən qurulması, xidmət reqlamentlərinin hazırlanması və müvafiq xidmətlərin "MyGov" və "MyGov Biznes" platformaları vasitəsilə göstərilməsinin təmin edilməsi. Bu addımlar əlçatan xidmətlər yaratmağa xidmət edir. Bu tədbirlər nəticəsində dövlət strukturlarının qarşılıqlı əlaqəsi güclənəcək, bürokratik maneələr azalacaq və büdcə xərcləri optimallaşdırılacaq. Beləliklə, "rəqəmsal keçid" milli inkişafı dəstəkləyərək e-xidmətlərin keyfiyyətini və şəffaflığını artıracaqdır.

### İnnovasiya fəaliyyətinin genişləndirilməsi

Planın ikinci əsas istiqaməti innovasiya ekosisteminin inkişafıdır. Məqsəd texnoparklar, startaplar və maliyyə alətləri vasitəsilə ölkədə innovativ məhsul və xidmətlərin sayını artırmaqdır. Vençur kapital fondları, kraudfandinq və "mələk investor" sistemlərinin hüquqi tənzimlənməsi təmin mümkün olarsa dolğun maliyyə axını təmin olunacaqdır. Bu, həm də yerli startaplara investisiya axınını artıracaq. Mərkəzi Bankın rəqəmsal valyuta platforması da maliyyə əməliyyatlarının effektivliyini yüksəltmək üçün tətbiq olunacaq.

Həmçinin, innovativ layihələrə ixtisaslı kadrların cəlbini asanlaşdırmaq məqsədilə "Rəqəmsal səyyah" (digital nomad) və "Rəqəmsal istedad" vizaları tətbiq ediləcək. Xarici təcrübəli mütəxəssislər və onların ailə üzvləri üçün miqrasiya prosedurları sadələşdiriləcək.

Ali təhsil müəssisələri və müəssisələr arasında elmi-tədqiqat əməkdaşlığı gücləndiriləcək, texnoloji layihələrə qrant dəstəyi artırılacaq. Xarici İKT şirkətləri və azərbaycanlı diasporu ölkəyə cəlb olunacaq, startap ekosisteminə sərmayə qoyuluşunu həyata keçirən yeni "Fondlar Fondu" yaradılacaq.

### Süni intellekt texnologiyalarının tətbiqi

Süni intellekt (Sİ) sahəsində fəaliyyətin gücləndirilməsi üçün infrastrukturun və insan resurslarının inkişafı nəzərdə tutulur. Məqsəd Sİ-nin bütün sahələrdə (təhsil, səhiyyə, nəqliyyat və s.) tətbiqini genişləndirməkdir. Sİ layihələrinə dövlət investisiyasının stimullaşdırılması üçün vergi, gömrük və sosial sığorta güzəştləri tətbiq olunacaq. Bununla yanaşı, yüksək hesablama güclərinə malik superkompüter mərkəzlərinin yaradılması nəzərdə tutulur (məsələn, milli GPU əsaslı Mərkəz). Dövlət vəsaiti ilə bu infrastruktur təmin ediləcək, startaplar və tədqiqatçılar üçün istifadəyə kvota ayrılacaq.

Azərbaycan dilində böyük dil modellərinin hazırlanması dəstəklənəcək, təbii dil emalı texnologiyalarından istifadə ilə dövlət xidmətlərində Sİ əsaslı virtual köməkçilər tətbiq ediləcək. Bu, yerli Sİ həllərinin sürətlə yayılmasına imkan verəcək. Həm yerli, həm də xarici ixtisaslı Sİ mütəxəssisləri dövlət və özəl sektora cəlb etmək üçün addımlar atılacaq (məsələn, "Sİ indeksi"nə əsasən sənaye-planlarda hədəflərin müəyyənləşdirilməsi, ali təhsil proqramlarının yenilənməsi). Həmçinin, Sİ-nin etik və təhlükəsizlik aspektləri üzrə normativ bazanın hazırlanması planlaşdırılır.

### Kibertəhlükəsizlik əsas şərt kimi

Rəqəmsallaşmanın dərinləşməsi kiberhücum risklərini də artırdığı üçün plan kibertəhlükəsizlik sahəsinə xüsusi önəm verir. Burada əsas vəzifə kritik informasiya infrastrukturunun qorunmasıdır. Ölkə üzrə kiberhücumlara qarşı dayanıqlı müdafiə yaratmaq üçün mərkəzi koordinasiya mərkəzi və vahid kibertəhlükəsizlik platforması qurulacaq. Həmçinin kiberrisklərin idarə edilməsi mexanizmi formalaşdırılacaq. Həmçinin, internetdə qanunsuz məzmunun yayılmasını nəzarətə götürmək üçün süni intellekt vasitələrindən istifadə ediləcək.

Əlbəttə ki, bu kimi aktlar mövcud baza olmadan mümkün deyil. Bunun üçün, kiberhüququn yenilənməsi ilə hüquqi aktlar təkmilləşdiriləcək, kibertəhlükəsizlik siyasətinin əsasları düzgün müəyyən ediləcək. Dövlət orqanlarında kibertəhlükəsizlik üzrə kadrların sertifikatlaşdırılması və təlimi həyata keçirilməsi, əhaliyə kibersavadlıq təhsili verilməsi, ali və peşə təhsil müəssisələrində İKT və informasiya təhlükəsizliyi üzrə tədris proqramlarının müasir tələblərə uyğunlaşdırılması da fəaliyyət planın tərkib hissəsidir.

Qeyd edək ki, Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün fəaliyyət planı haqqında **İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin İdarə Heyətinin sədrinin müavini Şahin Əliyev XQ-yə eksklüziv açıqlamasında bildirdi ki,** Fəaliyyət planı Azərbaycanın regionda rəqəmsal və texnoloji inkişaf sahəsində lider mövqeyə yüksəlməsinə imkan yaradır: "11 fevral 2026-cı il tarixində cənab Prezidentin rəhbərliyi ilə keçirilmiş müşavirənin davamı olaraq, Azərbaycanda rəqəmsal inkişafın sürətləndirilməsinə dair Fəaliyyət Planı cənab Prezidentin müvafiq sərəncamı ilə təsdiq edilmişdir. Bu sərəncamın imzalanması bir daha göstərir ki, rəqəmsal inkişaf ölkə üçün prioritet istiqamətlərdən biridir. Fəaliyyət planı çərçivəsində rəqəmsal inkişaf, süni intellekt, kibertəhlükəsizlik və innovasiya sahələri kompleks şəkildə əhatə olunur.

Sənəddə dövlət xidmətlərinin tam rəqəmsallaşdırılması, onların həyat hadisələri prinsipi əsasında sadələşdirilmiş formada istifadəçilərə təqdim edilməsi, data əsaslı qərar qəbuletmə mexanizmlərini təmin edən infrastrukturun formalaşdırılması nəzərdə tutulur. Eyni zamanda, dövlət qurumlarında və ümumilikdə cəmiyyət üzrə rəqəmsal savadlılığın artırılması istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi planlaşdırılır".

O qeyd edib ki, innovasiya sahəsində ekosistemin sürətli inkişafı, xarici şirkətlərin və yüksək ixtisaslı mütəxəssislərin ölkəyə cəlb edilməsi, süni intellekt üzrə güclü infrastrukturun yaradılması və milli texnoloji həllərin hazırlanması əsas hədəflərdəndir:

"Bütün bunların nəticəsində Azərbaycanın rəqəmsal mühitdə suverenliyinin gücləndirilməsi və təmin olunması məqsəd qoyulub. Eyni zamanda, ölkənin rəqəmsal mühitinin təhlükəsizliyinin təmin edilməsi üçün kibertəhlükəsizlik sahəsində zəruri tədbirlərin icrası nəzərdə tutulur. Bu tədbirlərin həyata keçirilməsi Azərbaycanın regionda rəqəmsal və texnoloji inkişaf sahəsində lider mövqeyə yüksəlməsinə imkan verə bilər. Planın əsas məqsədlərindən biri də ölkənin qlobal reytinqlərdə mövqeyinin yaxşılaşdırılması və beynəlxalq indekslərdə daha yüksək pillələrə yüksəlməsidir.

Təhsil sahəsi də sənəddə xüsusi yer tutur. Ali təhsil müəssisələrində innovativ yanaşmaların tətbiqi, tələbələrin müasir texnoloji bacarıqlarla hazırlanması və keyfiyyətli kadr potensialının formalaşdırılması prioritet istiqamətlər sırasındadır".

Sədr müavini, eyni zamanda, bildirib ki, təhsil sahəsi də sənəddə xüsusi yer tutur": "Ali təhsil müəssisələrində innovativ yanaşmaların tətbiqi, tələbələrin müasir texnoloji bacarıqlarla hazırlanması və keyfiyyətli kadr potensialının formalaşdırılması prioritet istiqamətlər sırasındadır. "mygov" vahid rəqəmsal platforma funksiyasını yerinə yetirəcək. Dövlət xidmətləri – istər vətəndaşlar, istərsə də biznes subyektləri üçün nəzərdə tutulan xidmətlər – vahid arxitektura əsasında məhz bu platforma üzərindən təqdim ediləcək. Xidmətlərin daha sadə, əlçatan və istifadəçiyönümlü formada təşkili əsas məqsədlərdən biridir.

Bundan əlavə, süni intellektin dövlət xidmətlərinə inteqrasiyası nəzərdə tutulur. Vahid arxitektura əsasında həyata keçiriləcək bu prosesə nəzarət müvafiq fərmanla yaradılmış Şura tərəfindən təmin olunacaq. Şuraya rəhbərliyi isə ölkənin Birinci vitse-prezidenti həyata keçirəcək".

Ümumilikdə, təsdiq edilmiş Fəaliyyət Planı Azərbaycanın rəqəmsal transformasiya prosesini sürətləndirməyə, innovasiya əsaslı inkişaf modelini gücləndirməyə və ölkənin beynəlxalq rəqabət qabiliyyətini artırmağa yönəlib.



***Nurlan ABDALOV***
***XQ***

### Ekspert rəyi



**Fərid KAZIMOV,**
**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi İctimai Şurasının üzvü**

Azərbaycanda innovasiya istiqamətində kifayət qədər güclü əsaslar mövcuddur. Ümumilikdə, ölkədə idarəçilik sistemində innovativ yanaşmalara ənənəvi olaraq xüsusi diqqət yetirilib. Qlobal təcrübəyə nəzər salsaq, məsələn, "MyGov" platforması və bu platforma vasitəsilə əhaliyə və digər subyektlərə təqdim olunan xidmətlər qabaqcıl təcrübə kimi qiymətləndirilə bilər. Bu modeli şərti olaraq "Rəqəmsal hökumət 2.0" adlandırmaq mümkündür. Burada əsas prinsip vətəndaşyönümlü yanaşmadır.

Bu çərçivədə qanunvericiliyin təkmilləşdirilməsi nəzərdə tutulur. Xüsusilə innovasiya sahəsinə investisiyaların cəlbi üçün mövcud hüquqi bazada müəyyən boşluqlar aradan qaldırılacaq. İnnovasiya investisiyaları əsasən vençur (riskli) investisiyalar hesab olunur və bu sahə xüsusi tənzimləmə mexanizmi tələb edir. Yeni fəaliyyət planına uyğun olaraq vençur fondlarının yaradılması və bu istiqamətdə qanunvericilik təşəbbüsləri artıq hazırlanıb.

Digər mühüm istiqamət xarici investorların, xaricdə fəaliyyət göstərən şirkətlərin və rəqəmsal köçərilərin (digital nomads) Azərbaycana cəlb edilməsidir. Dünyada bir çox proqramçılar və kiçik rəqəmsal biznes qurucuları vergi və biznes mühiti baxımından əlverişli şərait təklif edən ölkələrə üstünlük verirlər.

Eyni zamanda, Fəaliyyat Planı çərçivəsində ölkə daxilində startaplara sistemli dəstək mexanizmləri yaradılacaq. Xüsusilə ali təhsil müəssisələrində startap klasterlərinin formalaşdırılması planlaşdırılır. Bu klasterlər çərçivəsində tələbələr və universitet alimləri tərəfindən innovativ layihələrin və startapların yaradılmasına şərait yaradılacaq.

Bu siyasətin nəticəsi olaraq gələcəkdə ölkədə "Unicorn" – yəni bazar dəyəri 1 milyard ABŞ dollarından artıq olan startapların yaranması üçün real zəmin formalaşa bilər. Azərbaycanda Yüksək Texnologiyalar Parkının rezidentləri üçün mövcud vergi güzəştləri və stimullaşdırıcı mexanizmlər də bu prosesə töhfə verir. Hazırda 160-dan artıq şirkət parkın rezidentidir və dövlət tərəfindən müəyyən güzəştlərdən yararlanır. Bu isə onların böyüməsinə və xarici bazarlara çıxış imkanlarının genişlənməsinə şərait yaradır. Hazırda innovativ məhsulların ixrac həcmi təxminən 200 milyon ABŞ dolları təşkil edir və 30-dan artıq ölkəyə ixrac həyata keçirilir. Mövcud potensial nəzərə alınarsa, yaxın illərdə bu göstəricinin 1 milyard dollara çatması real görünür.

Strategiyada "sandbox" mexanizminin tətbiqi də nəzərdə tutulur. Bununla yanaşı, B2G (Business to Government) modelində yerli startapların dövlət qurumları üçün həllər təqdim etməsi onların ilkin bazar qazanmasına və sonradan qlobal bazara çıxışına mühüm dəstək olacaq.

Süni intellektin tətbiqi isə artıq seçim deyil, zərurətdir. Müasir rəqəmsal məhsulların rəqabətqabiliyyətli olması üçün süni intellekt elementlərinin inteqrasiyası vacibdir. Əks halda, məhsulun bazar dəyəri və effektivliyi azalır. Yaxın illərdə minimal sayda əməkdaşla, lakin yüksək bazar dəyərinə malik şirkət modellərinin yaranacağı proqnozlaşdırılır. Bu isə süni intellektin biznes proseslərində geniş tətbiqi ilə bağlıdır.

# "Moody's"nin Azərbaycan nikbinliyi

## İqtisadi-maliyyə göstəriciləri yaxşılaşacaq

**"Moody's" beynəlxalq reytinq agentliyi Azərbaycanın ümumi daxili məhsulunun (ÜDM) real artımının 2024-cü ildəki 4,1 faiz və 2025-ci ildəki 1,5 faizə qarşı 2026-2027-ci illərdə 2,5-3 faiz təşkil edəcəyini gözləyir. Agentliyin "Azərbaycan bank sisteminin perspektivləri" hesabatına istinadən xəbər verir ki, sürətlənmə qeyri-neft sektorunun dayanıqlı dinamikası ilə təmin ediləcək, bank əməliyyatlarının əsas hissəsi də bu sektorun payına düşür.**

"Bu isə öz növbəsində kreditləşmənin artımını, bank aktivlərin keyfiyyətinin qorunmasını və sektorunun mənfəətliliyini dəstəkləyəcək", - hesabatda bildirilib.

"Moody's" qeyd edir ki, nəqliyyat-logistika sektorunda gücün və fəallığın genişlənməsi, o cümlədən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafı, Qarabağ və Şərqi Zəngəzur regionlarında bərpa işləri, həmçinin bərpa olunan enerji sahəsində layihələrin həyata keçirilməsi iqtisadiyyata əlavə dəstək verəcək.

Hesabatda bildirilir ki, sonuncular artıq külək və günəş elektrik stansiyalarına xarici investisiyalar cəlb edib. Bundan başqa, agentliyin Azərbaycanın bank sisteminə dair hesabatında vurğulanıb ki, dövlət dəstəyi və qeyri-neft sektorunun artımı Azərbaycan banklarının mövqeyini gücləndirir.

"Moody's"nin qiymətləndirməsinə görə, ölkədə iqtisadi şəraitin sabit qalması və dövlətin bank sektoruna dəstəyinin davam etməsi növbəti 12–18 ay ərzində bankların maliyyə göstəricilərini dəstəkləyəcək. Bu dövrdə bankların aktivlərinin keyfiyyətinin və gəlirliliyinin qorunacağı gözlənilir.

Agentlik qeyd edir ki, əhalinin gəlirlərinin artması və bankların əsas fəaliyyət sahəsi olan qeyri-neft sektorunun genişlənməsi kreditlərin artmasına və bankların maliyyə dayanıqlığının güclənməsinə şərait yaradacaq. Bankların mövcud kapital ehtiyatlarının kifayət qədər yüksək olması onların mümkün riskləri qarşılamaq imkanlarını da artırır.

Hesabatda vurğulanır ki, Azərbaycan hökumətinin, xüsusilə iri banklara dəstək göstərmək imkanları güclü olaraq qalır. Agentlik bildirir ki, ölkənin suveren kredit reytinqi üzrə müsbət proqnoz bank sektoruna etimadı artıran amillərdən biridir.




Agentliyin məlumatına görə, 2025-ci ilin dekabrına Azərbaycan Dövlət Neft Fondu və Mərkəzi Bankın ümumi ehtiyatları ÜDM-in 108 faizini ötüb. Bu, hökumətə iqtisadiyyatı və bank sektorunu dəstəkləmək üçün geniş maliyyə imkanları yaradır. Bank sektorunun ümumi aktivləri isə ÜDM-in təxminən 44 faizinə bərabərdir.

***XQ***

I Türkoloji Qurultay

# “I Türkoloji Qurultayın qurucuları və dərsləri: tarix və müasirlik”

## *AMEA-da tarixi Bakı məclisinin 1 əsrlik yubileyinə həsr edilmiş beynəlxalq konfrans*













**Fevralın 27-də AMEA Rəyasət Heyətində I Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş “I Türkoloji Qurultayın qurucuları və dərsləri: tarix və müasirlik” mövzusunda beynəlxalq elmi konfrans öz işinə başlayıb.**

Elmi məclisin iştirakçılarını təmsil edən nüfuzlu heyət əvvəlcə Fəxri xiyabanda görkəmli dövlət xadimi, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu ulu öndər Heydər Əliyevin məzarını ziyarət və xatirəsini ehtirama yad edib, xalqımızın Ümummilli liderinin abidəsi önünə gül dəstələri düzüb. Ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə güllər qoyulub.

Şəhidlər xiyabanında Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi də yad edilib. Xiyabandakı “Türk şəhidliyi”ndə isə 1918-ci ilin yayında Bakını daşnak-bolşevik zülmündə xilas edərkən qəhrəmanlıqla həlak olmuş qeyrətli türk zabit və əsgərlərinin xatirəsinə ucaldılmış abidə ziyarət edilib.

1 əsr əvvəl bu gün Bakı qurultayının keçirildiyi tarixi “İsmailiyyə” binasında yerləşən Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin yerləşdiyi ünvanda təşkil edilmiş açılış mərasimindən əvvəl Türk dünyasından dəvət edilmiş rəsmi və türkoloji qurumları təmsil edən qonaqlar və çoxsaylı yerli iştirakçılar girişdə, böyük iclas salonunun qarşısında Birinci Türkoloji Qurultaya həsr olunmuş məlumat bazası, virtual sərgi, eləcə də akademiyanın yubileylə bağlı nəşr etdirdiyi kitablarla tanış olublar.

Konfransın ümumi iclası I Türkoloji Qurultayın təşkilində yaxından iştirak etmiş Türk dünyasının görkəmli şəxsiyyətlərinin xatirəsinin anılması ilə başlayıb.

Mərasimdə geniş açılış nitqi söyləyən AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli açaraq iştirakçıları salamlayıb, 1 əsr əvvəl Bakıda təşkil edilmiş ilk türkoloji qurultayın yubileyinin ölkəmizdə təntənə ilə qeyd edilməsinin tarixi hadisə olduğunu vurğulayıb. Akademik bildirib ki, 1926-cı ildə AMEA-da məhz bu tarixi salonda keçirilmiş 10 günlük elmi məclis XX əsrdə türk xalqlarının, eləcə də Azərbaycan xalqının mədəni həyatında əzəmətli və olduqca önəmli hadisə olub. Qurultayda türk xalqlarının dili, tarixi, ədəbiyyatı, əlifbası, etnoqrafiyası və mədəniyyəti ilə bağlı gələcəyə yönəlmiş mühüm qərarlar qəbul edilib, Türk dünyasının tanınmış alim və ziyalıları bir araya gəlib.

Tarixi Bakı qurultayının türkologiya elminin əsas istiqamətlərini müəyyənləşdirdiyini xatırladan AMEA rəhbəri bu mötəbər məclisdə mürəkkəb siyasi və böyük tarixi nailiyyə, olduğunu söyləyib. Alim qeyd edib ki, qurultayın elmi irsi bu gün də öz aktuallığını qoruyub saxlayır. Akademik Bakı şəhərinin XIX əsrin sonlarından Türk dünyasında elmi-mədəni inkişafın mərkəzlərindən biri olduğunu, Azərbaycanın zəngin elmi və mədəni potensialının region üçün önəmli nümunə təşkil etdiyini vurğulayıb. O, müstəqillikdən sonra Azərbaycanın latın qrafikasına keçidi rəsmi şəkildə həyata keçirən ilk türk dövlətlərindən biri olduğunu xatırladıb.

AMEA prezidenti bildirib ki, 11 sentyabr 2024-cü il tarixində Bakıda Beynəlxalq Türk Akademiyası və Türk Dil Qurumu tərəfindən keçirilmiş “Türk Dünyası Ortaq Əlifba Komissiyası”nın üçüncü iclasında 34 hərfdən ibarət Ortaq Türk Əlifbası üzrə ümumi razılıq əldə edilib. Bu, Türk dünyasında ortaq mədəni və elmi məkanın formalaşması baxımından mühüm addım hesab olunur.

Akademik İsa Həbibbəyli Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı I Türkoloji Qurultayın 90 və 100 illik yubileylərinin keçirilməsi haqqında sərəncamların Türk dünyası alim və mütəfəkkirlərinə göstərilən yüksək diqqət və ehtiramın





nümunəsi olduğunu diqqətə çatdıraraq bu təşəbbüslərin Türk dünyasında elmi-mədəni əməkdaşlığın, birliyin və həmrəyliyin möhkəmlənməsinə xidmət etdiyini vurğulayıb.

AMEA rəhbəri konfransda təqdim ediləcək məruzələrin türkologiya elminin inkişafına təkan verəcəyini, elmi əlaqələrin güclənməsinə imkan yaradacağını bildirib, əldə olunan nəticələrin həm ölkədə, həm də beynəlxalq səviyyədə sülh və qardaşlığın möhkəmlənməsinə töhfə verəcəyinə əmin olduğunu söyləyib.

Sonra çıxış edən Türkiyənin Yunus Əmrə İnstitutunun prezidenti, professor Abdurrahman Aliy Birinci Türkoloji Qurultayı ortaq zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mədəni inteqrasiyasında mərhələ yaratmış mühüm hadisə kimi dəyərləndirib. O, qurultayın vaxtilə irəli sürdüyü bir çox ideyaların müasir şəraitdə uğurla gerçəkləşdiyini söyləyib.

Professor Abdurrahman Aliy bildirib ki, türk dilinin beynəlxalq miqyasda yayılması, ortaq mədəni irsin qorunması və elmi fəaliyyətlərin dəstəklənməsi əsas prioritetlərdəndir. O, Yunus Əmrə İnstitutunun türkologiyanı, sadəcə, bir elm sahəsi kimi deyil, tarixi irsi, mədəni qarşılıqlı təsiri, diplomatik baxışı, dil və təhsil siyasətlərini əhatə edən, çoxşaxəli və strateji bir istiqamət kimi qiymətləndirdiyini söyləyib. Alim vurğulayıb ki, ortaq məqsədlər ətrafında birləşmiş türkologiya camiəsi beynəlxalq müstəvidə daha güclü və təsirli mövqe formalaşdıra bilər.

İnstitut rəhbəri qeyd edib ki, qurultayın 100 illik yubileyi türk aləminin intellektual irsinin yenidən qiymətləndirilməsi, Türkologiyanın aktual məsələlərinin müzakirəsi və elmi əməkdaşlıq imkanlarının genişləndirilməsi baxımından əhəmiyyətlidir.

Sonra I Türkoloji Qurultaya həsr olunan film nümayiş etdirilib.

Mərasimin davamında Azərbaycanın mədəniyyət nazirinin müavini Fərid Cəfərov XX əsrin əvvəllərinin türk xalqları üçün mürəkkəb və taleyüklü bir mərhələ kimi yadda qaldığını deyib. O bildirib ki, I Türkoloji Qurultay böyük intellektual platforma kimi çıxış edərək, dil, əlifba, maarifçilik və mədəni irs məsələlərini sistemli şəkildə gündəmə gətirib.

Nazir müavini Türk dünyasında mədəni inteqrasiya ideyasının elmi əsaslarla müzakirəyə çıxarılmasının müasir dövrdə də aktuallığını qoruyub saxladığını, Prezident İlham Əliyevin bu istiqaməti mədəni siyasətin prioritetlərindən biri kimi ardıcıl şəkildə dəstəklədiyini söyləyib. Fərid Cəfərov vurğulayıb ki, qloballaşma, yeni çağırışlar, rəqəmsallaşma və süni intellektin sürətli inkişafı mədəniyyət anlayışına da yeni məzmun qazandırıb. Bu şəraitdə milli-mənəvi dəyərlərin qorunaraq yeni rəqəmsal mühitə uyğunlaşdırılması son dərəcə vacibdir.

Türkiyənin mədəniyyət və turizm nazirinin müavini Serdar Çam, Türkiyə milli təhsil nazirinin müavini, dosent Cəlilə Örən Öktən, Azərbaycanın Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova, Türkiyənin ölkəmizdəki səfiri, professor Birol Akgün, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, Türkiyə millət vəkili, AK Partiya sədrinin müavini, Türk Dövlətləri ilə əlaqələr üzrə sədr, professor Kürşat Zorlu, Atatürk Kültür, Dil, Tarix Yüksək Qurumunun prezidenti, professor Dərya Örs, Beynəlxalq Türk Akademiyasının prezidenti, akademik Şahin Mustafayev, Türk Dil Qurumunun rəhbəri, professor Osman Mert, Xalq şairi Sabir Rüstəmxanlı I Türkoloji Qurultayın qərarlarının tarixi önəmindən və gələcəyə yönəlik ideyalarının gerçəkləşdirilməsi ilə bağlı qarşıda duran ümumi vəzifələrdən, ortaq hədəflərdən söz açıblar. Onlar Bakıda keçirilən yubiley konfransının ortaq türk mədəni irsinin araşdırılmasına növbəti töhfə olduğunu qeyd ediblər.

Məclisdə Türk Mədəniyyəti Araşdırma İnstitutunun direktoru, professor Əhmət Bican Ərcilasun “Türkologiyanın strateji əsasları qurultay miqyasında”, Azərbaycan Atatürk Mərkəzinin rəhbəri, akademik Nizami Cəfərov “I Türkoloji Qurultayda Azərbaycan” və Azərbaycan Dillər Universitetinin professoru Adil Babayev “I Türkoloji Qurultay iştirakçılarının aqibəti və şərəfi” mövzusunda məruzə ediblər.

Natiqlər I Türkoloji Qurultayın tarixi əhəmiyyətini, ideya əsaslarını və təşkilatçılarının elmi irsini müasir elmi yanaşmalar kontekstində təhlil etmək baxımından beynəlxalq konfransın önəmini vurğulayaraq bildiriblər ki, bu elmi məclis Türk dünyasının intellektual birliyini möhkəmləndirən, elmi dialoqu dərinləşdirən və yeni tədqiqatlara yol açan mühüm platformadır.

Yubiley konfransı panel iclaslarla davam edib. Azərbaycanla yanaşı, Türkiyə, Özbəkistan, Qazaxıstan, Türkmənistan, Qırğızıstan, Şimali Kipr Türk Cümhuriyyəti və başqa ölkələrdən gəlmiş tanınmış elm adamlarının məruzələri dinlənilib.

Konfransın proqramına uyğunolaraq “I Türkoloji Qurultayın çağırılmasının tarixi və ictimai zərurəti”, “Qurultayın təşkilatçıları və aparıcı simalarının türkologiya elminə töhfələri”, “Qurultay qərarlarının türk xalqlarının elmi və mədəni inkişafına təsiri”, “Türk dillərinin tədqiqi, əlifba və terminologiya məsələləri, metodoloji yanaşmalar, “Qurultay ideyalarının sovet dövründə və sonrakı mərhələlərdə inkişaf dinamikası”, “Müstəqillik dövründə türkologiyanın qarşısında duran çağırışlar”, “Qlobal elmi mühitdə türkoloji araşdırmaların perspektivləri” və “Qurultayın az araşdırılmış pərdəarxası məqamları” istiqamətləri üzrə müzakirələr aparılıb.

Dilçilər, tarixçilər, etnoqraflar, ədəbiyyatşünaslar və mədəniyyət tədqiqatçıları türkologiya elminin aktual problemlərini müxtəlif elmi məktəblərin baxış bucağından təqdim ediblər.

Beynəlxalq elmi konfransın iştirakçıları bu gün Xəzər Universitetində I Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş simpoziumda da iştirak edəcəklər.

***Tahir AYDINOĞLU***
***XQ***

# Bakı türkologiyanın qızıl səhifəsini öyünc və ehtiramla yad edir

***Xalq şairi Sabir Rüstəmxanlı XQ-yə açıqlamasında I Türkoloji Qurultayın gündəliyinə daxil edilmiş yüksək elmi əhəmiyyət daşıyan məsələlərin bu gün də aktuallığını qoruyub saxladığını söylədi:***



– Tarixi önəm daşıyan həmin məsələlərin bir qismi hələ tam şəkildə araşdırılmadığından, bu sahədə sistemli tədqiqatların aparılmasına, əməkdaşlığın daha da inkişaf etdirilməsinə ehtiyac var. Müəyyən dövrlərdə türk xalqları ilə bağlı izlərin silinməsi, mühüm faktların təhrif olunması məqsədilə çoxsaylı kitablar yandırılıb, etnonim və toponimlər dəyişdirilərək başqa adlarla əvəz olunub.

Türkologiyanın qarşısında duran əsas vəzifələrdən biri də Türk dünyası ilə bağlı kompleks şəkildə araşdırmaların aparılmasıdır. Ortaq elmi-mədəni platformanın formalaşdırılması, eləcə də simvolik məna daşıyan ortaq kitabların hazırlanması ideyası mühüm istiqamətlərdəndir.

Türk dünyasının coğrafi və mədəni sərhədləri son dərəcə genişdir və dünya sivilizasiyasının ayrılmaz tərkib hissəsi kimi qiymətləndirilir. Türk dünyasının tarixinin sistemli şəkildə tədqiq edilməsi müvafiq elmi müəssisə və təşkilatların qarşısında duran mühüm vəzifələrdəndir. Bu istiqamətdə bütün səyləri birləşdirməli, ortaq tədqiqatlar aparmalı, türk dünyasının elmi-mədəni irsinin qoruyub inkişaf etdirməsi istiqamətində birgə fəaliyyəti gücləndirməliyik.

Onu da qeyd edim ki, Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş bu mühüm tədbir həm dərin kədər, həm də sevinc hissi ilə müşayiət olunur. Kədər onunla bağlıdır ki, qurultayın iştirakçılarının böyük əksəriyyəti təxminən 10 il sonra, 1937-ci il repressiyalarının qurbanı olublar. Sevinc isə bu gün həmin ideyaların yaşaması və Türk dünyasının nümayəndələrinin yenidən bir araya gələrək elmi və mədəni dialoq aparması ilə bağlıdır.

***Özbəkistan Elmlər Akademiyasının vitse-prezidenti, professor Bahrom Abdukhalimov isə bildirdi ki, 1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultay türk xalqlarının elmi və mədəni birliyi, ortaq milli-mənəvi dəyərlərin inkişafı və inteqrasiya proseslərinin dərinləşməsi üçün geniş üfüqlər açan ictimai müzakirə olub:***



– Bakı Türkoloji Qurultayı XX əsrin əvvəllərində türkologiya elmi və mədəni mühitdə aktual məsələlərə toxunub. Orada təqdim olunmuş məruzələrdə humanitar, sosial elmlər və türkologiyanın aktual məsələlərini əks etdirib və konkret təkliflər irəli sürüb. Sovet İttifaqında yaşayan türkdilli xalqların nümayəndələrinin, eləcə də Avropa, Türkiyə və İrandan olan türkoloqların iştirakı qurultayın əhatə dairəsini və miqyasını əyani şəkildə göstərir.

Yerli ziyalıların Türkoloji Qurultayı ölkədə təkcə dilçilikdə deyil, həm də ədəbiyyat, tarix, mədəniyyət, folklor, etnoqrafiya və təhsildə əsas elmi və yaradıcı qüvvələrin yaranmasına və inkişafına dəlalət edir. Bugünkü beynəlxalq elmi konfrans isə türk xalqlarının möhkəm təməllər üzərində qurulmuş elmi-mədəni birliyinin daha da inkişaf etdirilməsinə mühüm töhfə verəcək.

***Qazaxıstan Respublikası Təhsil və Elm Nazirliyinin Elm Komitəsinin M.O.Auezov adına Ədəbiyyat və İncəsənət İnstitutunun elmi işlər üzrə direktor müavini, professor Almira Kaliyeva söylədi ki, aradan keçən 1 əsr tarixi Bakı məclisinin ideyalarının aktuallığını itirmədiyini, əksinə, həmin ideyaların XXI əsrdə yenidən canlandığını açıq şəkildə göstərdi:***



– 1926-cı il tədbirinin iştirakçıları vahid elmi platforma arzusunda olsalar da, müasir texnologiyalar, vahid rəqəmsal korpuslar, yazılı abidələrin kodlaşdırılması, müasir reyestrlər, verilənlər bazaları və beynəlxalq tədqiqat şəbəkələri bu arzunu bir infrastruktura çevirməyə imkan verir. Beləliklə, Bakıdakı konfrans tarixi yaddaşdan praktik, texnoloji cəhətdən dəstəklənən elmi qarşılıqlı təsir mexanizmlərinə keçidi rəmzləşdirir.

Bugünkü elmi konfrans çərçivəsində Qazaxıstanın bütün Türk dünyası ilə dialoqu xüsusi əhəmiyyət kəsb edir. Hər bir ölkə türk intellektual məkanının vacib bir nöqtəsidir və hər biri öz akademik ənənəsinə əsaslanır. Qazaxıstanda bu ənənə Əhməd Baytursunov və Kudaybergen Jubanovdan Mırzatay Joldasbekova, Alma Kyraubayeva və Karjaubai Sartkojaulıya qədər inkişaf edib.

Azərbaycanda isə bu ənənə Bakı məktəbinin klassiklərindən müasir tədqiqat mərkəzlərinə qədər uzanır. Bu xətləri birləşdirərək konfrans tarixi davamlılığın müasir elmi dinamika ilə qarşılaşdığı bir məkan yaradır”.

Professor konfransın türkologiyanın strateji yetkinlik mərhələsinə qədəm qoyduğunu nümayiş etdirdiyini vurğulayıb.

***Hazırladı:***
***T.RÜSTƏMLİ***
***XQ***

*Yeniliyin ünvanı*

# Sən nə rahatsan, a yol!

## *Söhbət ölkənin ilk ödənişli avtomobil magistralından gedir*



**Son illər ölkəmizdə respublika və yerli əhəmiyyətli avtomobil yollarının əsaslı şəkildə yenidən qurulması, eləcə də yeni körpülərin və yol ötürücülərinin əhalinin istifadəsinə verilməsi regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurla icrasının parlaq ifadəsidir. Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncama əsasən, Bakı – Quba – Rusiya Federasiyası ilə dövlət sərhədi ödənişli avtomagistralının inşasının yekunlaşdırılması da yol infrastrukturunun müasir səviyyəyə çatdırılması istiqamətində reallaşdırılan layihələrin ən mükəmməl nümunəsidir.**

Xatırladaq ki, bu avtomagistralın Yaşma qəsəbəsindən başlayaraq Xaçmaz rayonu ərazisinədək uzanan, təxminən, 100 kilometrlik hissəsinin ödənişli əsaslarla istismara verilməsi nəqliyyat infrastrukturu idarəçiliyində əsaslı yenilənmənin bariz göstəricisidir. Qlobal təcrübədə geniş tətbiq olunan bu modelin əsas məqsədi kommersiya mənfəəti deyil, yolun uzunmüddətli dayanıqlılığının, təhlükəsizliyinin və keyfiyyətinin gerçəkləşdirilməsidir.

### Rahat, sürətli və təhlükəsiz...

Köhnə alternativ magistraldan 13 kilometr qısa olan, üzərində 40 yol ötürücüsü və körpü salınan ödənişli yol infrastrukturu sürücülərə adi və dayanmadan keçid zolaqlarından yararlanmaq imkanı verir. Adi zolağa daxil olan sürücü ödəniş məntəqələrində keçid kartı əldə edərək ödənişli yoldan istifadə hüququ qazanır. Dayanmadan keçid zolağı isə sürücülərə ödəniş məntəqələrində sürəti azaltmadan və dayanmadan keçmək imkanı yaradır. Bunun üçün sürücüdə əvvəlcədən əldə edilən xüsusi çip kart olması kifayətdir. Bu zolaqlarda xüsusi nömrə oxuma və təhlükəsizlik kameraları, məntəqələrdə isə çəkiyə nəzarət, eləcə də yolun dayanıqlığını gerçəkləşdirmək məqsədilə elektron tərəzi sistemi mövcuddur.

Ödənişli avtomobil yolu yüksək sürətli (I texniki dərəcəli) magistral olduğundan, təhlükəsizlik məqsədilə kənardan, qeyri-müəyyən yerlərdən giriş və piyadaların hərəkəti qadağan edilib. Giriş-çıxışların yalnız xüsusi ödəniş məntəqələri vasitəsilə həyata keçirilməsi reallaşdırılıb və yola maneələrin çıxmasının qarşısı alınıb.

Bakı – Quba – Rusiya sərhədi istiqaməti regional yol olmaqla bərabər, eyni zamanda, beynəlxalq tranzit arteriyasıdır. Bu marşrut Şimal – Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində mühüm həlqə rolunu oynayır. Dəhliz Hind okeanı hövzəsindən yüklərin İran və Azərbaycan üzərindən Rusiya və Avropaya daşınmasını nəzərdə tutur. Keyfiyyətli və təhlükəsiz magistral kimi qiymətləndirilən bu yol tranzit vaxtını azaldır, logistika xərclərini aşağı salır, Azərbaycanın etibarlı nəqliyyat qovşağı ölkəsi kimi mövqeyini möhkəmləndirir.

Yükdaşımaların artdığı şəraitdə yolun aşınma səviyyəsi də yüksəlir. Ödəniş mexanizmi isə bu yükün maliyyə baxımından kompensasiyasını təmin edir. Ekspertlərin fikrincə, xüsusilə ağır tonnajlı yük maşınlarının yol örtüyünə təsiri nəzərə alınaraq magistralda diferensial tarif siyasəti də tətbiq oluna bilər. Onu da deyək ki, ödənişli və yüksək keyfiyyətli magistralın təsiri təkcə nəqliyyat sektoru ilə məhdudlaşmır. Quba, Qusar və Xaçmaz bölgələrinə daha sürətli, eləcə də təhlükəsiz çıxış turist axınını artırır. Bu rayonlardan kənd təsərrüfatı məhsullarının bazarlara daha operativ və təhlükəsiz çatdırılmasını gerçəkləşdirir.

Yuxarıda sadalananlarla yanaşı, sözügedən avtomagistral yolboyu xidmət infrastrukturunun (yanacaqdoldurma, servis, istirahət zonaları) inkişaf etməsini, regional məşğulluğun sürətlənməsini, yeni xidmət sahələrinin yaranmasını şərtləndirir. Bu baxımdan, ödənişli yol həm də regional inkişaf mexanizmi, şəffaflıq və ictimai etimad göstəricisidir. Çünki magistralın istifadəsindən toplanan vəsaitin yolun saxlanmasına, təhlükəsizlik sistemlərinin qurulmasına, rəqəmsal monitorinq və nəzarət texnologiyalarının inkişafına yönəldilməsi açıq şəkildə göstərildikdə sosial etimad artır.

Beləliklə, Bakı – Quba – Rusiya sərhədi istiqamətində ödənişli magistral seqmenti respublikanın nəqliyyat siyasətində bazar əsaslı və dayanıqlı maliyyələşmə modelinə keçidin parlaq ifadəsidir. Qlobal təcrübə, məsələn, istər Fransa, istər Türkiyə, istərsə də Amerika Birləşmiş Ştatları nümunəsi göstərir ki, düzgün qurulmuş ödəniş mexanizmi yüksək keyfiyyət, maliyyə dayanıqlığı və tranzit rəqabətliyini təmin edir. Azərbaycan üçün isə bu model yol infrastrukturu məsələsi olmaqla bərabər, həm də geoiqtisadi mövqeyin gücləndirilməsi, tranzit potensialının artırılması və regional inkişafın sürətləndirilməsi deməkdir.

### Gör-götür dünyası

"Avtomobil yolları haqqında" qanuna əsasən, ödənişsiz magistrallara alternativ rahat, təhlükəsiz, standartlara uyğun ödənişli yollar da salınmalıdır. Dünya təcrübəsinə görə, müəyyən istiqamətlərdə əsas işgüzar mərkəzlərini birləşdirən bu yollar çox zaman yaşayış məntəqələrindən yan keçir, buna görə də sürət həddi yüksək olur.

**Hüquqşünas Ərşad Hüseynovun** sözlərinə görə, avtomagistrallardan daxil olan vəsait yolların yüksək səviyyədə saxlanılması üçün istifadə edilir. Başqa sözlə, bu vəsait texniki vasitələr köhnələndə, yaxud müəyyən səbəblər üzündən sıradan çıxanda onları əvəzləmək, asfaltda, eləcə də yolun digər örtüyündə aşınma nəzərə çarpdıqda həmin hissəni bərpa etmək məqsədilə xərclənir. Ümumiyyətlə, dünyanın heç bir ölkəsində ödənişli yol gəlir mənbəyi kimi istifadə olunmur. Buna görə də sözügedən infrastrukturdan istifadə edənlər, o cümlədən, beynəlxalq daşımaların sürətlənməsi üçün aşağı tariflərə üstünlük verilir.

Ə.Hüseynov qeyd edir ki, qonşu dövlətlər – Rusiya, Türkiyə, İran, Gürcüstan və bir çox ölkələrdə ödənişli yollar var. Əsas hədəf isə uzaq yerlərə gedən nəqliyyat axınlarını tənzimləmək, digər yolların çox yüklənməsinin qarşısını almaqdır. Fransa magistrallarının böyük hissəsi isə uzunmüddətli konsessiya müqavilələri əsasında idarə olunur. Başqa sözlə, belə müqavilələr dövlət orqanı ilə özəl investor arasında bağlanır, dövlət mülkiyyətindəki obyektlərin (infrastruktur, bina və s.) investorun vəsaiti hesabına yenidən qurulması, idarə olunması və gəlir əldə edilməsi şərtlərini müəyyənləşdirən uzunmüddətli hüquqi sənəd kimi dəyərləndirilir.

Beləliklə, bu müqavilə əsasında investor xidməti göstərilir və mənfəət əldə edilir, dövlət isə büdcə xərci çəkmədən müasir infrastruktura malik olur. Bu modelin tətbiqi ilə dövlət büdcəsinə ilkin yük azalır, eyni zamanda, xidmət keyfiyyətinə dair ciddi öhdəliklər müəyyənləşdirilir.

Qardaş Türkiyə də son illər iri magistral, körpü və tunel layihələrinin icrasında mühüm uğurlara nail olub. Layihələrin reallaşdırılması zamanı "istifadə zəmanəti" və ya "gəlir zəmanəti" kimi mexanizmlərin tətbiqi ilə investor üçün risklər minimuma endirilib. Amerika Birləşmiş Ştatlarında isə elektron ödəniş sistemlərinin tətbiqi ilə nəqliyyat axınının optimallaşdırılması diqqətdə saxlanılıb. Bununla da ölkədə sürücünün dayanacaq etmədən keçidi reallaşdırılıb, nəticədə isə həm vaxt, həm də yanacaq qənaətinin yaradılmasına nail olunub.

Ölkəmiz son illər coğrafi baxımdan tranzit dəhliz rolunu oynayır. Məsələn, Ələt-Astara yolu şimal-cənub istiqamətində əsas daşımaların tərkib hissəsidir. Rusiya sərhədindən İrana qədər bu yoldan istifadə etmək mümkündür. Buna görə də adıçəkilən magistrala xüsusi diqqət yetirilir. Eyni zamanda, alternativ yolun da yüksək səviyyədə bərpa olunub istismara verilməsi zəruri hesab edilir. Ümumiyyətlə, hər hansı bir yolun ödənişli olması təbii ki, xərcin artması deməkdir. Hər bir halda ödənişli yoldan istifadə səfər müddətini qısaldır, ödənişsiz yoldan istifadə isə bu müddəti artırır.

Qeyd edildiyi kimi, ödənişli yoldan istifadə səfər müddətini qısaldır. Azərbaycan qanunvericiliyində də öz ifadəsini tapan bu məsələ daim diqqət mərkəzində saxlanılır. Milli Məclisin bugünlərdə keçirilən iclasında müzakirəyə çıxarılan "Yol hərəkəti haqqında" qanuna təklif edilən dəyişiklikdə də bu, nəzərdə tutulur. Belə ki, layihəyə əsasən, ödənişli avtomagistrallarda sürət həddinin ayrıca tənzimlənməsi məqsədilə yaşayış məntəqələrindən kənarda minik avtomobilləri və icazə verilmiş maksimum kütləsi 3,5 tondan artıq olmayan yük avtomobilləri üçün sürət həddinin saatda 130 kilometrdən, digər avtobuslar, yedəyində qoşqu aparan minik avtomobilləri, icazə verilən maksimum kütləsi 3,5 tondan artıq yük avtomobilləri üçün isə saatda 90 kilometrdən çox olmayan həddə müəyyənləşdirilməsi təklif edilir.

Nazirlər Kabinetinin avtomagistraldan ödənişli yol kimi istifadə qaydasında edilən dəyişiklikdə isə ödəniş məntəqələrindən keçmədən kənar yollardan istifadə etmək, habelə ödənişsiz gediş hüququna malik istifadəçilər üçün müəyyənləşdirilmiş xidməti keçid zolağından belə hüququ olmayan istifadəçilər tərəfindən ödənişli avtomagistrallara daxil olmaq və ya oradan çıxmaq məsuliyyət yaradır.

### Bəs paytaxtın yolları?

Prezident İlham Əliyevin ötən il imzaladığı "Avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşınması sahəsinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" fərman ilə paytaxtımızda da ödənişli yolların istismara veriləcəyi qərara alınıb. Sənəddə nəqliyyat vasitələrinin Bakı şəhərinin inzibati ərazisində müəyyənləşdirilən ödənişli hərəkət zonalarından istifadəsinə görə ödənilən haqq isə "İctimai nəqliyyat" Məqsədli Büdcə Fondun maliyyələşmə mənbələrindən biri olacağı nəzərdə tutulub.

Ekspertlər bildirirlər ki, dövlət başçısının adıçəkilən fərmanına əsasən, dövlət büdcəsinin tərkibində "İctimai nəqliyyat" Məqsədli Büdcə Fondunun yaradılması, ilk növbədə, avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşınmalarının dayanıqlığının və davamlığının, sərnişinlərə göstərilən xidmətlərin keyfiyyətinin və təhlükəsizliyinin təmin olunması, qabaqcıl beynəlxalq tələblər və təcrübə nəzərə alınmaqla bu sahədə fəaliyyət göstərən daşıyıcıların işinin səmərəliyinin təşkil edilməsi məqsədi daşıyır. Fondun vəsaitlərindən Bakı, Sumqayıt, Gəncə, Naxçıvan, Xankəndi şəhərlərinin və Abşeron, Ağdam, Şuşa, Laçın rayonlarının inzibati ərazilərində nağdsız ödəniş sisteminə keçirilmiş nəqliyyat vasitələri ilə müntəzəm sərnişin daşınmalarını həyata keçirən hüquqi şəxslərə və ya fərdi sahibkarlara subsidiya ödənilməsi üçün istifadə edilməsi nəzərdə tutulur. Bu vəsaitlər hesabına müəyyənləşdirilən ictimai nəqliyyat növlərinə subsidiyaların verilməsi onların sıxılmış qazla və elektriklə işlənən avtomobillərlə əvəz olunması prosesinin sürətlənməsinə xidmət edəcəyi də gözlənilir.

Ödənişli sahələr yaranandan sonra həmin ərazilərə daxil olan avtomobillərin sayının kifayət qədər azalacağı bildirilir. Fərmanda Bakı şəhəri ərazisində ödənişli hərəkət zonaları yaradılmasının 2027-ci il yanvarın 1-dən qüvvəyə minəcəyi vurğulanır. Eyni zamanda, bu qərarın Bakı şəhərinin mərkəzində gündən-günə dərinləşən tıxac probleminin müəyyən qədər həll olunmasına töhfə verəcəyi də qeyd edilir. Ödənişli sahələr yaranandan sonra həmin ərazilərə daxil olan avtomobillərin sayının kifayət qədər azalacağı və insanların ictimai nəqliyyat vasitəsilə daha rahat hərəkət etmələrinə üstünlük verəcəkləri proqnozlaşdırılır.

***Vaqif BAYRAMOV***
***XQ***

*Ekspert rəyi*



**Elməddin MURADLI,**
**nəqliyyat eksperti**

Ölkəmizdə bir müddətdir ki, ənənəvi yolla yanaşı, ödənişli yollar da sürücülərin istifadəsinə verilib. Bu cür avtomagistralların istismarında əsas məqsəd nəqliyyat axınını sürətləndirmək, alternativ marşrutlar yaratmaqdır. Hazırda bu yoldan kifayət qədər istifadə edən var. Qiymətlərdə də bahalıq nəzərə çarpmır. Gələcəkdə əgər zərurət yaranarsa, bu məsələyə bir daha baxmaq mümkündür. Amma indiki şəraitdə, fikrimcə, müəyyən qaydaların tətbiqi zəruridir. Bu isə sürətli və təhlükəsiz hərəkətin diqqətdə saxlanılması ilə bağlı məsələdir. Bu barədə bir qədər ətraflı bəhs etmək yerinə düşər.

Azərbaycanda ödənişli avtomagistrallarda hərəkət edən nəqliyyat vasitələri üçün yeni sürət hədləri qərara alınıb. "Yol hərəkəti haqqında" və "Avtomobil yolları haqqında" qanunlara təklif olunan dəyişikliklər Milli Məclis tərəfindən III oxunuşda qəbul edilib və yeni qaydalara əsasən minik avtomobilləri üçün ödənişli yollarda maksimal sürət 130 km/saat, bəzi digər nəqliyyat vasitələri üçün isə 90 km/saat olaraq müəyyənləşdirilib.

Qeyd edim ki, ödənişli yollarda sürət həddinin 130 km/saata çatdırılması təsadüfi olmayıb. Belə ki, indiyədək mövcud avtomagistrallarda icazə verilən maksimal sürət həddi 110 km/saat idi. Hazırda isə ödənişli yolların keyfiyyəti və rahatlığı daha yüksək olduğuna görə burada sürət həddinin artırılması zərurəti yarandı və aparılan müzakirələr nəticəsində ödənişli yollarda maksimum sürət həddinin 130 km/saata qaldırılması qərara alındı.

Lakin burada mühüm bir məqamı xatırlatmaq yerinə düşər. Belə ki, yol şəraiti imkan verirsə, bu sürətlə hərəkət etmək mümkündür. Lakin bəzi sürücülər tərəfindən bundan sui-istifadə edilir, hətta 150 km/saatdan artıq sürət həddi seçilərək görüntülər sosial şəbəkələrdə paylaşılır. Şübhəsiz ki, polis belə hallarla bağlı tədbirlər görür və maarifləndirici iş aparır. Lakin buna baxmayaraq, bəzi sürücülərin sürətə meyilli olduqları açıq-aşkar nəzərə çarpır. Ona görə də ödənişli yollarda radarlar tətbiq edilməsə, daha təhlükəli sürət hərəkətinə yol verilər.

Sürətin nə qədər təhlükəli olması unudulmamalıdır. Çünki yol-nəqliyyat hadisələrinin ağırlıq dərəcəsinin əsas səbəblərindən biri məhz sürət rejiminin pozulmasıdır. Bu baxımdan məsələyə çox ciddi yanaşmaq lazımdır. Radarların mövcudluğu isə problem deyil, çünki bu, beynəlxalq təcrübədə də daim diqqətdə saxlanılan bir yanaşmadır. Başqa sözlə, hər hansı ərazidə yüksək sürət rejimi tətbiq olunursa, orada mütləq şəkildə nəzarət mexanizmləri də qurulmalıdır. Əks təqdirdə bəzi sürücülər tərəfindən müəyyənləşdirilən 130 km/saat sürət həddi ağır qəzalarla nəticələnə bilər.

*Vətəndaş məmnunluğu*

# Dövlət xidmətlərinin "1 pəncərə" modeli



**"ASAN xidmət" Azərbaycanın dövlət idarəçiliyində həyata keçirilən sistemli və nəticəyönümlü təşkilati islahatlardan biri kimi qiymətləndirilir. Bu modelin mahiyyəti yalnız müxtəlif dövlət qurumlarının xidmətlərinin vahid məkanda təqdim olunması ilə məhdudlaşmır. Əsas məsələ idarəetmə fəlsəfəsinin dəyişməsi, vətəndaş – dövlət münasibətlərinin yeni prinsiplər əsasında qurulması və rəqəmsal transformasiyanın sürətləndirilməsidir.**

"ASAN xidmət"in tətbiqi ilə inzibati prosedurların optimallaşdırılması, xidmət müddətlərinin qısaldılması və sənəd dövriyyəsinin sadələşdirilməsi mümkün olub. Vahid standartların tətbiqi xidmət keyfiyyətinin bərabərləşməsinə və idarəetmədə sistemli yanaşmanın formalaşmasına gətirib çıxarıb.

### Dövlət xidmətinin Azərbaycan brendi

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən qəzetimizə verilən məlumata görə, 2015-ci ildə Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidmətləri mükafatına layiq görülməsi "ASAN xidmət"in üstünlüyünün qlobal miqyasda tanındığını göstərir. BMT Azərbaycanın beynəlxalq müstəvidə brendə çevrilmiş "ASAN xidmət" konsepsiyasını ən yaxşı model kimi dəyərləndirir və dörd qitədə təşviq edir.

22 mart 2018-ci il və 3 aprel 2023-cü il tarixində Cenevrədə BMT-nin İnsan Hüquqları Şurasının müvafiq olaraq 37-ci və 52-ci sessiyaları çərçivəsində Azərbaycanın təşəbbüsü ilə "Dövlət xidmətlərinin şəffaf, məsuliyyətli və səmərəli çatdırılması vasitəsilə insan hüquqlarının və Davamlı İnkişaf Məqsədlərinin təşviqi" adlı qətnamələr yekdilliklə qəbul edilib.

2024-cü ilin noyabrında Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən təmsil olunan Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı (BMT) arasında Töhfə Sazişi imzalanıb. Saziş çərçivəsində BMT-yə üzv ölkələrdə "ASAN xidmət" modeli əsasında dövlət xidmətlərinin göstərilməsi üçün innovasiyaların tətbiqi və müvafiq sahə üzrə potensialın inkişafı nəzərdə tutulur.

Milli brendimiz olan ASAN intellektual məhsul kimi həm də ixrac olunur. Dövlət agentliyi 30-dan çox ölkə və beynəlxalq təşkilatla müqavilə imzalayıb. Bu çərçivədə Birləşmiş Ərəb Əmirlikləri, Pakistan İslam Respublikası, Qırğız Respublikası, Qazaxıstan Respublikası, Efiopiya Federativ Respublikası, Özbəkistan Respublikası, Rumıniya, İndoneziya, Kolumbiya, Kamboca, Seneqal, Ruanda, Uqanda və s. kimi ölkələrin müvafiq sahələr üzrə fəaliyyət göstərən qurumları, eləcə də Birləşmiş Millətlər Təşkilatı, ICESCO və İslam İnkişaf Bankı (IsDB) ilə ASAN modelinin ixracı ilə bağlı imzalanmış sazişləri qeyd etmək olar. "ASAN xidmət" təcrübəsi Avropa, Asiya və Afrika qitəsindən sonra Amerika qitəsində də tətbiq olunacaq. Hazırda 6 ölkədə (Uqanda, Özbəkistan, İndoneziya, Əfqanıstan, Efiopiya və Pakistan) "ASAN xidmət" modeli əsasında mərkəzlər fəaliyyət göstərir.

*Ekspert rəyi*



**Eyyub KƏRİMLİ,**
**iqtisadçı**

Ölkəmizin ASAN brendi həm BMT, həm BMT-nin digər ölkələri tərəfindən yüksək qiymətləndirilir. Asan modelinin əsas uğur faktorlarına nəzər salsaq, bunlar əsasən insan amilinin, məmur-vətəndaş ünsiyyətinin minimuma endirilməsi, vətəndaş mərkəzli, həmçinin performans əsaslı idarəetmə və yüksək xidmətə nəzarətdir. İqtisadi baxımdan isə model kölgə iqtisadiyyatının azalması, əməliyyat xərclərinin optimallaşması və idarəetmədə şəffaflığın artması ilə uzunmüddətli müsbət təsir formalaşdırır. Digər tərəfdən "ASAN xidmət" həm də Azərbaycanın brendi olaraq müxtəlif ölkələrdə tətbiq edilir.

Bu gün "ASAN xidmət" ölkəmizdə 9 milyon insana xidmət göstərir. Bütün dövlət qurumlarının "ASAN xidmət"ə inteqrasiyası onu deməyə əsas verir ki, müxtəlif istiqamətlərdə vətəndaşlar çox rahat və innovativ xidmətlər əldə edə bilirlər. Sözsüz ki, bu cür yanaşma digər ölkələrin də diqqətini cəlb edir. Bu, əsasən inkişaf etməkdə olan ölkələr üçün çox müasir modeldir.

Bəzi ölkələr hələ də məmur özbaşınalığından, süründürməçilikdən, brokratiyadan əziyyət çəkirlər və "ASAN xidmət"in tətbiq etdiyi rəqəmsal idarəetmə, rəqəmsal həllər bütün bu faktorların qarşısını alan çox mütərəqqi və texnoloji sistemdir. Bu model ölkəmizin beynəlxalq imicinin artmasına, Azərbaycan standartlarının müəyyənləşməsinə və investisiya mühitinin daha da cəlbediciliyinə xidmət edir.

### Regional genişlənmə modelin uğur göstəricilərindən biridir

Paytaxtla yanaşı, bölgələrdə fəaliyyət göstərən mərkəzlər və səyyar xidmətlər dövlət xidmətlərinə çıxış imkanlarını bərabərləşdirib. Xüsusilə, ucqar ərazilərdə yaşayan əhali üçün səyyar xidmətlərin təşkili sosial inklüzivlik baxımından mühüm addım kimi qiymətləndirilir. Bu yanaşma regional idarəetmədə çevikliyin artmasına və xidmətlərin əlçatanlığının yüksəlməsinə şərait yaradıb.

Hazırda 7-si Bakıda, 2-si Gəncədə, 2-si Sumqayıtda, digərləri Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi, Balakən, Salyan, Naxçıvan, Lənkəran və Şuşada olmaqla 28 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Bu mərkəzlərdə müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 400-ə yaxın xidmət təklif olunur. Regionlarda 10 səyyar "ASAN xidmət" avtobusu vasitəsilə vətəndaşlara səyyar formada xidmətlərin göstərilməsi davam etdirilir.

*Ekspert rəyi*



**İlyas HÜSEYNOV,**
**politoloq**

Bu modelin əsas üstünlüyü vətəndaş məmnuniyyəti, şəffaflıq, operativlik və xidmətlərin "bir pəncərə" prinsipi əsasında təqdim olunmasıdır. Bir çox ölkələrdə vətəndaş–dövlət münasibətlərində mövcud olan bürokratik əngəlləri, vaxt itkisini və korrupsiya risklərini minimuma endirilməsinə şərait yaradır. Bununla yanaşı, beynəlxalq mühitdə tətbiqi zamanı hər bir ölkənin hüquqi sistemi, inzibati strukturu və sosial xüsusiyyətləri nəzərə alınmaqla tətbiq edilir.

İllər öncə Azərbaycanda "ASAN xidmət" tətbiq olunanda şəffaflıq, operativlik, açıqlıq prinsipləri əsasında dövlət xidmətləri vətəndaşlara təqdim edilirdi və zaman keçdikcə ictimai etimad və populyarlıq qazandı. Artıq ayrı-ayrı ölkələrdə "ASAN xidmət" modeli əsasında fəaliyyətin təşkilinə dair müraciətlər çoxalır və bu da onu deməyə əsas verir ki, ölkəmizdə həyata keçirilən uğurlu siyasətin əks-sədası həm də bütün dünyaya yayılır və məhz "ASAN" modeli əsasında dövlət idarəçiliyi prioritet hesab olunur.

***Mustafa KAMAL***
***XQ***

# Ermənistan–İran tərəfdaşlığı gündəmdədir



**Ermənistanın müdafiə naziri Suren Papikyan fevralın 24-25-də İranda rəsmi səfərdə olub. Bu barədə ölkənin müdafiə nazirliyinin mətbuat xidmətinin rəhbəri Aram Torosyan məlumat verib. Papikyanın Tehranda ilk görüşü İranın müdafiə və silahlı qüvvələrə dəstək naziri, briqada generalı Əziz Nəsirzadə ilə baş tutub. Yayılan məlumatda bildirilir ki, nazirlər Ermənistan–İran əməkdaşlığının müdafiə sahəsindəki səviyyəsini yüksək qiymətləndirib, ikitərəfli münasibətlərin inkişafı istiqamətində işlərin davam etdirilməsinə qətiyyət ifadə ediblər. Qarşılıqlı fəaliyyətə dair bir sıra məsələlər də müzakirə olunub. Tərəflər regional və beynəlxalq təhlükəsizliklə bağlı bir sıra mövzular ətrafında da fikir mübadiləsi aparıblar.**

Həmin gün S.Papikyanı İran Prezidenti Məsud Pezeşkian da qəbul edib. İran Prezidenti Bakı ilə İrəvan arasında münasibətlərin dinc şəkildə nizamlanması istiqamətində əldə olunan irəliləyişdən məmnunluğunu ifadə edib və bu prosesi regional təhlükəsizliyin möhkəmləndirilməsi, eləcə də əməkdaşlığın inkişafı baxımından müsbət addım kimi dəyərləndirib: “Biz xalqların qarşılıqlı hörmət və sülh şəraitində yanaşı yaşadığı bir mühiti qurmaq üçün mütləq konstruktiv əməkdaşlıq yolu ilə irəliləməliyik”.

M.Pezeşkian, həmçinin bildirib ki, İran qonşu ölkələrlə, o cümlədən Ermənistanla hərtərəfli münasibətləri genişləndirməyə və dərinləşdirməyə hazırdır. O, Tehran və İrəvan arasında hərtərəfli strateji tərəfdaşlıq haqqında sənəd üzərində işlərin yekunlaşdırılmasına hazırlıq getdiyini də qeyd edib. Pezeşkianın sözlərinə görə, İranın siyasəti regionda sülhün, sabitliyin və davamlı təhlükəsizliyin dəstəklənməsinə yönəlib. Onun fikrincə, sabitliyi pozmağa yönəlmiş istənilən addımlar bütün region dövlətlərinə zərər vurur.

Ermənistan müdafiə nazirinin Tehrana səfəri və onu Prezident Məsud Pezeşkianın qəbul etməsi regionda davam edən geosiyasi proseslər fonunda diqqətçəkən hadisədir. Səfər formal protokol çərçivəsini aşaraq, həm ikitərəfli münasibətlərin cari vəziyyətini, həm də Cənubi Qafqazda formalaşmaqda olan yeni reallıqları əks etdirən siyasi mesajlar verdi. İran tərəfinin Papikyanı hərbi orkestr və fəxri qarovul dəstəsi ilə qarşılaması Tehranın bu münasibətlərə verdiyi əhəmiyyəti nümayiş etdirdi. Bu detal rəmzi xarakter daşısa da, onun arxasında konkret maraqlar dayanır. İran üçün Ermənistanla əlaqələr yalnız ikitərəfli gündəliklə məhdudlaşmır. Bu münasibətlər həm də regiondakı güc balansı, nəqliyyat marşrutları və təhlükəsizlik arxitekturası ilə sıx bağlıdır.

Pezeşkianın qəbul zamanı Azərbaycan–Ermənistan münasibətlərinin dinc nizamlanması istiqamətində əldə olunan irəliləyişə müsbət yanaşması xüsusi vurğulanmalıdır. Tehran İkinci Qarabağ müharibəsindən sonra “regionda sərhədlərin dəyişdirilməsini”, daha doğrusu, Ermənistan sərhədlərinin dəyişdirilməsini özünün qırmızı xətti hesab etdiyini bildirir və sabitliyin qorunmasını prioritet sayır. Hərçənd, Azərbaycan yüksək səviyyədə dəfələrlə bəyan edib ki, bizim başqalarının torpağında gözümüz yoxdur. Bu baxımdan, İran Prezidentinin sülh prosesinə dəstək ifadə etməsi həm beynəlxalq auditoriyaya, həm də region ölkələrinə ünvanlanan mesaj kimi qiymətləndirilə bilər. İranın hazırkı hökuməti üçün əsas məsələ Cənubi Qafqazda hərbi eskalasiyanın yenidən alovlanmaması və yeni qarşıdurma ocaqlarının yaranmamasıdır.

Eyni zamanda, Pezeşkianın Ermənistanla hərtərəfli münasibətlərin genişləndirilməsinə hazır olduqlarını deməsi Tehranın İrəvanla əməkdaşlığı daha sistemli və uzunmüddətli müstəviyə keçirmək niyyətindən xəbər verir. Hərtərəfli strateji tərəfdaşlıq sənədi üzərində işlərin yekunlaşdırılması barədə məlumat da bu kontekstdə önəmlidir. Belə sənədlər adətən siyasi dialoq, iqtisadi əməkdaşlıq, enerji, nəqliyyat və təhlükəsizlik sahələrini əhatə edir. Bu isə onu göstərir ki, tərəflər münasibətləri yalnız cari əməkdaşlıq səviyyəsində saxlamaq yox, daha geniş çərçivədə inkişaf etdirmək istəyirlər.

Burada diqqətçəkən məqamlardan biri də görüşün məhz müdafiə naziri səviyyəsində səfər çərçivəsində baş tutmasıdır. Bu, hərbi və təhlükəsizlik məsələlərinin gündəlikdə xüsusi yer tutduğunu göstərir. İran regionda xarici hərbi iştirakın artmasına həssas yanaşır və öz sərhədləri yaxınlığında baş verən prosesləri yaxından izləyir. Ermənistan isə 2020-ci ildən sonra təhlükəsizlik sahəsində yeni tərəfdaşlıqlar axtarışındadır. Bu şəraitdə Tehranla dialoqun intensivləşməsi tərəflərin qarşılıqlı maraqlarının kəsişdiyini göstərir.

Papikyanın müdafiə, iqtisadiyyat və nəqliyyat sahələrində əməkdaşlığın uğurla davam etdiyini vurğulaması da təsadüfi deyil. Xüsusilə nəqliyyat dəhlizləri məsələsi son illər regionun əsas müzakirə mövzularındandır. İran Şimal–Cənub marşrutunun inkişafında maraqlıdır, amma digər alternativ regional bağlantıların, o cümlədən TRIPP layihəsinin icrasında yumşaq desək, maraqlı deyil. Ermənistan isə regional kommunikasiyaların açılması prosesində öz rolunu qorumağa və gücləndirməyə çalışır. Bu baxımdan Tehran–İrəvan xətti həm siyasi, həm də iqtisadi məna daşıyır.

Pezeşkianın sabitliyi pozan addımların bütün region dövlətlərinə zərər vurduğu barədə fikri daha geniş çərçivədə yanaşılmalıdır. İran üçün Cənubi Qafqaz yalnız qonşuluq məkanı deyil, həm də Yaxın Şərq, Xəzər hövzəsi və Avrasiya arasında keçid bölgəsidir. Burada yaranacaq istənilən gərginlik təkcə iki ölkə ilə məhdudlaşmır, daha geniş təsir dairəsinə malik olur. Ona görə də Tehran özünü sabitliyin tərəfdarı kimi təqdim etməyə çalışır.

Ümumilikdə, Pezeşkian–Papikyan görüşü İranın Cənubi Qafqaz siyasətində davamlılığın qorunduğunu göstərir. İran Prezidentinin yanaşmasında əvvəlki xətdən kəskin fərq müşahidə olunmur. Əsas prioritetlər dəyişməz qalır: sərhədlərin toxunulmazlığı, regional sabitlik, qonşularla əməkdaşlıq və iqtisadi əlaqələrin genişləndirilməsi. Ermənistan üçün isə bu səfər İranla münasibətlərin strateji əhəmiyyətini bir daha təsdiqlədi.

Hazırkı mərhələdə regionda sülh danışıqlarının taleyi, kommunikasiyaların açılması və böyük güclərin maraqlarının toqquşması fonunda Tehran–İrəvan xəttindəki aktivlik diqqətlə izlənilmə tələb edir. Görüşün əsas nəticəsi ondan ibarətdir ki, tərəflər dialoqu davam etdirmək və münasibətləri daha dərin müstəviyə keçirmək niyyətlərini açıq şəkildə ortaya qoydular. Bu isə Cənubi Qafqazda formalaşan yeni siyasi mənzərədə İranın öz yerini qorumaq və təsir imkanlarını saxlamaq istədiyini göstərir.



**Siyasi şərhçi Rizvan Hüseynov** XQ-yə açıqlamasında Ermənistan müdafiə nazirinin Tehrana səfərini iki ölkə arasında münasibətlərin yeni mərhələyə keçidi kimi dəyərləndirilib. Onun sözlərinə görə, görüşlər zamanı regional təhlükəsizlik, sülh prosesi və hərtərəfli strateji tərəfdaşlıq sənədi ətrafında müzakirələr aparılması göstərir ki, tərəflər əməkdaşlığı daha geniş çərçivədə inkişaf etdirmək niyyətindədir: “Bununla yanaşı, səfər Cənubi Qafqazda dəyişən geosiyasi şərait fonunda Tehran–İrəvan xəttinin aktuallığını bir daha ortaya qoyur. Eyni zamanda, bu səfər İranın regionda sabitliyin qorunmasında oynamaq istədiyi rolu ön plana çıxarır. Ermənistan üçün Tehranla dialoq təhlükəsizlik və nəqliyyat məsələlərində manevr imkanlarını genişləndirmək baxımından əhəmiyyətlidir. Bununla belə, əldə olunacaq real nəticələrin tərəflərin verdiyi siyasi mesajların praktik addımlarla nə dərəcədə dəstəklənəcəyindən asılıdır”.

Onu da bildirək ki, S.Papikyan dünən İranın Ali Milli Təhlükəsizlik Şurasının katibi Əli Laricani ilə görüşüb. Bu görüş zamanı regional təhlükəsizlik və sabitlik, eləcə də Ermənistan–İran ikitərəfli əməkdaşlığının gedişi və inkişaf perspektivləri ilə bağlı məsələlər müzakirə olunub. Papikyan İran ətrafında yaranmış vəziyyətin diplomatik yollarla həllinin vacibliyini vurğulayıb. Həmsöhbətlər, həmçinin Ermənistan və İran ətrafında formalaşmış təhlükəsizlik mühitinə də toxunublar.

*Səxavət HƏMİD*
*XQ*

# Pakistan–Əfqanıstan sərhədi yenidən od tutub

**Pakistan–Əfqanıstan sərhədində baş verən son silahlı toqquşmalar regionda onsuz da kövrək olan təhlükəsizlik balansının pozulduğunu göstərir. Rəsmi Kabil “cavab hərbi əməliyyatı”nın başa çatdığını və qarşıya qoyulan tapşırıqların yerinə yetirildiyini bəyan etsə də, İslamabadın açıqlamaları vəziyyətin lokal insident mərhələsini keçərək açıq hərbi qarşıdurma səviyyəsinə yüksəldiyini nümayiş etdirir.**

Əfqanıstan Müdafiə Nazirliyi gecəyarısı əməliyyatların dayandırıldığını bildirsə də, bu addım daha çox taktiki fasilə təsiri bağışlayır. Pakistan tərəfi isə “Qazab-lil-haqq” adlı əməliyyat çərçivəsində sərt hərbi cavab verdiyini açıqlayaraq münaqişəni təhlükəsizlik və cəza narrativi üzərindən əsaslandırmağa çalışır. Müdafiə naziri Xavaca Asifin “açıq müharibə” ifadəsi diplomatik ritorikanın sərhədləri aşdığını və münasibətlərin açıq qarşıdurma fazasına daxil olduğunu göstərir. Onun Kabili Hindistanın təsir dairəsinə salmaq ittihamı isə prosesi ikitərəfli sərhəd insidentindən çıxararaq regional geosiyasi rəqabət kontekstinə daşıyır.



Döyüşlərin əsasən Kabilin hüquqi baxımdan tanımadığı Durand xətti boyunca getməsi qarşıdurmanın tarixi və struktur xarakterini təsdiqləyir. Bu xətt təkcə inzibati sərhəd deyil, həm də etnik, qəbilə və təhlükəsizlik ziddiyyətlərinin kəsişmə nöqtəsidir. Tərəflərin itkilərlə bağlı ziddiyyətli açıqlamaları informasiya müharibəsinin paralel şəkildə aparıldığını göstərir. Pakistan onlarla əfqan hərbçisinin məhv edildiyini və postların ələ keçirildiyini bildirir, Kabil isə əksinə, pakistanlı qüvvələrin ciddi itkilər verdiyini iddia edir. Siyasi müşahidəçilərin sözlərinə görə, bu informasiya qarşıdurması real vəziyyətin dumanlı qalmasına xidmət edir və daxili auditoriyaya yönəlik psixoloji üstünlük yaratmaq məqsədi daşıyır.

Gərginliyin mərkəzində isə Tehrik-i-Taliban Pakistan (TTP) amili dayanır. İslamabad bu qruplaşmanın Əfqanıstan ərazisində sığınacaq və dəstək aldığını bildirir, Kabil isə ittihamları rədd edir. Pakistanın fevralın 21-də sərhədyanı ərazilərdə “terror düşərgələrinə” hava zərbələri endirməsi mövcud eskalasiyanın başlanğıc mərhələsi kimi qiymətləndirilə bilər. Əgər TTP faktoru institusional mexanizmlərlə neytrallaşdırılmasa, qarşıdurma klassik dövlətlərarası müharibədən daha çox proksi və asimmetrik müharibə modelinə çevrilə bilər ki, bu da uzunmüddətli qeyri-sabitlik riskini artırır.

Hazırkı dinamika göstərir ki, qısamüddətli perspektivdə taktiki atəşkəs və ya qeyri-rəsmi razılaşma mümkündür, lakin sərhəd boyunca lokal toqquşmaların davam etməsi ehtimalı yüksəkdir. Üçüncü tərəf vasitəçiliyi - xüsusilə regionda təsir imkanları olan aktorların diplomatik təşəbbüsləri gündəmə gələ bilər. Orta müddətdə TTP problemi həll olunmazsa, Pakistanın sərhədyanı ərazilərə daha sistemli və dərin hərbi müdaxilə variantı real görünür. Politoloqların fikrincə, Taliban hakimiyyəti isə beynəlxalq təcriddən çıxmaq məqsədilə ritorikanı yumşalda bilər, lakin təhlükəsizlik zəmanətləri verməkdə çətinliklə üzləşəcək.

Beləliklə, uzunmüddətli ssenaridə iki alternativ inkişaf xəttini vurğulamaq olar: ya qarşıdurma genişlənərək Cənubi Asiyada yeni təhlükəsizlik böhranı yaradacaq, ya da tərəflər sərhədin de-fakto tanınmasına və birgə təhlükəsizlik mexanizmlərinin qurulmasına doğru məcburi kompromisə gedəcəklər. Mövcud mərhələdə hadisələr göstərir ki, bu eskalasiya təsadüfi insident deyil, struktur təhlükəsizlik böhranının təzahürüdür və onun həlli yalnız hərbi vasitələrlə mümkün deyil.

*Səbuhi MƏMMƏDOV*
*XQ*


## “Bakı İxtisaslaşdırılmış Mexanizasiya 7” ASC səhmdarlarının nəzərinə!

“Bakı İxtisaslaşdırılmış Mexanizasiya 7” ASC səhmdarlarının növbəti ümumi yığıncağı 14 aprel 2026-cı ildə, saat 10:00-da Cəmiyyətin yerləşdiyi ünvanda keçiriləcəkdir.

**Ümumi yığıncaqda aşağıdakı məsələlər müzakirə ediləcəkdir:**

**1.** Cəmiyyətin 2024-2025-ci illər üzrə maliyyə balansının müzakirəsi,

**2.** Cəmiyyətlə Əmlak Məsələləri Dövlət Xidməti arasında bağlanmış torpaq sahəsinin icarəsinə dair müqavilənin ləğv edilməsinə dair,

**3.** Cəmiyyətin ləğv edilməsinə dair,

**4.** Ləğvetmə Komissiyasının yaradılmasına və Ləğvetmə Komissiyasının səlahiyyətlərinin müəyyənləşdirilməsinə dair,

**5.** Müşahidə Şurasının və İcra orqanının səlahiyyətlərinə xitam verilməsinə dair,

**6.** Cəmiyyətə məxsus daşınmaz əmlakın özgəninkiləşdirilməsinə razılığın verilməsinə dair,

**7.** Digər məsələ.

Gündəlikdə olan məsələlərə dair sənədlərlə tanış olmaq üçün iş günləri 10:00-dan 13:00-dək Cəmiyyətə müraciət edə bilərsiniz.

**Ünvan:** *Bakı şəhəri, Binəqədi rayonu, 7-ci mkr., 3121-ci məhəllə A.Kunanbayev küçəsi 78X.*

**Əlaqə telefonu:** *050-212-16-13.*

**Cəmiyyətin sədri:** **R.Əliyev**


*28 Fevral Beynəlxalq Nadir Xəstəliklər Günüdür*

# Az yayılmış xəstəlik də ictimai bəladır

**Cəmiyyət, adətən, çoxluğun səsini eşidir. Gur, aydın, təkrarlanan səslər diqqəti cəlb edir, gündəmi müəyyənləşdirir. Amma həyatın bir də sakit tərəfi var – azlığın, nadirliyin, çox vaxt görünməzliyin səmti. Nadir xəstəliklər də məhz o səssiz tərəfin bəlasıdır. Onlar statistikada kiçik rəqəm kimi görünə bilər, lakin hər rəqəmin arxasında bir insan taleyi, bir ailənin ümid və nigarançılığı dayanır.**

Nadir xəstəliklərin öyrənilməsi üzrə Avropa təşkilatının (EURORDIS) təşəbbüsü ilə Ümumdünya Səhiyyə Təşkilatı ilin ən nadir günü - fevralın 29-u Beynəlxalq Nadir Xəstəliklər Günü statusu alıb. Qısa illərdə həmin gün fevralın 28-də qeyd edilir. Onun hədəfi ictimaiyyətin diqqətini həmin xəstəliklərin öyrənilməsinə cəlb etmək və onlar haqqında məlumatın artırılmasına yönəltməkdən ibarətdir.

Dünyada minlərlə nadir xəstəlik mövcuddur. Bu xəstəliklərin bir çoxu genetik mənşəlidir, erkən yaşlarda özünü göstərir və uzunmüddətli tibbi nəzarət tələb edir.

Nadir xəstəliklərlə tibbin hər sahəsində üzləşmək mümkündür. Hesablamalara görə, dünyada təxminən 5-7 minə yaxın nadir xəstəlik var və dünya əhalisinin 3,5-5,9 faizini əhatə edir. Həmin xəstəliklər çətin tapılan dərmanlarla müalicə edilir. Dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da həmin xəstəliklərin müalicəsi dövlət büdcəsindən maliyyələşir.

Mütəxəssislərin qiymətləndirməsinə görə, dünyada həyat üçün təhlükəli olan nadir xəstəlik sırasına olduqca nadir xəstəliklər sayılan Kabuki sindromu, Pallistera-Killiana sindromu, inkişaf edən sümük geteroplaziyası, Qoşe xəstəliyi aiddir. Daha tez-tez rast gəlinən xəstəliklərə isə mukovissidoz, hemofiliya, xərçəngin müxtəlif formaları, mieloma, Alsheymer, Qentingtona xəstəliyi və başqaları daxildir.

Nadir xəstəliklərlə mübarizə aparan ailələrin gündəlik həyatı səbir və mübarizə məktəbidir. Dəqiq diaqnoz üçün uzun illər davam edən axtarışlar, müxtəlif müayinələr, qeyri-müəyyənlik – bütün bunlar psixoloji və maddi yük yaradır. Bəzən valideynlər övladlarının xəstəliyinin adını belə uzun müddət bilmirlər. “Nadir” sözü burada təkcə tibbi termin deyil, həm də sosial təcrid riskidir. Çünki cəmiyyətdə məlumat az olduqda, anlaşılmazlıq və yanlış yanaşmalar yaranır.

Bu sahədə son illərdə elmi nailiyyətlər ümidverici tendensiya yaradır. Genetik tədqiqatların inkişafı, fərdiləşdirilmiş müalicə metodlarının tətbiqi bir sıra nadir xəstəliklərin idarə olunmasında yeni mərhələ açıb. Lakin tibbi tərəqqi ilə yanaşı, sosial məsuliyyət də paralel inkişaf etməlidir. Nadir xəstəliklə yaşayan insanın məktəbə, işə, ictimai həyata inteqrasiyası ən az dərman qədər vacibdir.

Məsələ təkcə səhiyyə sisteminin deyil, bütövlükdə, cəmiyyətin vicdan məsələsidir. Dövlət siyasətində nadir xəstəliklərlə bağlı proqramların hazırlanması, dərman təminatının yaxşılaşdırılması, ixtisaslaşmış mərkəzlərin yaradılması mühüm addımlardır. Eyni zamanda, media orqanlarının maarifləndirici rolu da danılmazdır. Çünki məlumat qorxunu azaldır, anlayışı artırır.

Nadir xəstəliklər bizə bir həqiqəti xatırladır: insanın dəyəri sayla ölçülmür. Azlıq olmaq zəiflik deyil. Əksinə, cəmiyyətin humanist səviyyəsi məhz ən azlıqda olanlara göstərilən diqqətlə müəyyən olunur. Əgər biz nadir xəstəliklərlə yaşayan insanlara yalnız statistika kimi yox, talelər kimi baxa bilsək, onda həm səhiyyəmiz, həm də mənəvi mühitimiz daha sağlam olar.




Sonda bir sual qalır: biz görünməyənləri görməyə, səssizləri eşitməyə nə dərəcədə hazırıq? Nadir xəstəliklər mövzusu hər birimizi düşünməyə vadar edir. Çünki sabah bu “nadir” anlayışı hər bir ailənin qapısını döyə bilər. Həmin an cəmiyyət olaraq verəcəyimiz cavab isə bu gün formalaşan münasibətimizdən asılıdır.

*Nurəngiz ADİLQIZI*
*XQ*

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 27 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün FƏALİYYƏT PLANI

**1. Qısa xülasə**

"Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı" (bundan sonra – Fəaliyyət Planı) rəqəmsal texnologiyaların müasir iqtisadi artımın əsas hərəkətverici qüvvəsi olduğu və qlobal rəqabətin kəskinləşdiyi bir dövrdə rəqəmsal inkişafın strateji əhəmiyyəti nəzərə alınaraq hazırlanmışdır.

Son illərdə Azərbaycan Respublikasında rəqəmsal inkişaf üçün əhəmiyyətli hüquqi və texnoloji baza yaradılmışdır. "Hökumət buludu"nun istifadəyə verilməsi, "SİMA" biometrik rəqəmsal imzanın uğurlu tətbiqi (4 milyondan artıq istifadəçi) və infrastrukturun inkişafı nəticəsində Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının Elektron Hökumətin İnkişafı İndeksində 2024-cü ildə 9 pillə irəliləyərək 74-cü yerə yüksəlmiş və "çox yüksək inkişaf etmiş ölkələr" kateqoriyasına daxil olmuşdur.

Lakin innovasiya əsaslı iqtisadiyyata keçid prosesində başlıca tələblərə əməl etmək zərurəti qalmaqdadır. Qlobal İnnovasiya İndeksində Azərbaycan Respublikası 94-cü yerdə mövqe tutur. İnnovasiyalar insan kapitalı, tənzimləyici mühit, elmi potensial və dayanıqlı maliyyələşmənin qarşılıqlı vəhdətinə əsaslanan milli ekosistemdə formalaşır. Bu sahədə əsas maneələr sırasında məlumat idarəçiliyindəki çatışmazlıqlar və məlumat keyfiyyəti problemləri, vençur kapitalı və kraudfandinq kimi innovativ maliyyə alətlərinin hüquqi bazasının olmaması, süni intellektin (Sİ) inkişafı – suveren süni intellekt üçün kritik olan hesablama infrastrukturunun yetərsizliyi, ixtisaslı kadr çatışmazlığı və artan kibertəhlükəsizlik riskləri xüsusi qeyd edilməlidir.

Fəaliyyət Planı əsasında 2026–2028-ci illər ərzində həyata keçiriləcək tədbirlər çərçivəsində "vahid məlumat idarəçiliyi" yanaşmasının tətbiqi, məlumatların dövlət orqanları (qurumları) tərəfindən alınmasında "yalnız bir dəfə" prinsipinin reallaşdırılması, proaktiv dövlət xidmətlərinə keçid və bütün dövlət xidmətlərinin "Mygov" və "Mygov Biznes" platformaları (portal və mobil tətbiqləri) vasitəsilə göstərilməsi, vençur maliyyələşməsi və kraudfandinq münasibətlərinin hüquqi tənzimlənməsi, "mələk investorlar" institutunun təşviqi və tətbiqi, texnoparklarda rezidentlik şərtlərinin sadələşdirilməsi və yerli innovativ məhsulların dövlət satınalmalarında dəstəklənməsi, qlobal istedadları cəlb etmək üçün "rəqəmsal səyyah" vizasının tətbiqi, müstəqil mütəxəssislərin hüquqi statusunun müəyyən edilməsi, miqrasiya prosedurlarının sadələşdirilməsi, İKT, süni intellekt və informasiya təhlükəsizliyi üzrə mütəxəssislərin bilik və bacarıqlarının artırılması, dövlət informasiya ehtiyatlarının və sistemlərinin "Hökumət buludu"na tam miqrasiyası, maliyyə xidmətlərinin rəqəmsallaşması, elektron ticarət və informasiya təhlükəsizliyi sahələri üzrə normativ hüquqi aktların tamamilə yenilənməsi nəzərdə tutulur.

Fəaliyyət Planı, ilk növbədə, ölkədə rəqəmsal inkişaf sahəsində mövcud vəziyyətə və qlobal trendlərə əsaslanaraq müəyyənləşdirilən prioritet istiqamətlər və tədbirlər planı vasitəsilə sözügedən sahədə strateji məqsədlərə və göstəricilərə nail olmağı hədəfləyir. Fəaliyyət Planında müasir texnologiyaların inkişafını təmin etmək üçün dövlət və özəl sektor arasında əməkdaşlıq, akademik və elmi tədqiqatların gücləndirilməsi, startap və innovasiya mühitinin dəstəklənməsi kimi məsələlərə xüsusi diqqət yetirilir.

Fəaliyyət Planının uğurlu icrası nəticəsində Azərbaycan Respublikasının beynəlxalq reytinqlərdə mövqeyinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması hədəflənir. Növbəti 10 ildə İKT sektorunun qeyri-neft-qaz ÜDM-də payının, rəqəmsal məhsul və xidmətlərin illik ixracının yüksəldilməsi, proaktiv xidmətlərin payının 50 faizə çatdırılması və ölkənin innovasiya əsaslı, rəqabətqabiliyyətli iqtisadiyyata keçidinin sürətləndirilməsi təmin ediləcəkdir.

**2. Qlobal trendlər**

Müasir dövrdə rəqəmsal inkişaf qlobal iqtisadiyyatın strukturunu, dövlətlərin idarəetmə modellərini və cəmiyyətlərin sosial dinamikasını kökündən dəyişən əsas amildir. Texnologiyalar artıq yalnız yardımçı alət deyil, iqtisadi artımın əsas təkanverici qüvvəsi və milli təhlükəsizliyin təməl elementidir. Qlobal texnoloji landşaft yüksək sürətlə dəyişir və bu prosesdə rəqabət üstünlüyü əldə etmək üçün ölkələr öz strategiyalarını davamlı olaraq yeniləməlidirlər.

Süni intellekt, xüsusilə generativ süni intellekt və böyük dil modelləri bütün sektorlarda məhsuldarlığı inqilabi səviyyədə artırmaq potensialına malikdir. Qlobal süni intellekt bazarının həcminin növbəti onillikdə trilyonlarla dollar olacağı proqnozlaşdırılır. Daha vacib trend isə dövlətlərin "suveren süni intellekt" konsepsiyasına artan diqqətidir. Bu, dövlətlərin xarici texnologiyalardan asılı olmadan, öz milli infrastrukturları, məlumat ehtiyatları və insan kapitalı vasitəsilə süni intellekt modelləri yaratmaq və idarə etmək qabiliyyətidir. "Suveren süni intellekt"in inkişafı rəqəmsal müstəqillik, informasiya təhlükəsizliyi və milli təhlükəsizlik baxımından strateji əhəmiyyət kəsb edir və dövlət idarəetməsində səmərəliliyin artırılması, qərarvermə proseslərinin optimallaşdırılması və iqtisadiyyatın (neft-qaz, kənd təsərrüfatı və s.) şaxələndirilməsi üçün geniş imkanlar yaradır. Lakin bu imkanlardan tam faydalanmaq və rəqəmsal suverenliyi təmin etmək məqsədilə Azərbaycan dilində böyük dil modellərinin yaradılması və bunun üçün zəruri olan yüksək performanslı hesablama güclərinə strateji investisiyalar tələb olunur.

Məlumatlar yeni iqtisadiyyatın əsas aktivi hesab olunur. Belə ki, məlumat əsaslı qərarvermə dövlət sektorunda və özəl sektorda standart yanaşmaya çevrilir, böyük verilənlərin təhlili iqtisadi prosesləri proqnozlaşdırmağa və riskləri idarə etməyə imkan yaradır. Bununla yanaşı, məlumatların həcminin artması onların idarə edilməsi, keyfiyyəti, gizliliyi (məxfiliyi, konfidensiallığı) və təhlükəsizliyi məsələlərini ön plana çıxarır. Məlumatların effektiv idarə edilməsi və açıq məlumatların əlçatanlığı innovasiyaların stimullaşdırılması üçün xüsusi əhəmiyyət kəsb edir. Belə ki, dövlət informasiya ehtiyatlarında və sistemlərində toplanan böyükhəcmli məlumatların keyfiyyətinin və inteqrasiyasının təmin edilməsi effektiv idarəetmənin, proaktiv dövlət xidmətləri göstərilməsinin və Sİ tətbiqlərinin inkişafının əsas şərtidir.

Rəqəmsallaşmanın genişlənməsi ilə paralel olaraq qlobal miqyasda kiberhücumların sayı, miqyası və mürəkkəbliyi də artır. Sİ vasitəsilə həyata keçirilən hücumlar, təchizat zənciri riskləri və kritik informasiya infrastrukturlarına qarşı yönəlmiş təhdidlər əsas maneələrdir. Dünya İqtisadi Forumu kibertəhlükəsizlik risklərini və texnologiya vasitəsilə yayılan dezinformasiyanı əsas qlobal təhdidlər sırasında qiymətləndirir. Bu təhdidlər fonunda sadəcə kibermüdafiə deyil, həm də kiberinsidentlərdən sonra sürətli bərpanı nəzərdə tutan rəqəmsal dayanıqlılıq konsepsiyası əhəmiyyət kəsb edir. Ölkənin artan rəqəmsal asılılığı və mürəkkəb geosiyasi mövqeyi kibertəhlükəsizlik strategiyasının fundamental şəkildə gücləndirilməsini, ixtisaslı kadr hazırlığını və milli səviyyədə risk idarəetmə mexanizmlərinin tətbiqini tələb edir. Kritik informasiya infrastrukturunun mühafizəsi milli təhlükəsizlik məsələsidir.

Yüksək texnologiyalar sahəsində ixtisaslı kadrlara, xüsusilə Sİ, data elmi, kibertəhlükəsizlik və proqram mühəndisliyi üzrə mütəxəssislərə qlobal miqyasda tələbat təklifi xeyli üstələyir. Bu vəziyyət ölkələr arasında kəskin "istedad müharibəsi" yaratmışdır. Belə ki, dövlətlər "rəqəmsal səyyahlar"ı və yüksəkixtisaslı mütəxəssisləri cəlb etmək üçün xüsusi viza rejimləri, vergi güzəştləri və stimullaşdırıcı proqramlar tətbiq edirlər. Milli kadr potensialını inkişaf etdirməyin vacib əhəmiyyət daşıması ilə yanaşı, qısa müddətdə kəskin ehtiyacları qarşılamaq və qlobal bilik transferini təmin etmək üçün çevik miqrasiya siyasətinə və cəlbedici ekosistemin yaradılmasına ehtiyac vardır. Beyin axını riskinin "beyin qazancı"na çevrilməsi vacibdir.

Bulud hesablama texnologiyaları rəqəmsal transformasiyanın təməl infrastrukturunu təşkil edir. Bu qlobal çağırış ictimai və xüsusi bulud mühitlərinin birləşməsini təklif edən hibrid və çoxbuludlu strategiyalara doğru yönəlir. Belə tendensiya çevikliyi artırır və məlumatların saxlanma yeri ilə bağlı tələblərə cavab verir. Azərbaycan Respublikasında "Hökumət buludu"nun yaradılması mühüm addımdır. Növbəti mərhələdə bu infrastrukturun genişləndirilməsi, dövlət informasiya ehtiyatlarının və sistemlərinin tam miqrasiyası və özəl sektorun bulud hesablama texnologiyalarından istifadəsinin stimullaşdırılması xüsusi əhəmiyyət kəsb edir.

5G texnologiyalarının tətbiqi yüksəksürətli və minimal gecikməli əlaqəni təmin edərək, əşyaların interneti, "ağıllı şəhər" həlləri və sənaye avtomatlaşdırılması üçün yeni imkanlar yaradır. Eyni zamanda, iqlim dəyişikliyi fonunda enerji səmərəliliyi, dayanıqlı hesablama və yaşıl texnologiyalara qlobal tələbat sürətlə artır. İnfrastrukturun modernləşdirilməsi, xüsusilə işğaldan azad edilmiş ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" layihələrinin reallaşdırılması üçün 5G texnologiyasına keçid vacibdir. "Yaşıl iqtisadiyyat"a keçid prosesində texnoloji innovasiyaların tətbiqi ölkənin dayanıqlı inkişaf məqsədlərinə çatmasına dəstək olacaqdır.

**3. Mövcud vəziyyətin təhlili**

Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir və bu istiqamətdə aydın strateji baxış formalaşmış, son illərdə innovasiya əsaslı iqtisadiyyata keçid üçün mühüm normativ hüquqi baza yaradılmışdır. İKT sektorunun iqtisadiyyat üçün yüksək multiplikativ təsiri (hesablamalara görə, İKT sektoruna xərclənən hər bir dolların iqtisadiyyata 8 dollarlıq təsiri) və bu sektorda çalışan hər bir işçinin digər sektorlara nisbətən 3–4 dəfə artıq iqtisadi dəyər yaratması bu sahənin prioritetliyini təsdiqləyir.

Son illərdə həyata keçirilən tədbirlər nəticəsində bu sahədə əhəmiyyətli normativ hüquqi baza yaradılmışdır:

**3.1. hüquqi və strateji çərçivə:**

Rəqəmsallaşma sahəsində son illərdə ölkədə bir sıra normativ hüquqi aktlar qəbul edilmişdir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda innovasiyaların təşviqi, müasir texnoloji həllərin tətbiqinin genişləndirilməsi, müasir texnologiyaların iqtisadiyyat, səhiyyə, kənd təsərrüfatı və bir çox digər sahələrdə tətbiqi kimi mühüm məsələlər müəyyən edilmişdir.

Azərbaycan Respublikasında informasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin təmin olunması üçün kibertəhdidlərə qarşı mübarizədə daha mükəmməl texnoloji həllərin tətbiqi, yeni təkmil texnoloji infrastruktur komponentlərinin formalaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli 4060 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023–2027-ci illər üçün Strategiyası" təsdiq edilmişdir. Sözügedən Strategiyada informasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin təmin olunması üçün yeni texnoloji həllərin tətbiqinin və daim inkişaf etdirilməsinin zəruri olduğu göstərilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli 287 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası" rəqəmsal inkişafın əlaqələndirilmiş formada həyata keçirilməsini, rəqəmsal infrastrukturunun gücləndirilməsini, vahid rəqəmsal arxitekturanın qurulmasını və texnoloji adaptasiyanın sürətləndirilməsini əsas hədəflər kimi müəyyən etmişdir.

Azərbaycan Respublikasında süni intellektin inkişafının sürətləndirilməsi, bu sahədə tədqiqatlar aparılmasının təşviq edilməsi, Sİ üzrə informasiya texnologiyalarının və onların idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə Cənubi Qafqazda ilk olaraq Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 mart tarixli 530 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası" təsdiq edilmişdir.

Həmçinin, Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 avqust tarixli Fərmanı ilə dövlət informasiya sistemlərinin və ehtiyatlarının inteqrasiyasını, eləcə də elektron xidmətlərdən "bir pəncərə" prinsipi əsasında istifadəni təmin edən Elektron Hökumət İnformasiya Sisteminin (bundan sonra – EHİS) Əsasnaməsi təsdiq edilmişdir.

Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 dekabr tarixli 841 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026–2029-cu illər üçün Strategiya" ilə iqtisadiyyatın rəqəmsal sektorunun ÜDM-də payının artırılması, iqtisadi sahələrdə rəqəmsal texnologiyaların tətbiq səviyyəsinin genişləndirilməsi üçün tədbirlər müəyyən edilmişdir.

**3.2. rəqəmsal infrastruktur:**

Azərbaycan Respublikasında genişzolaqlı internetin inkişaf etdirilməsi və ölkənin ən ucqar yaşayış nöqtələrində yaşayan əhalinin yüksəksürətli internetə çıxışının təmin olunması Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"nin əsas məqsədi kimi müəyyən edilmişdir. Son 4 il ərzində ölkədə orta internet sürəti 7 dəfə artaraq 12.81 Mbit/saniyədən 90 Mbit/saniyəyədək yüksəlmişdir.

Sözügedən Strateji Yol Xəritəsində nəzərdə tutulan tədbirlərin icrası çərçivəsində "Onlayn Azərbaycan" layihəsi həyata keçirilmiş və mövcud ADSL avadanlığının müasir IMS platforması ilə işləyən GPON avadanlığı ilə əvəz edilməsi, köhnə mis magistral kabel infrastrukturunun optik kabellərlə əvəzlənməsi və optik paylayıcı şəbəkənin qurulması prosesi yekunlaşdırılmışdır. Son 4 il ərzində ölkədə sabit genişzolaqlı, yüksəksürətli internetə çıxış imkanı yaradılmış təsərrüfatların sayı 20 dəfədən çox artaraq təxminən 4.8 milyona çatmış, nəticədə ölkənin sabit genişzolaqlı internetlə əhatəsi tam təmin edilmişdir. Son 3 ildə ölkədə genişzolaqlı internetin illik orta sürəti 2 dəfə, son 6 il ərzində isə 10 dəfə artmışdır və 2026-cı ilin yanvar ayına olan məlumata əsasən, bu göstərici 90 Mbit/saniyəyə çatmışdır. Bununla da ölkə ərazisinin fiber-optik şəbəkə ilə geniş əhatə olunması tam başa çatdırılmışdır.

Bakıda və Yevlaxda yüksək standartlara cavab verən "Hökumət buludu" istifadəyə verilmiş və son 4 il ərzində data mərkəzinə keçid edən qurumların sayı 3 dəfə artaraq 148-ə çatmışdır. Hazırda mövcud data mərkəzlərindən gücü 3 dəfə artıq olan yeni data mərkəzlərinin inşası davam etdirilir.

**3.3. elektron hökumət və rəqəmsal xidmətlər:**

EHİS mərkəzi infrastruktur kimi formalaşdırılmış, biometrik rəqəmsal imzanın (SİMA) uğurlu tətbiqi (4 milyondan artıq istifadəçinin, 80-dən çox təşkilatın 200-dən artıq informasiya sisteminə inteqrasiyası) isə onlayn identifikasiyanı sadələşdirərək, dövlət və özəl sektor xidmətlərinin məsafədən göstərilməsini təmin etmişdir. "Mygov" platforması yenidən qurularaq 2.5 milyondan artıq vətəndaşa xidmət göstərir.

Şəxsiyyət vəsiqələri, doğum və ölüm haqqında şəhadətnamələr, sürücülük vəsiqələri və digər sənədlər də daxil olmaqla 200-dən artıq məlumatın rəqəmsal formatda təqdim edilməsinin hüquqi əsası yaradılmışdır. Nəticədə, sənədlərin fiziki təqdim edilməsinə ehtiyac aradan qaldırılaraq 2.3 milyondan artıq rəqəmsal sənəd "Mygov" platforması vasitəsilə təqdim edilmişdir.

Təhsil, məşğulluq, nəqliyyat, sağlamlıq, əmlak, sosial təminat və digər sahələr üzrə 380-dən çox xidmət tam rəqəmsallaşdırılmışdır və yaxın müddətdə 80 yeni xidmətin istifadəyə verilməsi nəzərdə tutulur. Vətəndaşlar tərəfindən xidmət mərkəzlərinə edilən müraciətlərin ümumi həcminin 10 faizi hazırda "Mygov" platformasından, yəni heç bir yerə getmədən mobil telefonlardan həyata keçirilir. "Mygov Biznes" platforması isə biznes subyektləri tərəfindən bütün xidmətlərin "bir pəncərə" prinsipi əsasında əldə olunmasına, o cümlədən satınalma, lisenziya, vergi və digər sahələr üzrə dövlət xidmətlərindən tam rəqəmsal formada istifadəyə şərait yaradacaqdır.

"Dövlət orqanları (qurumları) arasında sənəd mübadiləsinin elektronlaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 avqust tarixli 2279 nömrəli Fərmanına əsasən, dövlət orqanlarının (qurumlarının) elektron sənəd dövriyyəsi sistemləri arasında real vaxt rejimində və təhlükəsiz qaydada sənəd mübadiləsinin aparılması ilə bağlı inteqrasiyanın və sənədlərin hərəkəti üzrə uçotun həyata keçirilməsi məqsədilə EHİS-in strukturunda "Rəqəmsal Sənəd Dövriyyəsi" altsisteminin yaradılması və 2023-cü il sentyabrın 1-dək formalaşdırılması nəzərdə tutulmuşdur. Hazırda dövlət orqanları (qurumları) arasında sənəd mübadiləsi "Rəqəmsal Sənəd Dövriyyəsi" altsistemi vasitəsilə həyata keçirilir.

Bununla yanaşı, "Azərbaycan Respublikasının Ailə Məcəlləsində, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1193-VIQD nömrəli Qanunu ilə vətəndaşlıq vəziyyəti aktlarının və şəxsiyyət vəsiqəsinin rəqəmsallaşdırılması təmin edilmişdir. Belə ki, həmin dəyişikliklər əsasında inzibati icraat aparılması, o cümlədən dövlət xidmətləri göstərilməsi zamanı qeyd olunan sənədlərin kağız daşıyıcıda təqdim edilməsi tələbi aradan qalxmışdır. Vətəndaşlar həmin sənədlərdə göstərilən məlumatları EHİS üzərindən təqdim edərək, inzibati icraatda iştirak edə və ya dövlət xidmətlərindən istifadə edə bilərlər.

Həmçinin, Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 avqust tarixli 472 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron Hökumət İnformasiya Sistemi haqqında Əsasnamə"də elektron hökumət və elektron xidmətlər sahəsində bir sıra yeniliklər təsbit edilmişdir. Sözügedən Fərmana əsasən, "Vahid Kommunal Xidmətlər" altsistemi və "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri" altsistemi EHİS-in altsistemləri kimi müəyyən edilmişdir. Həmin Fərmanda elektron xidmətlərin təşkili, göstərilməsi və təkmilləşdirilməsi məqsədilə qurumların, hüquqi və fiziki şəxslərin elektron imza vasitələri ilə təmin olunması, dövlət orqanlarının (qurumlarının) elektron xidmətlər göstərməsində istifadə edilən dövlət informasiya ehtiyatları və sistemləri arasında informasiya mübadiləsinin EHİS vasitəsilə aparılmasının təmin edilməsi və dövlət orqanlarının (qurumlarının) elektron xidmətlərindən EHİS üzərindən "bir pəncərə" prinsipi əsasında istifadənin təmin edilməsi nəzərdə tutulmuşdur.

3.4. innovasiya ekosistemi:

Azərbaycan Respublikasının Vergi və Miqrasiya məcəllələrində, "Gömrük tarifi haqqında" və "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında edilmiş 2022-ci il 27 dekabr tarixli dəyişikliklərə əsasən, texnologiyalar parkının rezidenti və həmin rezident tərəfindən Azərbaycan Respublikasında əmək fəaliyyətinə cəlb edilən informasiya və kommunikasiya texnologiyaları sahəsində təcrübəsi olan mütəxəssislər üçün bir sıra güzəştlər müəyyən edilmişdir. 2025-ci il ərzində 165 rezident (o cümlədən 10 xarici şirkət) bu güzəştlərdən faydalanmışdır. Eyni zamanda, Bakı, Sumqayıt, Naxçıvan və Gəncə innovasiya mərkəzləri yaradılmış, 3 vençur fondu formalaşdırılmışdır.

Mövcud nailiyyətlərə baxmayaraq, ölkənin rəqəmsal inkişafına mənfi təsir edən hallar da mövcuddur. Belə ki, innovasiya ekosisteminin zəifliyi, maliyyələşdirmə mexanizmlərinin çatışmazlığı, rəqəmsal idarəetmədəki boşluqlar, süni intellektin inkişafı üçün maneələr, kibertəhlükəsizlik riskləri, insan kapitalının və tənzimləyici mühitin yetərsizliyi mənfi təsir göstərən əsas amillərdəndir. 2024-cü ildə Azərbaycan Respublikasında İKT xidmətlərinin ixracı 110 milyon dollar təşkil etmişdir. Müqayisə üçün Qazaxıstanda bu rəqəm 882 milyon dollar, Özbəkistanda isə 620 milyon dollardır.

Qlobal İnnovasiya İndeksində Azərbaycan Respublikasının 139 ölkə arasında 94-cü yerdə qərarlaşması ekosistemin kompleks inkişafa ehtiyacı olduğunu göstərir. İndeksin göstəricilərinin yalnız 15 faizinin birbaşa İKT-yə aid olması, problemin, əsasən, institusional mühit, insan kapitalı və maliyyələşmə ilə bağlı olduğu göstərilir. Vençur kapitalı, kraudfandinq və "mələk investorlar" kimi alternativ maliyyələşdirmə alətlərini dəstəkləyən normativ hüquqi bazanın olmaması innovativ layihələrin maliyyə resurslarına çıxışını məhdudlaşdırır. Makroiqtisadi siyasətdə mövcud konservativ yanaşmalar innovasiyanı stimullaşdıran çevik tənzimləmələrin formalaşmasına maneə hesab edilir.

Dövlət informasiya ehtiyatlarında və sistemlərində məlumatların dürüstlüyündə və tamlığında olan problemlər məlumat əsaslı qərarverməni məhdudlaşdırır və rəqəmsal xidmətlərin proaktiv təqdim edilməsinə imkan vermir. "Hökumət buludu"na keçidin tam başa çatmaması və EHİS-dən kənar xidmətlərin mövcudluğu təhlükəsizlik riskləri yaradır, resursların səmərəsiz istifadəsinə səbəb olur.

Eləcə də, informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik strategiyasının mövcudluğuna baxmayaraq, sahə üzrə risklərin qeydiyyatı aparılmamış, təhdid landşaftı və kateqoriyaları müəyyənləşdirilməmişdir. Ölkə səviyyəsində diaqnostikanın aparılmaması və fövqəladə hallar zamanı tətbiq olunmalı proseslərin müəyyən edilməməsi milli rəqəmsal dayanıqlılığı zəiflədir. Yüksəkixtisaslı texnoloji kadrların çatışmazlığı və beyin axını riski vardır. Mövcud miqrasiya tələbləri xarici mütəxəssislərin və "rəqəmsal səyyah"ların ölkəyə cəlb edilməsini çətinləşdirir.

5 Azərbaycan Respublikasının regional və qlobal miqyasda rəqabət üstünlüyü qazana biləcəyi əsas sahələr aşağıdakılardır:

**3.5.1.elektron hökumət və dövlət texnologiyaları:** Azərbaycan Respublikası bu sahədə regionda lider mövqelərdən birini tutur. "Mygov" və "Hökumət buludu" kimi uğurlu platformalar üzərində qurulmuş yeni nəsil proaktiv və inteqrasiya olunmuş dövlət xidmətləri inkişaf etdirilə bilər. Bu həllərin regional bazarlara ixracı üçün əhəmiyyətli potensial mövcuddur;

**3.5.2.maliyyə texnologiyaları:** güclü rəqəmsal identifikasiya infrastrukturu və nağdsız ödənişlərə artan tələbat fonunda innovativ bankçılıq, sığorta və ödəniş həllərinin inkişafı üçün əlverişli zəmin vardır;

**3.5.3.tranzit məlumat mərkəzi:** Avropa və Asiya arasında strateji coğrafi mövqedən istifadə edərək regional data trafiki üçün mərkəzə çevrilmək və data mərkəzi xidmətləri təqdim etmək mümkündür.

Bu üstünlükləri reallaşdırmaq üçün məlumatların idarə edilməsi təkmilləşdirilməli, tənzimləyici mühit daha çevik olmalı və beynəlxalq əməkdaşlıq gücləndirilməlidir;

5 texnoloji innovasiyaların dəyər zəncirində (ideya - tədqiqat - prototip - kommersiyalaşdırma - bazar) əsas boşluqlar və problemlər aşağıdakılardır:

**3.5.4.1. maliyyələşmə boşluğu:** dəyər zəncirinin xüsusilə "prototip" və "kommersiyalaşdırma" mərhələlərində ciddi maliyyə çatışmazlığı müşahidə olunur. Mövcud 3 vençur fondu bazarın tələbatını qarşılamaq üçün yetərli deyil və alternativ maliyyə mexanizmlərinin ("mələk investorlar", kraudfandinq) hüquqi bazası yoxdur;

**3.5.4.2. normativ hüquqi və tənzimləmə maneələri:** innovativ maliyyələşmə mexanizmlərinin hüquqi bazasının olmaması və mövcud tənzimləmələrdəki konservativ yanaşmalar yeni texnologiyaların tətbiqini və bazara çıxışını məhdudlaşdırır;

**3.5.4.3. kommersiyalaşdırma mexanizmlərinin zəifliyi:** ali təhsil müəssisələri, elmi tədqiqat mərkəzləri və özəl sektor arasında əməkdaşlığın yetərli səviyyədə olmaması elmi tədqiqat nəticələrinin real iqtisadi dəyərə çevrilməsinə (kommersiyalaşdırma) mane olur. Həmçinin, yerli innovativ məhsulların daxili bazara (xüsusilə dövlət satınalmalarına) çıxışı məhduddur;

**3.5.4.4. infrastruktur məhdudiyyətləri:** Sİ kimi qabaqcıl texnologiyaların inkişafı üçün zəruri olan yüksək hesablama güclərinin çatışmazlığı tədqiqat və prototip mərhələlərində ciddi əngəl yaradır.

*(ardı 17-ci səhifədə)*

Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün

# FƏALİYYƏT PLANI

**(əvvəli 16-cı səhifədə)**

**4. Fəaliyyət Planının hədəf göstəriciləri**

4.1. Fəaliyyət Planının icrası nəticəsində aşağıda hədəflərə nail olunması nəzərdə tutulur:

4.1.1. beynəlxalq reytinqlərdə Azərbaycan Respublikasının mövqeyinin yüksəldilməsi;

4.1.2. müasir texnologiyanın tətbiqi üçün əlverişli şərait yaradılması;

4.1.3. proaktiv qaydada göstərilən dövlət elektron xidmətlərinin payının 50 faizə çatdırılması;

4.1.4. İKT sektorunun qeyri-neft-qaz ÜDM-də payının, rəqəmsal məhsul və xidmətlərin illik ixracının artırılması;

4.1.5. dövlət idarəetməsinin optimallaşdırılması və rəqəmsallaşdırılması.

**5. Fəaliyyət Planının məqsədləri**

5.1. Fəaliyyət Planının əsas məqsədləri aşağıdakılardır:

5.1.1. rəqəmsal idarəetmənin və iqtisadiyyatın rəqəmsal transformasiyasının sürətləndirilməsi;

5.1.2. milli innovasiya ekosisteminin gücləndirilməsi və texnoloji sahibkarlığın inkişaf etdirilməsi;

5.1.3. müasir texnologiyalar sahəsində insan kapitalının inkişaf etdirilməsi və istedadların ölkəyə cəlb edilməsi;

5.1.4. qabaqcıl texnoloji infrastrukturun qurulması və kibertəhlükəsizliyin təmin edilməsi;

5.1.5. elmi tədqiqatların təşviqi və nəticələrinin kommersiyalaşdırılmasının sürətləndirilməsi;

5.1.6. ölkə üzrə rəqəmsal inkişafın vahid arxitektura əsasında həyata keçirilməsinin sürətləndirilməsi;

5.1.7. müasir texnologiyaların istehsalı və tətbiqi sahəsində dövlət dəstəyinin artırılması.

**6. Fəaliyyət Planının prioritet istiqamətləri**

6.1. Azərbaycan Respublikasının rəqəmsal inkişafına təsir edən çatışmazlıqların aradan qaldırılması məqsədilə aşağıdakı prioritet istiqamətlər üzrə işlər həyata keçiriləcəkdir:

**6.1.1. Rəqəmsallaşma sahəsinin inkişafı və təkmilləşdirilməsi:**

6.1.1.1. əsaslandırma: dövlət informasiya ehtiyatlarının və sistemlərinin pərakəndə saxlanılması ciddi təhlükəsizlik riskləri yaradır, qurumlararası inteqrasiyanı çətinləşdirir və dövlət vəsaitinin səmərəsiz istifadəsinə səbəb olur. Məlumatların keyfiyyətinin və tamlığının təmin edilməsi proaktiv dövlət xidmətlərinə keçidin təməl şərtidir. EHİS-ə və "Hökumət buludu"na inteqrasiyası dövlət informasiya ehtiyatlarının və sistemlərinin pərakəndə saxlanılmasının qarşısını almaqla, qurumlararası inteqrasiyanı gücləndirəcək və dövlət vəsaitindən səmərəli istifadəni təmin edəcəkdir;

**6.1.1.2. görüləcək tədbirlər:**

6.1.1.2.1. dövlət informasiya ehtiyatlarında və sistemlərində toplanılan məlumatların, eləcə də Əhalinin Dövlət Reyestri, məhkəmə işləri, ünvan reyestri, daşınmaz əmlakın dövlət reyestri, vətəndaşlıq vəziyyəti aktları, elm və təhsil, əhalinin sağlamlığının qorunması və səhiyyə, sosial güzəşt və imtiyazlar, nəqliyyat vasitələri və onların xüsusiyyətləri, kommersiya qurumları və digər sahibkarlıq subyektləri üzrə məlumatların keyfiyyətinin artırılması və mərkəzləşdirilmiş data idarəçiliyinin tətbiqi;

6.1.1.2.2. "Dövlət məlumat hövzəsi"nin yaradılması və dövlət informasiya ehtiyatlarında və sistemlərində formalaşan məlumatların hövzəyə inteqrasiyası;

6.1.1.2.3. dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin tam rəqəmsallaşdırılması və "kağızsız hökumət"ə keçid;

6.1.1.2.4. vətəndaşlardan və sahibkarlıq subyektlərindən tələb olunan sənədlər (məlumatlar) üzrə "yalnız bir dəfə" prinsipinin tam tətbiqi və təkrar sənəd (məlumat) tələbinin qadağan edilməsi;

6.1.1.2.5. dövlət xidmətlərinin Sİ əsaslı təşkili;

6.1.1.2.6. elektron xidmətlərin reqlamentlərinin hazırlanması və "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə daxil edilməsi;

6.1.1.2.7. dövlət xidmətlərinin iş axınlarının optimallaşdırılması;

6.1.1.2.8. qurumlararası inteqrasiya əsasında dövlət xidmətlərinin tam rəqəmsallaşdırılması və mümkün olduğu halda proaktiv qaydada təşkili;

6.1.1.2.9. rəqəmsal dövlət xidmətlərinin, o cümlədən sənədlərin "bir pəncərə" prinsipi əsasında yalnız "Mygov" və "Mygov Biznes" platformaları (onların portalı və mobil tətbiqləri) vasitəsilə təqdim edilməsi;

6.1.1.2.10. dövlət xidmətləri üzrə yaradılmış portal və mobil tətbiqlərin ləğvi və xidmətlərin "Mygov" və "Mygov Biznes" platformalarında birləşdirilməsi;

6.1.1.2.11. rəqəmsal dövlət xidmətləri barədə dövlət orqanları (qurumları) tərəfindən ictimaiyyətin maarifləndirilməsi;

6.1.1.2.12. dövlət orqanlarında (qurumlarında) vəzifəli şəxslərin rəqəmsal inkişaf sahəsində səriştələrinin, bilik və bacarıqlarının artırılması;

6.1.1.2.13. dövlət orqanları (qurumları) tərəfindən rəqəmsallaşma, süni intellekt, innovasiya və kibertəhlükəsizlik üzrə yol xəritələrinin hazırlanması (əsas fəaliyyət göstəriciləri qeyd edilməklə) və icrasının təmin edilməsi;

6.1.1.2.14. sahibkarlıq subyektlərinin rəqəmsallaşma səviyyəsinin (o cümlədən əlaqələndirilmiş və sistemli şəkildə) artırılması üçün əməli və metodiki dəstək göstərilməsi;

6.1.1.2.15. açıq məlumatların siyahısının müəyyən edilməsi və "Açıq məlumatlar portalı"na inteqrasiya edilməklə hüquqi və fiziki şəxslərin həmin məlumatlara çıxışının təmini, konfidensial olmayan bütün məlumatların maşın tərəfindən oxuna bilən formatda API-lər vasitəsilə biznes və startap ekosistemi üçün əlçatan edilməsi;

6.1.1.2.16. dövlət informasiya ehtiyatlarının və sistemlərinin "Hökumət buludu"na keçidinin tamamlanması, dövlət orqanlarının (qurumlarının) lokal server infrastrukturundan imtinası və bütün dövlət informasiya sistemlərinin və ehtiyatlarının "Hökumət buludu" üzərindən təmin edilməsi;

6.1.1.2.17. Elektron Hökumət İnkişafı İndeksində ölkənin mövqeyinin yaxşılaşdırılması məqsədilə müvafiq tədbirlər görülməsi, o cümlədən "Elektron iştirakçılıq" portalının istismara verilməsi;

**6.1.1.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.1.3.1. informasiya ehtiyatlarının və sistemlərinin təhlükəsizliyinin və dayanıqlılığının artırılması, İT xərclərinə qənaət edilməsi;

6.1.1.3.2. bütün elektron dövlət xidmətlərinin EHİS üzərindən göstərilməsi;

6.1.1.3.3. "Hökumət buludu"na tam miqrasiyanın sona çatdırılması;

6.1.1.3.4. məlumatların dürüstlüyünün, tamlığının, dəqiqliyinin təhlili və çatışmazlıqların minimuma endirilməsi;

6.1.1.3.5. dövlət orqanlarında (qurumlarında) sənəd dövriyyəsinin və əməliyyatların 80 faizinin rəqəmsal formata keçirilməsi;

6.1.1.3.6. rəqəmsallaşdırmanın vahid arxitektura əsasında həyata keçirilməsi;

6.1.1.3.7. elektron ticarətin genişləndirilməsi;

**6.1.1.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.1.4.1. dövlət qurumlarında rəqəmsal transformasiyanı və süni intellektin tətbiqini idarə edəcək ixtisaslı mütəxəssis sayının yetərli olmaması bu sahədə tədbirlərin icrasının gecikməsinə səbəb ola və keyfiyyətinə maneə yarada bilər.

Bu riskin neytrallaşdırılması məqsədilə rəqəmsal bacarıqlar üzrə davamlı təlim proqramlarının təşkili, kənar ekspert və məsləhətçilərin prosesə cəlb edilməsi planlaşdırılır;

6.1.1.4.2. rəqəmsallaşma sahəsinə investisiya cəlbinin ləngiməsi – bu riskin aradan qaldırılması üçün aidiyyəti qurumların iştirakı ilə işçi qrupun yaradılması, icra müddətlərinə ciddi nəzarət və çevik tənzimləmə yanaşmalarının tətbiqi nəzərdə tutulur;

6.1.2. innovasiya fəaliyyəti sahəsində inkişafın təmin edilməsi məqsədilə fəaliyyətin təkmilləşdirilməsi:

6.1.2.1. **əsaslandırma:** vençur kapitalı, kraudfandinq və "mələk investorlar" kimi alətləri dəstəkləyən normativ hüquqi akt bazasının formalaşdırılması, innovativ layihələrin maliyyəyə çıxışının dəstəklənməsi ölkənin investisiya cəlbediciliyini artıracaq, texnoloji sahədə kadr təminatının yaxşılaşması və qlobal bilik transferi təmin olunacaq, ölkəyə cəlb edilmiş yüksəkixtisaslı xarici İT mütəxəssislərinin və "rəqəmsal səyyah"ların sayında artım görünəcəkdir;

6.1.2.2. **görüləcək tədbirlər:**

6.1.2.2.1. innovasiya fəaliyyətinin təşviqi üçün vençur, kraudfandinq və "mələk investor" fəaliyyətinin tənzimlənməsi, habelə qiymətli kağızlar bazarı üzrə normativ hüquqi bazanın təkmilləşdirilməsi;

6.1.2.2.2. innovasiya sahəsi üzrə ölkəyə cəlb edilən mütəxəssislər və onların ailə üzvləri üçün miqrasiya tələblərinin sadələşdirilməsi;

6.1.2.2.3. "Rəqəmsal Səyyah Vizası" və "Rəqəmsal İstedad Vizası" proqramlarının vahid platforma üzərindən tətbiqi, "Xüsusi Vergi Rejimi"nin müəyyən edilməsi, sosial sığorta və rezidentlik üzrə güzəştlərin tətbiqi və xarici valyuta köçürmələri ilə bağlı tənzimləməyə yenidən baxılması;

6.1.2.2.4. texnoparkların əhatə dairəsinin genişləndirilməsi və rezidentlik prosedurlarının sadələşdirilməsi, o cümlədən mövcud məhdudiyyətin aradan qaldırılması;

6.1.2.2.5. maliyyə texnologiyalarının təchizatçıları tərəfindən innovativ məhsul və xidmətlərin effektiv təqdim edilməsi üçün mövcud normativ hüquqi bazanın sadələşdirilməsi;

6.1.2.2.6. İKT sahəsində müstəqil fəaliyyət göstərən mütəxəssislər üçün (frilanserlər) hüquqi çərçivənin və vergi güzəştlərinin formalaşdırılması;

6.1.2.2.7. innovasiya, Sİ və İKT-yə dair elmi tədqiqatların sayının artırılması və təşviqi, habelə onların nəticələrinin kommersiyalaşdırılmasının və ixracının yüksəldilməsi;

6.1.2.2.8. dövlət müəssisələrinin və özəl sektorun innovasiya fəaliyyətində iştirak payının artırılması;

6.1.2.2.9. ali təhsil müəssisələrində aparılan elmi tədqiqat işlərinin kommersiyalaşdırılması, innovasiya əsaslı biznes mühitinin inkişaf etdirilməsi və elmi nəticələrin əldə edilməsi;

6.1.2.2.10. rəqəmsal məhsul və xidmətlərin təqdiminin və ixracının artırılması məqsədilə qlobal İKT və yüksək texnologiya şirkətlərinin Azərbaycan Respublikasında fəaliyyətə başlamasının təşviqi;

6.1.2.2.11. xarici ölkələrin İKT layihələrinin və yüksək texnologiya startaplarının, eləcə də bu sahə üzrə çalışan azərbaycanlı mütəxəssislərin ölkəyə cəlb edilməsi üçün stimullaşdırıcı mexanizmlərin hazırlanması;

6.1.2.2.12. "Texnoloji diaspor"un əhatə dairəsinin genişləndirilməsi;

6.1.2.2.13. ali təhsil müəssisəsi – sənaye tərəfdaşlığı çərçivəsində alim və tədqiqatçılar üçün qrant əsaslı tədqiqat layihələrinin təşviqi;

6.1.2.2.14. strateji texnologiyalar üzrə (kibertəhlükəsizlik, süni intellekt, fintex, oyun, aqrotex və s.) klasterləşmə layihələrinin həyata keçirilməsi;

6.1.2.2.15. startap ekosisteminə investisiya qoyuluşunu həyata keçirəcək yerli və beynəlxalq vençur kapitalı fondlarından ibarət birgə "Fondlar Fondu"nun yaradılması;

6.1.2.2.16. maliyyə əməliyyatlarında xərclərin effektivliyinin və şəffaflığın artırılması məqsədilə Mərkəzi Bankın Rəqəmsal Valyutası platformasının tətbiqi və ekosistemə inteqrasiyası;

**6.1.2.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.2.3.1. innovasiya ekosisteminə cəlb edilən özəl investisiyaların həcminin artması;

6.1.2.3.2. yeni vençur fondunun təsis edilməsi;

6.1.2.3.3. innovasiya sahəsi üzrə kadrların və peşəkar mütəxəssislərin sayının artırılması;

6.1.2.3.4. innovasiya sahəsində normativ hüquqi bazanın gücləndirilməsi;

6.1.2.3.5. innovasiya, Sİ və İKT-yə dair elmi tədqiqatların nəticələrinin kommersiyalaşdırılması və ixracının yüksəldilməsi;

6.1.2.3.6. xaricdə yaşayan İKT və yüksək texnologiya sahəsində fəaliyyət göstərən startapların və azərbaycanlı mütəxəssislərin ölkəyə cəlb edilməsi;

**6.1.2.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.2.4.1. ilkin dövrlərdə təlimlərin təşkili, innovativ layihələrin həyata keçirilməsi üçün peşəkar kadr çatışmazlığı müşahidə oluna bilər.

Bu riski neytrallaşdırmaq üçün peşəkar mütəxəssislərə bir sıra stimullaşdırıcı və həvəsləndirici tədbirlərin və güzəştlərin tətbiq olunması nəzərdə tutulur;

6.1.2.4.2. innovasiya fəaliyyətinin artırılması üçün investisiyaların cəlbi ləngiyə bilər.

Bu riski neytrallaşdırmaq üçün aidiyyəti qurumların iştirakı ilə işçi qrupların yaradılması, birgə müzakirələr aparılması və qarşılıqlı fəaliyyətin həyata keçirilməsi nəzərdə tutulur;

6.1.3. Sİ texnologiyaları sahəsində fəaliyyətin təkmilləşdirilməsi

6.1.3.1. **əsaslandırma:** Sİ texnologiyanın və sənayenin hər bir sahəsində tətbiqi bir sıra tədbirlər görülməsini zəruri edir. Azərbaycan Respublikasında mövcud yüksək performanslı hesablama infrastrukturunun kifayət qədər olmaması Sİ həllərinin inkişafını, xüsusilə, Azərbaycan dilində Sİ modellərinin hazırlanmasını və tətbiqini məhdudlaşdırır. Sİ sahəsində tədbirlər görülməsi Azərbaycan Respublikasının bu sahədə müstəqil inkişafı üçün vacibdir;

6.1.3.2. görüləcək tədbirlər:

6.1.3.2.1. Sİ texnologiyalarının tətbiqi ilə bağlı dövlət dəstəyi mexanizmlərinin formalaşdırılması (vergi, gömrük, sosial sığorta və s.);

6.1.3.2.2. yüksəksəviyyəli hesablama infrastrukturunun qurulması üçün tədbirlərin görülməsi, həmçinin xərclərin dövlət tərəfindən maliyyələşdirilməsi, Milli GPU əsaslı Superkompüter Mərkəzinin yaradılması və innovativ startaplar, elmi müəssisə və təşkilatlar üçün bu resurslara kvotalar əsasında çıxışın təmin edilməsi;

6.1.3.2.3. dövlət orqanlarında (qurumlarında) Sİ texnologiyalarının istifadəsinə dair əsas fəaliyyət göstəricilərinin müəyyən edilməsi, hər bir dövlət orqanı (qurumu) üçün illik fəaliyyət planında "süni intellekt indeksi"nin müəyyən edilməsi və avtomatlaşdırılmış proseslərin ümumi iş yükündə payının artırılması üzrə hədəflərin müəyyən edilməsi;

6.1.3.2.4. Sİ, kibertəhlükəsizlik və innovasiya sahələri üzrə yüksəkixtisaslı miqrantların dövlət qurumlarında işə cəlb edilməsi;

6.1.3.2.5. Təbii Dil Emalı texnologiyalarının tətbiqi və Azərbaycan dili üzrə Böyük Dil Modellərinin yaradılması, dövlət xidmətlərində Sİ əsaslı interaktiv virtual köməkçilərin tətbiqi ilə xidmətlərin 24/7 rejimində əlçatanlığının təmin edilməsi;

6.1.3.2.6. Sİ sistemlərinin tətbiqi zamanı fərdi məlumatların mühafizəsinin gücləndirilməsi;

6.1.3.2.7. Sİ və innovativ rəqəmsal həllər üçün "Tənzimləyici Test Mühiti"nin yaradılması və tətbiqi;

6.1.3.2.8. nəqliyyat növləri üzrə avtonom nəqliyyat vasitələrinin tətbiqi üçün normativ hüquqi, texnoloji və institusional bazanın yaradılması və mərhələli tətbiqinin təmin edilməsi;

**6.1.3.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.3.3.1. Sİ əsaslı yerli həllərin hazırlanması və tətbiqinin sürətlənməsi;

6.1.3.3.2. Sİ infrastrukturundan istifadə edən layihələrin sayında əhəmiyyətli artım;

6.1.3.3.3. Sİ texnologiyalarının istifadəsinə dövlət dəstəyinə dair təkliflərin təsdiq üçün təqdim edilməsi;

6.1.3.3.4. yüksəksəviyyəli hesablama infrastrukturunun qurulması və istifadəyə verilməsi;

6.1.3.3.5. "süni intellekt indeksi" ilə müəyyən edilmiş göstəricilərin dövlət orqanlarının (qurumlarının) iş prosesinə tətbiq edilməsi;

6.1.3.3.6. Sİ üzrə yüksəkixtisaslı miqrantların ölkəyə cəlb edilməsi;

**6.1.3.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.3.4.1. yüksək maliyyə xərcləri və texnologiyaların sürətlə köhnəlməsi sahənin tam inkişafına mane olur.

Bu riskin neytrallaşdırılması məqsədilə beynəlxalq əməkdaşlığın genişləndirilməsi və dövlət dəstəyi mexanizminin tətbiqi nəzərdə tutulur;

6.1.4. kibertəhlükəsizlik sahəsində fəaliyyətin təkmilləşdirilməsi

**6.1.4.1. əsaslandırma:** rəqəmsallaşmanın dərinləşməsi ilə paralel olaraq qlobal miqyasda kiberhücumların sayı, miqyası və mürəkkəbliyi də artır. Ölkənin rəqəmsal asılılığı və kritik informasiya infrastrukturunun mühafizəsinin gücləndirilməsi vahid mərkəzin yaradılmasını və milli rəqəmsal dayanıqlılığın yüksəldilməsini tələb edir. Həmçinin, mövcud normativ hüquqi baza müasir kibertəhdidlərə qarşı adekvat reaksiya göstərilməsi bu sahə üzrə tənzimləmənin təmin edilməsi baxımından müasir tələblərə tam cavab vermir. Ölkədə mövcud kibertəhlükə landşaftı və fövqəladə hallar zamanı reaksiya prosesləri dəqiq müəyyən edilməmişdir. İnformasiya infrastrukturlarının təhlükəsizliyinin təmin edilməsi, dayanıqlı ekosistemin təmin edilməsi məqsədilə zəruri olan ixtisaslı kadrların çatışmazlığı mövcuddur;

**6.1.4.2. görüləcək tədbirlər:**

6.1.4.2.1. Azərbaycan Respublikası üzrə kiberhücumlara qarşı dayanıqlı müdafiə, onların nəticələrinin təhqiqatı və aradan qaldırılması fəaliyyətinin koordinasiyası üçün mərkəzin yaradılması;

6.1.4.2.2. Azərbaycan Respublikası üzrə kibertəhlükəsizlik risklərinin effektiv idarə edilməsi mexanizminin qurulması;

6.1.4.2.3. Azərbaycan Respublikası üzrə insidentlərin effektiv və koordinasiyalı cavablandırılması üçün vahid kibertəhlükəsizlik platformasının yaradılması;

6.1.4.2.4. yayılması qadağan edilən informasiyanın internet informasiya ehtiyatlarında yerləşdirilməsi hallarına qarşı mübarizə tədbirlərinin gücləndirilməsi və qadağan olunmuş məzmunun Sİ vasitəsilə avtomatik aşkar edilməsi sistemlərinin tətbiqi;

6.1.4.2.5. rəqəmsal mühitdə kibertəhlükəsizliyin gücləndirilməsi və sahə üzrə dövlət siyasətinin hüquqi əsaslarının təkmilləşdirilməsi;

6.1.4.2.6. dövlət orqanlarında (qurumlarında) kibertəhlükəsizlik üzrə kadrların və rəhbər şəxslərin bilik və bacarıqlarının artırılması;

6.1.4.2.7. bütün dövlət xidmətlərinin EHİS-ə inteqrasiyası və dövlət informasiya ehtiyatlarının və sistemlərinin "Hökumət buludu"na keçidi ilə informasiya təhlükəsizliyinin, o cümlədən kibertəhlükəsizliyin təmin edilməsi;

6.1.4.2.8. kibertəhlükəsizlik sahəsində əhalinin maarifləndirilməsi;

6.1.4.2.9. ali, peşə və ümumi təhsil pillələrində İKT, Sİ və informasiya təhlükəsizliyi sahələri ilə əlaqəli ixtisaslar üzrə təhsil proqramlarının təkmilləşdirilməsi, onların əmək bazarının tələblərinə uyğunlaşdırılması, habelə sənaye ehtiyaclarına cavab verən beynəlxalq sertifikasiya proqramlarının tədris prosesinə inteqrasiyası;

**6.1.4.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.4.3.1. Azərbaycan Respublikası üzrə kibertəhdidlərə qarşı koordinasiyalı birgə tədbirlərin həyata keçirilməsi, effektivliyin yüksəldilməsi;

6.1.4.3.2. Azərbaycan Respublikasını hədəfə alan və ya mövcud təhdidlərə qarşı mübarizədə hazırlıq səviyyəsinin yüksəldilməsi;

6.1.4.3.3. kibertəhlükəsizlik sahəsi üzrə normativ hüquqi bazanın müasir çağırışların tələblərinə uyğunlaşdırılması;

6.1.4.3.4. Azərbaycan Respublikasında kibertəhlükəsizlik sahəsində ixtisaslı kadrların hazırlanması, dövlət orqanlarında (qurumlarında) sahə üzrə bilik və bacarıqların artırılması;

6.1.4.3.5. dövlət informasiya ehtiyatlarının və sistemlərinin kiberdayanıqlılığının artırılması;

6.1.4.3.6. Azərbaycan Respublikası üzrə kibersavadlılıq səviyyəsinin artırılması;

6.1.4.3.7. Qlobal Kibertəhlükəsizlik İndeksində ölkənin mövqeyinin gücləndirilməsi;

**6.1.4.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.4.4.1. ilk dövrlərdə təhlükəsizliyin təmin edilməsi, təlimlərin təşkili üçün peşəkar kadr çatışmazlığı müşahidə oluna bilər.

Bu riskin neytrallaşdırılması məqsədilə xarici təlimçilər cəlb edilə bilər;

6.1.5. idarəetmə və monitorinq

**6.1.5.1. əsaslandırma:** rəqəmsallaşma, Sİ və kibertəhlükəsizlik sahələri dövlət idarəçiliyində səmərəliliyin artırılması, xidmət keyfiyyətinin yüksəldilməsi və milli rəqəmsal dayanıqlılığın təmin edilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Bu sahələrdə uğurlu transformasiya yalnız texnoloji həllərin tətbiqi ilə deyil, eyni zamanda aydın institusional məsuliyyət, mərkəzləşdirilmiş koordinasiya və nəticəyönümlü idarəetmə mexanizmlərinin formalaşdırılması ilə mümkündür. Mövcud vəziyyətin təhlili göstərir ki, dövlət orqanları (qurumları) üzrə rəqəmsallaşma, Sİ və kibertəhlükəsizlik təşəbbüsləri üzrə resurslardan istifadədə təkrarlanma halları müşahidə edilir, habelə icra nəticələrinin ölçülməsi və hesabatlılıq mexanizmləri kifayət qədər inkişaf etməmişdir;

**6.1.5.2. görüləcək tədbirlər:**

6.1.5.2.1. hər bir dövlət orqanı (qurumu) rəhbərinin müavini səviyyəsində rəqəmsallaşmaya, innovasiya, Sİ və kibertəhlükəsizlik üzrə funksiyanın icrasına məsul şəxsin (bundan sonra – məsul şəxs) təsbit edilməsi və onun fəaliyyətinin birbaşa rəqəmsal, Sİ və kibertəhlükəsizliklə bağlı hədəflərlə əlaqələndirilməsi;

6.1.5.2.2. dövlət orqanlarının (qurumlarının) rəqəmsal inkişaf xərclərinin vahid mərkəzdən razılaşdırılması mexanizminin qurulması;

6.1.5.2.3. dövlət orqanlarında (qurumlarında) layihələrin vaxtında və keyfiyyətlə icrasını təmin edən Layihə İdarəetmə Ofisinin fəaliyyətinin təşkili;

6.1.5.2.4. bütün dövlət orqanlarının (qurumlarının) rəqəmsal inkişaf tədbirlərinin icrasının izlənilməsi üçün rəqəmsal platformanın yaradılması;

6.1.5.2.5. rəqəmsal xidmətlər üzrə istifadəçi məmnunluğunun ölçülməsi, xidmətin keyfiyyətinin və həyata keçirilməsinin birbaşa istifadəçilər (vətəndaş və biznes) tərəfindən qiymətləndirilməsi və xidmət keyfiyyətinin artırılması;

**6.1.5.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.5.3.1. Fəaliyyət Planında qeyd edilən tədbirlərin gecikmə riskinin minimuma endirilməsi, bununla da vaxtında və tam icrasına nail olunması;

6.1.5.3.2. dövlət investisiyalarının effektivliyinin artırılması və rəqəmsal layihələrin vahid arxitekturaya tam uyğunluğunun təmini;

6.1.5.3.3. istifadəçi rəyləri əsasında dövlət xidmətlərinin interaktiv (dinamik) optimallaşdırılması;

**6.1.5.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.5.4.1. məsul şəxslərin (rəhbərin müavini səviyyəsində) yalnız formal təyin edilməsi, real səlahiyyət və təsir imkanlarının məhdud olması.

Bu riskin neytrallaşdırılması məqsədilə məsul şəxslərin fəaliyyətinin qiymətləndirilməsində müvafiq nəticə indikatorları əsas meyar kimi tətbiq edilə bilər;

6.1.5.4.2. mərkəzləşdirilmiş razılaşdırma mexanizmlərinə qarşı qurumların institusional müqaviməti və qərarların ləngiməsi.

Bu riskin neytrallaşdırılması məqsədilə qurumlararası işçi qrup yaradıla bilər;

**7. Fəaliyyət Planının maliyyələşdirilməsi**

Fəaliyyət Planının həyata keçirilməsi üzrə Tədbirlər Planında qeyd olunan müvafiq tədbirlərin maliyyələşdirilməsi büdcə təşkilatları üçün onların saxlanılması məqsədilə Azərbaycan Respublikasının dövlət büdcəsində nəzərdə tutulan vəsait, dövlət orqanlarının (qurumlarının) büdcədənkənar vəsaiti, eləcə də dövlət büdcəsindən ayrılmış məqsədli vəsait, qanunda nəzərdə tutulan digər mənbələr hesabına, habelə özəl sektorun vəsaiti və dövlət–özəl tərəfdaşlığı layihələri vasitəsilə təmin olunur.

Təsərrüfathesablı qurumların, özəl qurumların Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərdə iştirakı həmin qurumların vəsaiti hesabına və qanunla nəzərdə tutulan digər mənbələrdən maliyyələşdirilir.

***(ardı 18-ci səhifədə)***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 39 (31008) 28 fevral 2026-cı il, şənbə

# İDMAN

## Azərbaycanın UEFA reytinqi artıb

**“Qarabağ”ın UEFA Çempionlar Liqasında uğurlu çıxışı nəticəsində Azərbaycanın cari mövsüm üçün UEFA reytinqi 5,812-yə bərabər olub.**



Peşəkar Futbol Liqasından verilən məlumata görə, bu, 2023/2024-cü illər mövsümündən sonra (5,850) ikinci ən yüksək göstəricidir.

Həmçinin Ağdam təmsilçisi cari mövsüm klubun UEFA reytinqində 13,750 xal qazanmaqla Azərbaycan futbolu tarixində rekorda imza atıb. Ağdam klubu 2 il əvvəl topladığı 11,000 xallıq göstəricini geridə qoyub.

## Misli Premyer Liqasında XXII tur



**Futbol üzrə Misli Premyer Liqasında XXII tura start verilib. İlk oyun günündə əvvəlcə “Kəpəz” və “Sumqayıt” komandaları qarşılaşıb. Yevlax şəhər stadionunda keçirilən görüş Gəncə klubunun 3:0 hesablı qələbəsi ilə yekunlaşıb. Qolları görüşün 2-ci dəqiqəsində Ryonosuke Ohori, 18 və 40-cı dəqiqələrdə Paçu qonaqların qapısından keçirib. Sumqayıtlılar hazırda turnir cədvəlində 31 xalla 6-cı, gəncəlilər isə 16 xalla 10-cu pillədədir.**

Günün ikinci oyununda “Araz-Naxçıvan” “Liv Bona Dea Arena”da “Zirə”ni qəbul edib. Qarşılaşma 0-1 hesabı ilə bakılıların xeyrinə başa çatıb. “Qartallar” 38 xalla 4-cü, Muxtar Respublika klubu isə 33 xalla 5-ci pillədə qərarlaşıb.

Qeyd edək ki, turun növbəti oyunları fevralın 28-də və martın 1-də keçiriləcək.

## “Daşkənd Dəbilqəsi”ndə Azərbaycan finalı




**Dünən Özbəkistanın paytaxtı Daşkənddə keçirilən “Böyük dəbilqə” turniri start götürüb. 60 kilo Azərbaycan cüdoçusu Əhməd Yusifov final görüşünədək bütün rəqiblərindən üstün olub. O, finalda digər cüdoçumuz Balabəy Ağayevi məğlub edərək karyerası ərzində ilk dəfə “Böyük dəbilqə” turnirinin qalibi olub.**

Daha əvvəl Nizami İmranov, Turan Bayramov (hər ikisi 66 kq), Könül Əliyeva, Şəfəq Həmidova (hər ikisi 48 kq), Leyla Əliyeva (52 kq) mübarizəni dayandırıb.

Xatırladaq ki, “Böyük Dəbilqə” turniri martın 1-də başa çatacaq.

## Stolüstü tennisçilərimiz Türkiyə Superliqasında



**Stolüstü tennis üzrə milli komandanın 4 üzvü Türkiyə Superliqasında iştirak edəcək.**

Azərbaycan Stolüstü Tennis Federasiyasından verilən məlumata görə, Zemfira Mikayılova ilə Mərziyyə Nurmətova “Masader Spor Klubu”, Adil Əhmədzadə ilə Onur Quluzadə isə “Spin Point Spor Kulubu”ndan dəvət alıb. Sözügedən idmançılar yarışın 3-cü və 4-cü turunda çempionat oyunlarına çıxacaqlar. Qarşılaşmalar fevralın 28-i və martın 1-də Kayseri şəhərinin idman kompleksində təşkil olunacaq.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Ötənlərdən-itənlərdən*

# Bir şəklin söylədikləri

**Sosial şəbəkədə qarşıma çıxan bir şəkil dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 600 illik yubileyi ərəfəsində çəkilmiş filmin bəzi epizodlarını yada saldı. Önəmlisi odur ki, yazıçı İsa Hüseynovun ssenarisi əsasında lentə alınmış “Nəsimi” filmi üçün gözəl aktyor ansamblı seçilib. Şübhəsiz, bu uğur, ilk növbədə, quruluşçu rejissor Həsən Seyidbəylinin xidmətidir.**



İsmayıl Osmanlı (Nəimi), Məmmədrza Şeyxzamanov (şeyx Əzəm), Yusif Vəliyev (Əmir Teymur), Rasim Balayev (Nəsimi), Muxtar Maniyev (Miranşah), Kamal Xudaverdiyev (Yusif), Tofiq Mirzəyev (Dövlət bəy), Xalidə Quliyeva (Fatma) və başqaları yaddaqalan obrazlar yaradıblar. Məsələn, inamla demək olar ki, Yusif Vəliyevin Əmir Teymuru film və tamaşalarda yaradılmış obrazlar arasında ən yaxşılardan biri sayıla bilər.

Tarixi film kimi “Nəsimi”dən sonra çəkilmiş ekran əsərlərimizin, demək olar ki, heç biri onun qədər tamaşaçı sevgisi və şöhrət qazana bilməyib.

Filmdə istedadı roldan-rola parlayan Səməndər Rzayev də var. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı səhnəsində sevilən obrazlar qalareyası yaradan Səməndərin Şirvanşah İbrahimi, mənə görə, şedevrdir. Onu da əlavə edim ki, bu filmə qədər (səhv etmirəmsə) heç bir ekran əsərimizdə Şirvanşah I İbrahim obrazı əksini tapmayıb. Halbuki, Şirvanşah I İbrahim Şirvanşah dövlətinin ən bacarıqlı hökmdarlarından biri olub. O, 1382–1417-ci illərdə Şirvanı idarə edib və ölkənin siyasi müstəqilliyinə xüsusi önəm verib. Əmir Teymurun yürüşləri zamanı ağıllı diplomatiya aparan şah Şirvanı, tam olmasa da, işğaldan qoruyub.

Filmin əvvəlində şair Nəsimi hürufi müridlərlə ustadları Fəzlullah Nəimini qorumaq üçün Şirvanşah İbrahimin görüşünə gedir. Söhbət zamanı şair şaha bu təriqətin əsas ideyasının azad insan uğrunda mübarizə olduğunu söyləyir.

Şirvanşah isə deyir:

- Mən şaham, mənə qılınc tutan əl lazımdır, söz deyən dil yox. Padşahlıq sözlə yox, qılıncla qorunur... Çoxdumu belə tanrılıq iddiasında olanlar?..

Müridləri zindandan azad etmək üçün şahın şeyxlə dialoqu da yaddaqalandır:

- Qulaq as, şeyx və ömürlük yadında saxla! 12 il bundan əvvəl Şirvan camaatı üsyan edib Şirvanşah Huşəngi qətlə yetirdi və kasıb bir rəncbəri taxta çıxardı. O vaxtdan mənəm Şirvanşah – İbrahim əvvəl. İkinci bir şah yoxdur... Mən Əmir Teymurun müttəfiqiyəm, şeyx və bunu minlərlə əsgərimin qanı bahasına sübuta yetirmişəm. Əmir Teymur müttəfiqlərinin işinə qarışmağı heç kimə bağışlamır, hətta öz varislərinə də...

Şah Şirvanı və şair-filosof Nəsimini qorumaq üçün yollar axtarır. Çarə tapmadıqda:

– Get, Nəsimi… Şirvan sənə dar oldu... Sözün od kimidir – burda yanar, aləmi yandırar...–, deyir.

Hər dəfə filmə tamaşa edəndə Səməndər Rzayevin bulaq kimi çağlayan səsində və vüqarlı baxışlarındakı ağayanalıqla yanaşı, nigarançılığı da aydın duyuram...

Filmdəki dialoqların və hadisələrin məntiqi ardıcıllığı İsa Hüseynov qələminin gücünü bir daha ortaya qoyur.

Yeri gəlmişkən deyim ki, tələbə olanda əski əlifbanı bizə rəhmətlik Əli Fəhmi öyrədirdi. Əli müəllim ixtisasca həkim olsa da, ensiklopedik adam idi və bizə tənəffüsdə müxtəlif söhbətlər edirdi. Ə.Fəhmi “Nəsimi” filminin məsləhətçilərindən (leksika üzrə) biri olmuşdu. Bizim xahişimizlə o, yazıçı İsa Hüseynov və quruluşçu rejissor Həsən Seyidbəyli ilə necə işlədiklərindən danışırdı...



Azadlıq üfüqündə günəş kimi parlayan, “həqq mənəm, həqq məndədir” deyərək, amalından dönməyən və diri-diri soyularaq qürbətdə qalan böyük şair doğma yurda dönmək üçün 6 əsr gözləməli oldu. O, belə demək mümkünsə, 1973-cü ildə ekranlaşdırılan “Nəsimi” filmi ilə vətənə qayıtdı.

Bu film bizim üçün yalnız sirlər arxasında yaşayan şair-filosof Nəsimini gündəmə gətirmədi, eyni zamanda, tariximizin bir çox qaranlıq səhifələrinə işıq saldı. Hər şeydən əvvəl, az da olsa, xalqımızın hansı mübarizələrdən keçdiyini geniş tamaşaçı auditoriyasına göstərdi, Nəimi və hürufilik, onun ideya və prinsiplərindən bəhs etdi. Digər tərəfdən, əyan etdi ki, xalqımız əsrlərlə öz düşməninə qarşı təkcə qılıncla deyil, həm də ağıl və təfəkkürü, kəsərli poeziyası ilə mübarizə aparıb. Belə olmasaydı, Nəsiminin yazdıqları dindarları və şahları qorxuya salmazdı.

Filmin yaradıcı heyətinin çoxu artıq dünyasını dəyişib. Allah onların hamısına rəhmət eləsin, əbədi məkanları nurla dolsun!

*Səməd MƏLİKZADƏ*

*Kainat və biz*

# Planetlərin səma görüşü

*Bu axşam 6 “kosmik qardaş” bir-birinə əl edib keçəcək*

**Bu gün axşam saatlarında səma müşahidəçiləri nadir və diqqətçəkən astronomik hadisəni izləyə biləcəklər. Günəş batdıqdan sonra 6 planet – Merkuri, Venera, Yupiter, Saturn, Uran və Neptun eyni vaxtda səmada düz xətt boyunca görünəcək. Bu hadisə astronomiyada “planetlərin böyük paradı” adlanır və nəhəng kosmik obyektlərin sayına görə ən maraqlı düzülüşlərdən hesab olunur.**



Astronomlar bildirirlər ki, Günəş sistemindəki planetlər eyni müstəvidə deyil, ekliptika yaxınlığında fərqli müstəvilərdə, müxtəlif orbitlərdə fırlanır. Buna görə də onların tam bir xətt boyunca düzülməsi mümkün deyil. Hadisə zamanı Günəşdən bir tərəfdə 4 planet bir sektorda düzülərsə, bu, kiçik, 6 planet görünərsə, böyük, bütün planetlər bir sırada olduqda isə tam parad hesab edilir.

3 planetin bir-birinə yaxınlaşdığı mini-parad ildə bir neçə dəfə, 4 planetin belə görünüşü isə kiçik parad ildə bir dəfə, beş və ya altı planetin iştirak etdiyi böyük parad isə hər 20 ildən bir baş verir. Tam planet paradı isə olduqca nadir hallarda – təxminən 170-180 ildən bir müşahidə olunur. Tiplərin adından aydın olduğu kimi, burada söhbət planetlərin iştirakı ilə baş tutan prosesdən gedir. Bu hadisə planetlərin Günəşdən eyni istiqamətdə bir-birinin ardınca düzülüşü zamanı yaranır. Bu, əslində, nadir hadisədir.

Şamaxı Astrofizika Rəsədxanasının elmi işçisi Aytac İskəndərova XQ-yə bildirdi ki, planetlərin paradı dedikdə Günəş sistemindəki bir neçə planetin Yer kürəsindən baxdıqda sanki bir xətt boyunca düzülməsi nəzərdə tutulur. Əslində planetlər kosmosda bir-birinə yaxınlaşmır və aralarındakı məsafə dəyişmir. Sadəcə olaraq, onların orbitləri elə mövqedə olur ki, Yer kürəsindən baxarkən səmanın müəyyən hissəsində bir arada görünürlər. Bu, yalnız vizual və proyeksiya xarakterli hadisədir. Planetlərin hamısı Günəş ətrafında təxminən eyni müstəvidə – ekliptika müstəvisində hərəkət etdiyinə görə biz onları səmanın eyni zolağı boyunca müşahidə edirik.

Astronomiyada belə düzülüşlər planetlərin sayına görə təsnif edilir. Fevralın 28-də altı planetin eyni vaxtda müşahidə olunması bu hadisəni “böyük parad” kateqoriyasına daxil edir. Belə düzülüşlər orta hesabla 10–20 ildən bir baş versə də, axşam saatlarında və müşahidə üçün əlverişli şəraitdə baş verməsi daha nadir hal sayılır.

Həmin axşam dörd planet adi gözlə görünəcək. Venera səmanın ən parlaq obyektlərindən biri kimi asanlıqla seçiləcək və digər planetləri tapmaq üçün yaxşı istinad nöqtəsi rolunu oynayacaq. Yupiter də parlaq şəkildə diqqət çəkəcək və səmanın daha yüksək hissəsində yerləşəcək. Saturn sabit işığı ilə ulduzlardan fərqlənəcək. Merkuri isə Günəşə yaxın orbitdə hərəkət etdiyi üçün həmişə üfüqə yaxın görünür.

Uran və Neptun isə daha uzaq yerləşdiklərinə görə binokl və ya teleskop tələb edir. Xüsusilə Ayın işıqlı fazada olması zəif görünən planetlərin seçilməsini çətinləşdirə bilər. Bununla belə, hava şəraiti əlverişli olduqda və işıq çirkliliyi az olan ərazidə müşahidə aparıldıqda altı planetin eyni vaxtda görünməsi mümkün olacaq.

Müşahidə üçün ən uyğun vaxtın Günəş batdıqdan təxminən 30 dəqiqə sonra olduğunu vurğulayan müsahibim əlavə etdi ki, bu zaman səma kifayət qədər qaralır, lakin planetlər hələ üfüqə çox yaxın enmirlər. Atmosferin aşağı qatları səma cisimlərinin işığını zəiflədib səpələdiyi üçün planet üfüqə nə qədər yaxın olarsa, onu görmək bir o qədər çətinləşir. Buna görə də qərb istiqamətində açıq və maneəsiz üfüqə malik ərazilər, xüsusilə şəhər işıqlarından uzaq məkanlar daha əlverişlidir.

Qeyd etmək vacibdir ki, bu cür düzülüşlər Yerə və ya onun üzərində yaşayan canlılara heç bir fiziki təsir göstərmir. Planetlərin cazibə təsiri bu vəziyyətdə dəyişmir, iqlim və ya seysmik proseslərə təsir baş vermir. Bu hadisə yalnız müşahidə xarakterli astronomik hadisədir və tamamilə təhlükəsizdir.

Planetlərin çoxluqla görünməsi bir neçə gün davam edə bilər, çünki onların səma üzrə hərəkəti tədrici xarakter daşıyır. Lakin fevralın 28-də onların daha sıx qruplaşmış vəziyyətdə görünməsi, eyni anda bir neçə planeti müşahidə etmək elmi baxımdan da maraqlıdır. Bu nadir səma mənzərəsi insanı Günəş sisteminin quruluşu və kainatdakı yerimiz haqqında daha dərindən düşünməyə sövq edir.

*Mustafa KAMAL*
*XQ*

# HAVA

## Bu gün yağış, sulu qar və qar yağacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin arabir yağıntılı olacağı proqnozlaşdırılır. Günün birinci yarısında bəzi yerlərdə intensivləşəcəyi, sulu qara keçəcəyi ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi əsəcək.**



Havanın temperaturunun gecə və gündüz 1-5 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 762 millimetr civə sütunundan 766 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 80-90 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 0-4, gündüz 4-7 dərəcə isti, dağlarda gecə 5-10, yüksək dağlıq ərazilərdə 10-15, gündüz 0-5 dərəcə şaxta olacağı bildirilir.

Gecə və səhər bəzi dağlıq və dağətəyi rayonlarda yollar buz bağlayacaq.

*Q.ƏLİYEV*
*XQ*

“Gözəllik”ASC-nin AZ1001013056 Dövlət qeydiyyat nömrəsi ilə qeydiyyata alınmış, hər birinin nominal dəyəri 0,25 manat olan, 115624 ədəd adi, adlı səhmləri dövriyyədən çıxarılır.

*Ləğvetmə komissiyası*

✓ *“Grant Aqro Servis” MMC-yə (VÖEN: 2005722811) məxsus bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin idxalına dair EL-111/2021/1 qeydiyyat nömrəli 6 aprel 2021-ci il tarixli lisenziya və EL-111/2021/1 qeydiyyat nömrəli 6 aprel 2021-ci il tarixli lisenziya əlavəsi itdiyi üçün etibarsız sayılır.*

✓ *Hərbi qulluqçu Əliyev Nurlan Ağafər oğlunun adına verilmiş AD seriyalı, 0022663 nömrəli hərbi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2927
SİFARİŞ 264
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Nurlan ABDALOV
Çapa imzalanmışdır 00:00